Xalqın qəzeti!
# Xalq qəzeti
№ 197 (30891) 16 sentyabr 2025-ci il, çərşənbə axşamı
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

**Bütün Qarabağ, bütün Şərqi Zəngəzur tikinti meydançasıdır. Qısa müddət ərzində bu gözəl evlərin bərpası, tikintisi, bütün infrastrukturun yaradılması bizim gücümüzü, niyyətimizi göstərir. Əsas odur ki, bütün siyasi addımlarımızın mərkəzində Azərbaycan vətəndaşı dayanır.**

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

# Azərbaycanın nəbzi Qarabağda döyünür

## *Prezident İlham Əliyevin Qarabağ bölgəsinə səfəri*

## Füzuli rayonunun yeni salınacaq Qaraxanbəyli kəndinin təməli qoyulub




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Füzuli rayonunun yeni salınacaq Qaraxanbəyli kəndinin təməlini qoyub.**



Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, yeni salınacaq kəndə Ermənistanın işğalı zamanı dağıdılmış Qaraxanbəyli və Merdinli kəndlərinin sakinləri yerləşdiriləcək. Layihə iki mərhələdə icra olunacaq. Gələn il yekunlaşdırılması nəzərdə tutulan birinci mərhələ 87 hektara yaxın ərazidə həyata keçiriləcək. Bu mərhələdə 404 ailənin, ümumilikdə 1861 nəfərin köçürülməsi nəzərdə tutulur. Ərazidə 81 ədəd iki, 202 ədəd üç, 101 ədəd dörd, 20 ədəd beşotaqlı olmaqla 404 fərdi ev inşa ediləcək. Kənddə sosial infrastrukturun, o cümlədən inzibati və xidmət binalarının, məktəbin, uşaq bağçasının, tibb məntəqəsinin inşası, 16 kilometrə yaxın daxili yolların, həmçinin elektrik, qaz, su və kanalizasiya xətlərinin çəkilməsi planlaşdırılır.

2027–2030-cu illəri əhatə edəcək ikinci mərhələ isə 230 hektara yaxın ərazidə icra olunacaq. Həmin dövr buraya 1075 ailənin, ümumilikdə 4093 nəfərin köçürülməsi nəzərdə tutulur. İki, üç, dörd və beşotaqlı olmaqla 771 fərdi ev və iki-üçmərtəbəli yaşayış binaları inşa ediləcək. İkinci mərhələ çərçivəsində də məktəbin və 2 uşaq bağçasının inşası planlaşdırılır. Əhalinin və evlərin sayı kəndin 20 illik perspektiv inkişafı nəzərə alınmaqla müəyyən edilib.

## Qafqaz İslam Ordusunun möhtəşəm zəfəri!



Səhifə ⇨ 7

## Ağrı dağının əsl möhürü vurulur



Səhifə ⇨ 8

## Ohanyan, oha!



Səhifə ⇨ 9

## Qarabağın dirçəliş marafonu

*Genişmiqyaslı bərpa-quruculuq işləri soydaşlarımızın doğma torpağa təhlükəsiz qayıdışını təmin edir*



**Otuz il. Xalqımızın yaddaşında silinməz izlər buraxan, həsrət və kədər dolu üç on il. Bu illər ərzində viran qoyulan kəndlər, dağıdılan şəhərlər, yurd yerləri xalqımızın ürəyində sağalmaz yaraya çevrilmişdi. Doğma torpağın hər qarışı səssiz haray çəkir, nisgil dolu nəğməsini "pıçıldayırdı". O yurdsuz günlərdə köçkünlərimizin gözləri daim yaşlı, qəlbləri yaralı idi. Vətən həsrəti ilə böyüyən gənc nəsil dilbər Qarabağın gözəlliyi barədə yalnız ata-babalarının xatirələrində eşidirdi. Amma bütün bunlara baxmayaraq, xalqımız heç vaxt ümidini üzmədi. "Bir gün qayıdacağıq!" inamı ən çətin məqamlarda onlara güc, təpər verdi.**

O gün gəldi. Üzümüzə zəfər soraqlı səhərimiz açıldı. İşğalın qara kölgəsi yox oldu, düşmən tapdağında qalan torpaqlarımıza onun əsl sakinlərinin köçü başladı. İndi hayların bizə buraxdığı xarabalıqların içindən yeni binalar ucalır, səssizliyin hökm sürdüyü küçələrdən uşaqların gülüş səsi eşidilir.

*(ardı 9-cu səhifədə)*



## Menendez "öldü", növbə Avropanın "süngər bob"larınındır

Səhifə ⇨ 9

## Dövlət İmtahan Mərkəzi təhsil islahatının önündə gedən qurumlardandır




Səhifə ⇨ 12

## Məktəblərin "yeni ili" başlandı



Səhifə ⇨ 13

## Qeyri-neft ixracında yeni yüksəliş



Səhifə ⇨ 14

# Prezident İlham Əliyev Xocavənd rayonunun Hadrut qəsəbəsində





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Xocavənd rayonunun Hadrut qəsəbəsində olub.**

Dövlətimizin başçısına qəsəbədə həyata keçirilmiş işlər barədə məlumat verilib.

2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı qəsəbə erməni işğalından azad ediləndən sonra burada genişmiqyaslı abadlıq-quruculuq layihələri icra olunub və hazırda da bu istiqamətdə işlər davam etdirilir.

"Hadrut" qovşaq yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzi, yeni hərbi hissə, ümumi uzunluğu 12,5 kilometr olan Füzuli-Hadrut avtomobil yolu istifadəyə verilib, transformator məntəqəsi tikilib, mövcud elektrik xətləri bərpa olunub, 8 su anbarı təmir edilib, yeni su, kanalizasiya və qaz xətləri çəkilib, qəsəbədaxili yollarda təmir işləri aparılıb. Qəsəbədə zəruri sosial infrastruktur, o cümlədən hotel, ticarət və ictimai-iaşə obyektləri yaradılıb.

Hadrut qəsəbəsində ümumilikdə 541 ev var ki, onlardan da 462-si yararsız, 79-u isə qismən yararlıdır. Bu evlərdən 10-u artıq istismara hazırdır. Qismən yararlı evlərin hamısı ilin sonunadək bərpa ediləcək.

Hazırda 10 ailə, ümumilikdə 41 nəfər öz dədə-baba yurdu Hadruta qayıdıb.

Dövlətimizin başçısı qəsəbə sakini Zahid Mustafayevin evində olub, ailə üzvləri ilə söhbət edib.

# Hadrut məscidi istifadəyə verilib







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Xocavənd rayonunun Hadrut qəsəbəsində inşa olunmuş məscidin açılışında iştirak edib.**

"PMD Projects" MMC-nin direktoru Nəriman Topçubaşev əvvəlcə dövlətimizin başçısına inşası davam edən Hadrut yaşayış məhəlləsi barədə məlumat verdi.

Bildirildi ki, hazırda Hadrut qəsəbəsində "PMD GROUP" tərəfindən 28 ədəd ikimərtəbəli fərdi evin tikintisi aparılır. 3,6 hektar ərazini əhatə edən inşaat işləri sürətlə, eyni zamanda, yüksək keyfiyyətlə icra olunur.

Prezident İlham Əliyevə qəsəbədə inşa edilmiş məscid barədə də məlumat verildi.

Qeyd edək ki, bu məscidin təməlini dövlətimizin başçısı 2021-ci ilin oktyabrında qoyub.

Məscidin minarəsinin hündürlüyü 25 metrə yaxındır. Burada eyni vaxtda 210 nəfərin ibadət etməsi mümkün olacaq. Birinci mərtəbə kişilərin, ikinci mərtəbə isə qadınların ibadət etməsi üçün nəzərdə tutulub. Məscidin fasadında milli ornamentlərə uyğun xüsusi bəzək elementlərindən istifadə olunub.

Torpaqlarımızın işğaldan azad edilməsindən sonra Azərbaycan dövləti tərəfindən həmin ərazilərimizdə Ermənistan tərəfindən dağıdılmış dini-tarixi abidələrin əvvəlki görünüşünə uyğun bərpası, həmçinin yeni məscidlərin inşası istiqamətində ardıcıl işlər görülür.

# Dövlət başçısı Xocavənd rayonunun Sos kəndində





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Xocavənd rayonunun Sos kəndində olub.**

Dövlətimizin başçısına kənddə görülmüş işlər barədə məlumat verildi.

Qeyd edək ki, Sos kəndi 2023-cü ildə Silahlı Qüvvələrimizin həyata keçirdiyi antiterror əməliyyatı zamanı Azərbaycanın nəzarətinə keçib.

İndiyədək kənddə mövcud elektrik və qaz xətləri, subartezian quyuları bərpa olunub, 2 transformator quraşdırılıb, sayğaclaşdırma prosesinə başlanılıb, 3 su anbarı təmir edilib, təqribən 5 kilometr uzunluğunda təbii qaz xətti çəkilib.

Sos kəndində 259 mövcud fərdi evin 70-i yararsız, 189-u isə qismən yararlıdır. Hazırda 10 ev istismara hazırdır. İlin sonunadək daha 75 ev istismara hazır olacaq. 2026-cı ildə isə 104 evin bərpası nəzərdə tutulur.

İndiyədək 10 ailə (46 nəfər) kəndə qayıdıb.

Prezident İlham Əliyev kəndə köçmüş Hamlet Gülməmmədovun evində yaradılan şəraitlə tanış olub, ailə üzvləri ilə söhbət edib.

# Qırmızı Bazar qəsəbəsi dirçəldilir





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsində olub.**

Qarabağ bölgəsinin məşhur yaşayış məntəqələrindən olan, mühüm strateji və coğrafi mövqeyə malik Qırmızı Bazar qəsəbəsi 2023-cü ildə Silahlı Qüvvələrimizin antiterror əməliyyatı nəticəsində Azərbaycanın nəzarətinə keçib.

Bundan sonra qəsəbədə elektrik və qaz xətləri, həmçinin artezian quyusu bərpa olunub, sayğaclaşdırma prosesinə başlanılıb, 2 transformator quraşdırılıb, 3 su anbarı təmir edilib, 11 kilometrdən çox uzunluqda təbii qaz xətti çəkilib. Hazırda Qırmızı Bazar qəsəbəsində ictimai-məişət obyektləri, həmçinin istehsal emalatxanası fəaliyyət göstərir.

Qəsəbədə 300 fərdi ev mövcuddur ki, onlardan da 71-i yararsızdır, 229-u isə qismən yararlıdır. Artıq 10 ev istismara hazırdır. Ümumilikdə 2025-ci ilin sonunadək 217, 2026-cı ildə isə 12 fərdi ev bərpa olunacaq. Hazırda 10 ailə (39 nəfər) qəsəbəyə qayıdıb.

Dövlətimizin başçısı qəsəbəyə köçmüş İslam Dadaşovun evində olub, ailə üzvləri ilə söhbət edib.

# Prezident İlham Əliyevin Qırmızı Bazar, Hadrut qəsəbələrinin və Sos kəndinin sakinləri ilə görüşü





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsində Qırmızı Bazar, Hadrut qəsəbələrinin və Sos kəndinin sakinləri ilə görüşüb. Dövlətimizin başçısı sakinlərlə söhbət etdi.**

**Qadın sakin:** Xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Sağ olun, siz də xoş gəlmisiniz.

**Qadın sakin:** Xoş gəlmisiniz, şükür bugünkü günümüzə, 30 illik həsrətə son qoyduq.

**Prezident İlham Əliyev:** Xoş gəlmisiniz, son qoyduq.

**Qadın sakin:** Allah canınızı sağ eləsin.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Kişi sakin:** Hörmətli Prezident, xoş gəlmisiniz.

**Qadın sakinlər:** Allah köməyiniz olsun.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

**Digər kişi sakin:** Xoş gəlmisiniz. Siz gələn yollar, ayağınız dəyən torpaqlar cənnətə dönür.

**Prezident İlham Əliyev:** Sağ ol.

**Kişi sakin:** 30 il işğalda olmuş torpaqlarımızı geri qaytardınız, bizim torpağımızı, vətənimizi bizə qaytardınız.

**Prezident İlham Əliyev:** Elədir, siz də xoş gəlmisiniz.

**Kişi sakin:** Çox sağ olun, var olun, minnətdarıq.

**Qadın sakin:** Allah Sizə dəyməsin.

**Prezident İlham Əliyev:** Sağ olun, xoş gördük. Salaməleyküm.

**Kişi sakin:** Xoş gəlmisiniz, Allah köməyiniz olsun.

**Sakinlər:** Sağ olun. Xoş gəlmisiniz, Allah köməyiniz olsun, Allah Sizə cansağlığı versin. Şükür bugünkü günümüzə, Allah canınızı sağ eləsin. Bütün bunları Siz etdiniz.

**Prezident İlham Əliyev:** Doğrudan da tarixi günlər yaşayırıq. Sizi ürəkdən təbrik edirəm.

**Sakinlər:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Doğma Qarabağ torpağında artıq gəlib yerləşdiniz. Burada bir neçə kəndin sakinləri görüşə gəlib. Bu gün bir neçə kənddə olmuşam, sabah da davam edəcək. Bütün Qarabağ artıq tam nəzarət altındadır və bildiyiniz kimi, bu ərazi iki il bundan əvvəl işğalçılardan azad edildi. Elə bu günlərdə - sentyabrın 19-20-də şanlı Ordumuz separatçılığa son qoydu. Onunla da separatçılığın kitabı bağlandı və Azərbaycan tam suverenliyini bərpa etdi. "Böyük Qayıdış" Proqramı da uğurla icra edilir. Biz təqribən iki aydan sonra tarixi Zəfərimizin beşillik yubileyini qeyd edəcəyik.




Son beş ilin tarixi Zəfər tarixidir, şanlı tariximizdir və şadam ki, siz artıq öz doğma dədə-baba torpağınıza gəlmisiniz, yerləşmisiniz. Sizin üçün burada şərait yaradılıb, evlər tikilib, təmir edilib. Bütün şərait var - su, qaz, elektrik, istilik, məktəb, tibb məntəqəsi, yollar. Ən önəmlisi bura doğma Qarabağ diyarıdır. Gözəl mənzərəli yerlərdir, hər tərəf dağ, meşə, bulaq, su da boldur. Yəni, burada, sadəcə olaraq, rahat yaşamaq, qurub-yaratmaq, uşaqları böyütmək, onlara yaxşı tərbiyə vermək üçün bütün şərait var. Yəni, artıq Azərbaycan xalqı bundan sonra sülh içində yaşayacaq.

**Sakinlər:** Amin.

**Prezident İlham Əliyev:** Amma sülh şəraitində yaşamaq üçün əlbəttə ki, güc lazım idi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Bilirsiniz, biz uzun illər çalışırdıq ki, Qarabağ münaqişəsi sülh yolu ilə həll olunsun. Ancaq Ermənistan tərəfi, onun arxasında duranlar başqa fikirdə idilər. Yəni, onlar torpağımızı geri qaytarmaq fikrində deyildilər. Onlar və onların arxasında duranlar, böyük dövlətlərin rəhbərləri onlara ürək-dirək verərək elə bil ki, bu işğalı daimi etmək istəyirdilər. Amma bir şeyi hesablaya bilməmişdilər, o da Azərbaycan xalqının iradəsi, gücü, Vətən torpağına olan bağlılığı, Azərbaycan əsgərinin şücaəti, qəhrəmanlığı və xalqımızın birliyidir. Onu hesablaya bilməmişdilər. Əgər Ermənistan rəhbərliyi vaxtında mənim sözlərimə baxıb bizim torpaqlardan öz xoşu ilə çıxsaydı, İkinci Qarabağ müharibəsinə, antiterror əməliyyatına ehtiyac qalmazdı, üç mindən çox şəhidimiz olmazdı.

**Sakinlər:** Allah rəhmət eləsin.

**Prezident İlham Əliyev:** Allah onlara rəhmət eləsin. Ancaq Vətən uğrunda şəhid olmaq, əlbəttə ki, böyük qəhrəmanlıqdır və onların xatirəsini biz əbədi yadımızda saxlayacağıq, onların xatirəsinə əbədi hörmət edəcəyik.

Bu gün biz bu gözəl Qarabağ diyarında yığışmışıq. Bunun əsas səbəbi xalqımızın birliyidir və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə almasıdır. Biz bütün dünyaya sübut etmişik ki, güclü xalqıq, iradəli xalqıq, döyüş meydanında da qələbə qazanmışıq, sülhə də hər zaman hazır idik. Amma sülh ədalətli sülh olmalı idi, beynəlxalq hüquq və tarixi ədalət üzərində sülh olmalı idi. Son beş ilin tarixi onu göstərdi ki, heç bir xarici qüvvə bizim iradəmizə təsir edə bilmədi. 2023-cü ilin sentyabr hadisələri, antiterror əməliyyatı bir daha göstərdi ki, heç kim bizim qabağımızda dura bilməz. Çünki bizim işimiz haqq işidir, biz öz torpağımız uğrunda vuruşmuşuq, bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, amma öz torpağımızdan bir qarış belə heç kimə güzəştə gedən deyilik və bunu sübut etmişik. Bu gün bütün dünya Azərbaycan xalqını haqlı olaraq müzəffər xalq kimi tanıyır. 44 gün və bir gün - heç bir ölkə son 80 il ərzində belə mütləq, tam və ədalətli qələbə qazanmamışdır. Bununla fəxr edirik. Fəxr edirik, necə ki, müharibədə döyüşmüşük, vuruşmuşuq, eləcə də sülh şəraitində qurub-yaradırıq. Ermənilər bizim torpaqlarımızı viran qoyublar. Sizin yaşadığınız kənd və şəhərləri yerlə-yeksan etmişdilər. Özlərinin yaşadıqları şərait elə idi ki, necə deyərlər, özünə hörmət edən insan heç vaxt orada yaşamazdı. Amma görün, biz beş il ərzində şəhərlər, kəndlər, körpülər, tunellər, su anbarları, elektrik stansiyaları qurmuşuq. Yəni, burada – Qarabağda və Zəngəzurda gedən quruculuq dünyanın heç bir yerində yoxdur. Əsas odur ki, Azərbaycan xalqı rahat yaşasın, xoşbəxt yaşasın, sülh içində yaşasın. Sizi təbrik edirəm.

İşğal dövründə harada yaşamısınız?

**Qadın sakin:** Mingəçevirdə yaşamışıq.

**Sakinlər:** Allah canınızı sağ eləsin. Çox sağ olun. Allah Sizi başımızın üstündən əskik etməsin.

**Kişi sakin:** Cənab Prezident, bizə bu sevinci, bu hissi yaşatdığınıza görə Sizə çox-çox minnətdarıq. Allah dövlətimizi, Sizi, Bayrağımızı qorusun. Yaşasın Azərbaycan! Siz demişkən, Qarabağ Azərbaycandır!

**Digər kişi sakin:** Çox sağ olun, var olun. Sizin ayağınız dəyən yerlər cənnətə dönür. Bu gün biz 30 il həsrətində qaldığımız torpaqlarımıza, dədə-baba yurdumuza qayıtmışıq. Sizə minnətdarlığımızı bildiririk. Allah Sizə uzun ömür, cansağlığı versin.

**Prezident İlham Əliyev:** Harada yaşamısınız işğal dövründə?

**Kişi sakin:** Bir müddət Beyləqanda yaşamışıq, sonra isə Bakıya köçmüşük. Bu günə şükür. Allah Sizi var eləsin, öz torpaqlarımızda daimi yaşayacağıq.

**Prezident İlham Əliyev:** İndi doğma torpağa qayıtmısınız. Amma gənc qızlar görünür ki, buranı heç vaxt görməyiblər, eləmi? Amma yenə də qayıdıblar. Siz harada yaşamısınız?

**Gənc qız:** Biz Qaradağda, Lökbatanda.

**Prezident İlham Əliyev:** Bura kurort yerdir, həm havası, həm suyu.

**Qadın sakinlər:** Çox qəşəngdir, havası çox təmizdir. Nəvələrim beş gündür ki, burada qəşəng dincəlir, istirahət edirlər.

**Prezident İlham Əliyev:** Bəh, bəh, bəh, Allaha şükür.

**Sakinlər:** Allah canınızı sağ eləsin.

**Kişi sakin:** Bu xalqın yolunda çəkdiyiniz əziyyətə, gördüyünüz işlərə görə hamımız Sizə təşəkkür edirik. Çox sağ olun. Dəmir yumruq yerindədir!

**Prezident İlham Əliyev:** Sağ olun.

## Şuşakənd bərpa edilir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Xocalı rayonunun Şuşakənd kəndində olub.**

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov görülmüş işlər barədə dövlətimizin başçısına məlumat verdi.

Qeyd edək ki, bu kənd də Silahlı Qüvvələrimizin iki il əvvəl həyata keçirdiyi antiterror əməliyyatı zamanı Azərbaycanın nəzarətinə keçib.

İndiyədək kəndin sosial infrastrukturunun qurulması istiqamətində bir sıra layihələr həyata keçirilib və bu istiqamətdə işlər davam etdirilir. Belə ki, mövcud elektrik xətləri, 3 su anbarı, subartezian quyusu bərpa olunub, transformator quraşdırılıb, sayğaclaşdırma işlərinə başlanılıb, qaz xətti çəkilib, mövcud içməli su şəbəkəsi təmir edilib. Bundan başqa, rabitə xətlərinin layihəsi təsdiqlənib və bu istiqamətdə hazırlıq işləri görülür. Kənddə bayraq meydanı salınıb, kənddaxili yollar asfaltlanıb.

Şuşakənddə ümumilikdə 263 fərdi ev var. Onlardan 91-i yararsız, 172-si isə qismən yararlıdır. Bu evlərdən artıq 15-i istismara hazırdır. Bu ilin sonunadək daha 85 ev bərpa ediləcək. 2026-cı ildə isə 72 evin bərpası planlaşdırılır. Hazırda kəndə 15 ailə (59 nəfər) qayıdıb.

Dövlətimizin başçısı kəndə köçmüş Zaur Rzayevin evində olub, ailə üzvləri ilə söhbət edib.

## Seyidbəyli sakinləri Prezidentə minnətdarlıq ediblər



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Xocalı rayonunun Seyidbəyli kəndində olub.**

Dövlətimizin başçısına kənddə görülmüş işlər barədə məlumat verildi.

Qeyd edək ki, Seyidbəyli kəndi 2023-cü ilin sentyabrında Silahlı Qüvvələrimizin həyata keçirdiyi antiterror əməliyyatı zamanı Azərbaycanın nəzarətinə keçib.

Bundan sonra kəndin sosial infrastrukturunun qurulmasına başlanılıb. Belə ki, 30 kilometr uzunluğunda mövcud elektrik xətti bərpa olunub, 2 ədəd transformator quraşdırılaraq, sayğaclaşdırma işlərinə start verilib. Magistral qaz xətləri çəkilib, 5,7 kilometr uzunluğunda mövcud qaz xətti, həmçinin su anbarı, subartezian quyusu bərpa edilib, içməli su şəbəkəsi yenidən qurulub. Kənddə bayraq meydanı salınıb, kənddaxili yollar asfaltlanıb.

Seyidbəyli kəndində 140 ev var ki, onlardan da 22-si yararsız, 118-i isə qismən yararlıdır. Artıq 10 ev bərpa edilib. Bu ilin sonunadək 44, 2026-cı ildə isə daha 64 ev istismara hazır olacaq. İndiyədək kəndə 9 ailə (31 nəfər) köçüb.

Dövlətimizin başçısı kəndə köçən Rasim Ələkbərovun evində oldu, ailə üzvləri ilə söhbət etdi.

# Prezident İlham Əliyev Qarabağ Universitetinin Klinikasının, Tibb və sağlamlıq elmləri fakültəsinin açılışında





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Xankəndi şəhərində Qarabağ Universitetinin Klinikasının binasının, Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusunun açılışında iştirak edib.**






Elm və təhsil naziri Emin Əmrullayev, Qarabağ Universitetinin rektoru Şahin Bayramov və Qarabağ Universitetinin Klinikasının rəhbəri, Tibb və sağlamlıq elmləri fakültəsinin dekanı Samir Babayev dövlətimizin başçısına yaradılan şərait barədə məlumat verdilər.

Bildirildi ki, yeni tədris ilindən Qarabağ Universitetində Tibb və sağlamlıq elmləri fakültəsi fəaliyyətə başlayacaq. Fakültənin tədris korpusu müasir tələblərə cavab verən avadanlıqla təchiz edilib. Binada 10 dərs və 9 auditoriya otağı, 3 laboratoriya, iş və imtahan otaqları, istirahət zonaları, kitabxana, brifinq zalları yaradılıb. Burada, həmçinin mikrobiologiya, histologiya laboratoriyaları, hüceyrə yetişdirmə və digər inzibati otaqlar fəaliyyət göstərəcək. Fakültədə yerli və xarici ekspertlərin birgə hazırladığı, beynəlxalq təcrübələrə əsaslanan altıillik tibb və dördillik tibb bacısı proqramlarının tədrisi həyata keçiriləcək. Burada tətbiq olunacaq müasir təhsil modeli tələbələrin nəzəri biliklərini Qarabağ Universitetinin Klinikasında praktik vərdişlərə çevirməyə imkan yaradacaq. Tələbələrə tədqiqat aparmaq və liderlik keyfiyyətlərini inkişaf etdirmək üçün də hərtərəfli imkanlar veriləcək. Fakültənin fərqli xüsusiyyətlərindən biri isə seçmə fənn olaraq incəsənət proqramının tədris planına daxil edilməsidir. İncəsənət tələbələrin özünüifadə, qrup daxilində əməkdaşlıq və ünsiyyət bacarıqlarının inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir.

Dövlətimizin başçısı Qarabağ Universitetinin Klinikasının binasında yaradılmış şəraitlə tanış oldu. Klinika Prezident İlham Əliyevin bu ilin fevralında imzaladığı Fərmana əsasən yaradılıb. Klinikanın binasında 23 həkim otağı, laboratoriyalar, rentgen, təcili yardım, maqnit rezonans tomoqrafiya (MRT), kompüter tomoqrafiyası (KT) və angio otaqları fəaliyyət göstərəcək. Qısa müddət ərzində ali təhsil ocağında tibb sahəsi üzrə müasir tədris infrastrukturu yaradılıb. Klinika Qarabağ Universitetində tibb ixtisası üzrə təhsil alan tələbələrin peşəkar kadr kimi hazırlanmasını təmin edəcək, bu sahədə elmi tədqiqatlar aparmağa, həmçinin regionda əhalinin sağlamlığının qorunmasında mühüm rol oynayacaq. Burada, eyni zamanda, tədris, tədqiqat və tibbi xidmət fəaliyyəti həyata keçiriləcək.

Qarabağ Universitetində Klinikanın yaradılması, həmçinin Tibb və sağlamlıq elmləri fakültəsinin fəaliyyətə başlaması yeni dövrün çağırışlarına uyğun peşəkar tibb mütəxəssislərinin hazırlanması istiqamətində atılmış mühüm addımlardan biridir. Digər tərəfdən, klinikada həyata keçiriləcək elmi tədqiqatlar Qarabağ Universitetinin akademik nüfuzunun və beynəlxalq reytinqinin artmasına, eləcə də ölkəmizdə tibb elminin inkişafına öz töhfəsini verəcək. Bütün bunlar, eyni zamanda, xarici tələbələrin də bu ali təhsil ocağına marağını artıracaq.

## Qarabağ fatehi Xocalının yeni tut bağında



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Xocalı rayonunun Daşbulaq kəndində 13 hektar sahədə salınmış tut bağında olub.**

Dövlətimizin başçısına görülmüş işlər barədə məlumat verildi.

Bildirildi ki, burada Çin Xalq Respublikasından idxal olunmuş 130 min ting əkilib. Tut bağında damcılı suvarma sistemi yaradılıb.

Qeyd olunub ki, 2026-cı ildə 100 ton, 2030-cu ildə isə 500 ton tut yarpağının istehsalı planlaşdırılır. Proqnozlaşdırılan barama istehsalı gələn ildən başlayaraq 5 il ərzində 60 tondur. Bu ilin oktyabr-noyabr aylarında əlavə 150 hektar sahədə damcılı suvarma sisteminin tətbiqi və təxminən 1,5 milyon tut tinginin əkilməsi, klaster modeli əsasında tut bağının salınması, ətrafda kümxanaların qurulması, ipəkqurdunun bəslənməsi, yaş barama istehsalı, həmçinin məhsulun emal prosesinin həyata keçirilməsi nəzərdə tutulur. Burada 25 nəfər daimi işlə təmin olunub. Mövsümi işlərə isə 750 nəfər cəlb ediləcək.

## Daşbulaq kəndi də məskunlaşır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Xocalı rayonunun Daşbulaq kəndində olub.**

Dövlətimizin başçısına kənddə görülmüş işlər barədə məlumat verildi.

Qeyd edək ki, bu kənd də Azərbaycan Silahlı Qüvvələrinin 2023-cü ilin sentyabrında həyata keçirdikləri antiterror əməliyyatı zamanı Azərbaycanın nəzarətinə keçib. Bundan sonra kəndin sosial infrastrukturunun qurulması işləri icra olunub.

Uzunluğu 20 kilometr olan mövcud elektrik, həmçinin qaz xətləri, su anbarı və subartezian quyusu bərpa olunub, transformator quraşdırılıb, sayğaclaşdırma işlərinə başlanılıb. Eyni zamanda, 8 kilometrə yaxın qaz xətti çəkilib, içməli su şəbəkəsi yenidən qurulub, rabitə xətlərinin layihəsi təsdiqlənib və artıq tikinti işlərinə hazırlıq gedir.

Kənddə sosial və məişət obyektləri istifadəyə verilib, park, bayraq meydanı salınıb, kənddaxili yollara asfalt vurulub.

Bildirildi ki, Daşbulaqda 195 ev var. Onlardan 39-u yararsız, 156-sı isə qismən yararlıdır. Artıq 15 ev bərpa edilib. Bu ilin sonunadək 58, gələn il isə 83 ev istismara hazır olacaq. İndiyədək kəndə 14 ailə (72 nəfər) köçüb.

Dövlətimizin başçısı kəndə köçən Məzahir Novruzovun evində oldu, ailə üzvləri ilə söhbət etdi.



## Badara kəndi abadlaşdırılıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Xocalı rayonunun Badara kəndində olub.**

Silahlı Qüvvələrimizin 2023-cü ilin sentyabrında həyata keçirdikləri antiterror əməliyyatı zamanı Azərbaycanın nəzarətinə keçən kəndlərdən biri də Badaradır.

Qeyd edək ki, o vaxtdan indiyədək kənddə sosialyönümlü bir sıra layihələr icra olunub. Belə ki, mövcud elektrik və qaz xətləri bərpa olunub, transformator quraşdırılıb, sayğaclaşdırma işləri görülüb, yeni qaz xətti çəkilib, rabitə xətləri üçün dirəklər basdırılıb, kabelin çəkilişi davam etdirilir. Badarada park və bayraq meydanı yaradılıb, yollara asfalt döşənib.

Kəndin ərazisində ümumilikdə 313 fərdi ev var ki, onlardan da 55-i yararsız, 258-i isə qismən yararlıdır. Artıq 15 fərdi ev bərpa olunub. Cari ilin sonunadək 115, gələn il isə 128 evin bərpası planlaşdırılır. Artıq 14 ailə (55 nəfər) kəndə köçüb.

Dövlətimizin başçısı kəndə köçmüş Barat Novruzovun evinə baş çəkib, ailə üzvləri ilə söhbət edib.

# Prezident İlham Əliyev ICESCO-nun Baş direktorunu Şuşada qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Şuşada ICESCO-nun Baş direktoru Səlim bin Məhəmməd əl-Maliki qəbul edib.**

Söhbət zamanı ICESCO-nun Baş direktorunun ölkəmizə, o cümlədən Şuşaya səfərləri və dövlətimizin başçısı ilə görüşləri məmnunluqla xatırlandı.

Səlim bin Məhəmməd əl-Malik Şuşa şəhərinin gözəlliyinin onda dərin təəssürat hissi yaratdığını qeyd etdi.

Görüşdə işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı abadlıq-quruculuq işləri yüksək qiymətləndirildi.

Dövlətimizin başçısı mədəniyyətimizin təşviqinə verdiyi dəstəyə görə ICESCO-nun Baş direktoruna təşəkkürünü bildirdi.

**Prezident İlham Əliyev** dedi: Bir daha sizə Azərbaycana göstərdiyiniz dəstəyə, mədəniyyətimizin, azad edilmiş bölgələrimizin mədəniyyətinin təşviqinə görə minnətdarlığımı bildirirəm. Bir təşkilat olaraq ICESCO Qarabağa ilk səfərlərdən birini həyata keçirib, siz isə orada olmuş ilk əcnəbi vətəndaşlardansınız. Siz bununla həmrəylik nümayiş etdirdiniz, habelə bu ərazilərdə nələrin dağıdıldığı barədə məlumat verərək səsinizi ucaltdınız. Biz bunu heç zaman unutmayacağıq.



Sizin rəhbərliyinizlə Şuşanın ICESCO tərəfindən İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi qərarı hər bir azərbaycanlını qəlbən fərəhləndirdi. Cıdır düzündə sizin də iştirakınızla keçirilmiş tədbirdə unudulmaz ab-havanın şahidi oldunuz. Bu, xoşbəxtliyin, qürurun və geri dönüşün vəhdəti idi.

Bütün bunları nəzərə alaraq, mən sizin Azərbaycanın yüksək dövlət mükafatı olan "Dostluq" ordeni ilə təltif edilməyiniz haqqında Sərəncam imzaladım. İcazənizlə onu sizə təqdim etmək istəyirəm. Təbrik edirəm.

**Səlim bin Məhəmməd əl-Malik** dedi: Zati-aliləri, çox təşəkkür edirəm. Mən bu ordeni dərin minnətdarlıq hissi ilə qəbul edirəm. Bu, yalnız şəxsən mənim deyil, mənimlə birlikdə çalışan və fəaliyyətimdə mənə dəstək olan hər kəsin əməyinə verilən qiymətdir. Həmin insanlar biliyin irəliyə aparılması, mədəniyyətin qorunması və sülhün bərqərar edilməsi istiqamətində əllərindən gələni edənlərdir. Mən bu ordeni bir simvol olaraq hər zaman xatırlayacağam və əminəm ki, mənimlə yanaşı, bu ordenlə ailəm, həmkarlarım və dövlətim də fəxr edəcək. Zati-aliləri, bir daha təşəkkür edirəm.

Görüşdə Azərbaycan ilə ICESCO arasında uğurlu əməkdaşlığın qurulduğu vurğulanaraq, bunun gələcəkdə daha da genişlənəcəyinə əminlik bildirildi.

# Nikaraqua Respublikasının Həmprezidentləri Zati-aliləri cənab Daniel Orteqa Saavedraya və xanım Rosario Murilyoya

**Zati-aliləri!**

15 Sentyabr – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Biz Azərbaycan-Nikaraqua əlaqələrinin inkişafına böyük əhəmiyyət veririk. İnanıram ki, ölkələrimiz arasında münasibətlərin genişləndirilməsi, həm ikitərəfli qaydada, həm də beynəlxalq təsisatlar çərçivəsində əməkdaşlığın möhkəmləndirilməsi üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Nikaraqua xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 sentyabr 2025-ci il**

# Səlim bin Məhəmməd əl-Malikin "Dostluq" ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə ICESCO arasında uğurlu əməkdaşlıq əlaqələrinin inkişafında xidmətlərinə görə ICESCO-nun Baş direktoru Səlim bin Məhəmməd əl Malik "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 sentyabr 2025-ci il**

# Şuşa ərazisində silah-sursat aşkarlanıb

**Şuşada külli miqdarda silah-sursat aşkarlanmışdır.**

Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən Daxili İşlər Nazirliyi və Minatəmizləmə Agentliyi ilə birgə Azərbaycan Respublikasının Qarabağ ərazisində qanunsuz odlu silah və partlayıcı maddələrin saxlanıldığı gizli saxlanc yerlərinin axtarışı ilə bağlı görülmüş tədbirlər nəticəsində Şuşa rayonunun Kiçik Qaladərəsi kəndi ərazisində xeyli sayda silah-sursat aşkar edilərək götürülmüşdür.




Göstərilən istiqamətdə əməliyyat-axtarış tədbirləri davam etdirilir.

***XQ***

# Prezident İlham Əliyevin Xocalının Badara, Daşbulaq, Seyidbəyli və Şuşakənd kəndlərinin sakinləri ilə görüşü





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Xocalı rayonunun Badara kəndində Badara, Daşbulaq, Seyidbəyli və Şuşakənd kəndlərinin sakinləri ilə görüşüb.**

Görüşdə çıxış edən dövlətimizin başçısı **İlham Əliyev** dedi:

– İlk növbədə, sizi ürəkdən təbrik edirəm, doğma Qarabağ torpağına qayıtmısınız. Əminəm ki, bundan sonra həyatınızda ancaq sevincli günlər olacaq. O əzab-əziyyət, ədalətsizlik, haqsızlıq arxada qaldı. Azərbaycan dövləti sizin üçün bütün şəraiti yaradıb. Evlər gözəl təmir olunur, bütün infrastruktur - yollar, təbii qaz və elektrik enerjisi, su. Ən önəmlisi isə siz doğma Qarabağ diyarında artıq əbədi yaşayacaqsınız - siz və sizin davamçılarınız. Bu, ədalətin təntənəsidir. Biz ədaləti bərpa etdik, ilk növbədə, öz haqqımızı bərpa etdik, erməni işğalına son qoyduq. Bunu mərhələli yollarla etdik.

Bildiyiniz kimi, İkinci Qarabağ müharibəsi başa çatanda hələ ki, biz bu bölgəyə nəzarət etmirdik. Bunun səbəblərini də bilirsiniz. Ancaq 2020-ci il noyabrın 10-dan ta 2023-cü il sentyabrın 19-na qədər bizim bir məqsədimiz var idi - ölkə suverenliyini tam bərpa etmək. Bunu da etdik, erməni işğalına son qoyduq, separatçılığa son qoyduq, haqq-ədaləti bərpa etdik və indi qurub-yaradırıq.

Uzun illər köçkün həyatı yaşamış insanlar ən gözəl şəraitə layiqdirlər. Mən xatırlayıram, o vaxt işğal dövründə köçkünlərlə çoxsaylı görüşlərimdə deyirdim ki, sizin üçün dövlət şərait yaratmağa çalışır və biz bunu etmişdik. Təqribən 300 minə yaxın keçmiş köçkün dövlət tərəfindən evlərlə, mənzillərlə təmin edilmişdi. Ancaq hər dəfə çadır şəhərciyinin açılışında deyirdim ki, bu, müvəqqəti yaşayış yeridir. Qarabağ azad olunandan sonra sizin üçün Qarabağda daha gözəl şərait yaradacağıq, o da oldu.

Əlbəttə ki, bütün dünya bu gün Azərbaycan haqqında danışır. Öz doğma torpağı uğrunda Azərbaycan qədər vuruşan, döyüşən, qan tökən, şəhid verən və qalib gələn ikinci ölkə yoxdur. Nə vaxtsa olar, olar, olmaz, olmaz. Qələbəmizi təmin edən xalqımızın iradəsidir, xalqımızın öz doğma torpağına olan bağlılığıdır, bizim müştərək iradəmizdir, bizim döyüşkən xasiyyətimizdir. Eyni zamanda necə ki, döyüş meydanında düşməni məğlub etdik, onu kapitulyasiya aktını imzalamağa məcbur etdik, eyni qayda ilə sülhə də yol açdıq ki, bundan sonra heç vaxt müharibə olmasın. Biz heç vaxt müharibə istəməmişik və mən 17 il Ermənistan rəhbərləri ilə danışıqlar aparmışam. Onları inandırmağa çalışmışam ki, əgər siz öz xoşunuzla torpağımızdan çıxmasanız, müharibə qaçılmazdır. Amma onlar hesab edirdilər ki, bu olmayacaq. Hesab edirdilər ki, onların arxasında duran böyük dövlətlər, güclər, onlara silah verən, pul verən, siyasi dəstək verən onları hər dəfə, hər zaman qoruyacaq. Amma bizim iradəmizi düzgün hesablaya bilməmişdilər. Amma mən dəfələrlə onlara demişdim ki, öz xoşunuzla çıxın. Hətta İkinci Qarabağ müharibəsindən sonra, artıq bizim şanlı Zəfərimizdən sonra, Şuşanın azad olunmasından sonra onlara deyirdim ki, Azərbaycanda separatçılığa yer yoxdur. Gəlin, Azərbaycan qanunlarına tabe olun, gəlin, Azərbaycan vətəndaşlığını qəbul edin və burada yaşayın, sizə söz deyən olmayacaq. Yenə də bizə qarşı həm hərbi təxribatlar, həm siyasi təxribatlar, yekəxanalıq və faktiki olaraq, mənfi münasibət özünü göstərdi. Ona görə 19-20 sentyabr antiterror əməliyyatı onlara dərs oldu və hamıya dərs oldu. Cəmi bir neçə saat davam edən hərbi əməliyyat separatçıların kökünü kəsdi və onların ümid bağladıqları yerlər də səssiz qaldı. Çünki Azərbaycan Ordusu qarşısında heç kim dura bilməzdi, Azərbaycan xalqı qarşısında heç kim dura bilməzdi, ona görə ki, biz haqlıyıq. Bu gün haqlı olduğumuzu bir daha burada sübut edirik. Onlar şəhər və kəndlərimizi yerlə-yeksan etmişdilər, biz isə qurub-yaradırıq. Bütün Qarabağ, bütün Şərqi Zəngəzur tikinti meydançasıdır. Qısa müddət ərzində bu gözəl evlərin bərpası, tikintisi, bütün infrastrukturun yaradılması bizim gücümüzü, niyyətimizi göstərir. Əsas odur ki, bütün siyasi addımlarımızın mərkəzində Azərbaycan vətəndaşı dayanır. Siz - Azərbaycan vətəndaşları, erməni işğalından əziyyət çəkən Qarabağ bölgəsinin sakinləri bu gün ən gözəl şəraitə layiqsiniz. Mən sizi təbrik edirəm, sizə xoşbəxt həyat arzulayıram və biz burada əbədi yaşayacağıq.

**Sakin:** Hörmətli cənab Prezident, xocalılılar adından, keçmiş məcburi köçkünlər adından Sizi salamlayıram, "Xoş gəlmisiniz!" deyirəm. Biz Sizin dediyiniz kimi, uzun müddət ağır şəraitdə yaşamışıq. İndi Sizin başçılığınızla, Sizin qayğınızla gözəl evlərdə məskunlaşmışıq, yaşayırıq, buranın gözəl təbiəti var. Mənim ağlıma belə bir beyt gəldi:

"Yaxşı ki, dünyada yaxşılar varmış,
Yoxsa qərq olardıq yaman əlində".

Sağ olun, Siz dünyanın ən yaxşı Prezidentisiniz.

**Digər kişi sakin:** Hörmətli cənab Prezident, xoş gəlmisiniz. Mən də millətimiz adından, camaatımız adından Sizə "Xoş gəlmisiniz!" deyirik. Bu, Sizin daxili və xarici siyasətin bəhrəsidir ki, biz bu gün öz torpağımıza qayıtmışıq. Balaca bir ölkə Sizin siyasətiniz nəticəsində hegemon dövlətlərlə yanaşı gedir. Siz Amerika kimi, Çin kimi ölkələrlə bir yerdəsiniz, onların başçıları ilə bir yerdə oturub-durursunuz. Onların başçıları Sizin siyasətinizi bəyəndikləri üçün o sıralarda gedirsiniz. Mən Sizə uzun ömür, cansağlığı arzulayıram. Gələcəkdə bundan da böyük nailiyyətlər arzu edirəm.

**Qadın sakin:** Möhtərəm cənab Prezident, bu gün mən qürur hissi duyuram. Bir şəhid nəvəsi olaraq, şəhid gəlini olaraq, veteran bacısı olaraq Sizin qarşınızda baş əyirəm. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin. Siz Zəfər dastanını qızıl hərflərlə yazan böyük Liderimizsiniz. Dünyada tayı-bərabəri olan belə bir Müzəffər Ali Baş Komandan yoxdur.

**Prezident İlham Əliyev:** Sağ ol, qızım.

**Qadın sakin:** Bu Qələbənizlə dünya səviyyəsində bütün ilklərə imza atdınız. Allah-taala Sizə cansağlığı versin. Ulu öndər Heydər Əliyev irsini davam etdirdiyinizə, ata vəsiyyətini layiqincə yerinə yetirdiyinizə görə Sizinlə fəxr edirik.

**Kişi sakin:** Cənab Prezident, biz hamımız bu gün çox sevinirik. Bu gün ata-babalarımızın, Ulu öndərimizin ruhu şaddır. Həqiqətən də bu gün sevincimizin həddi-hüdudu yoxdur. Öz doğma torpaqlarımızdayıq. Buna görə də hər birimiz Sizə minnətdarıq, öz dərin hörmətimizi bildiririk.

Şair deyir:

Bütün dünya-aləm bunu bilirdi,
Bizim idi, bizim oldu Qarabağ.
Dost kövrəlib, düşmən bizə gülürdü,
Şükür Allaha, sona yetdi bu sınaq,
Bizim idi, bizim oldu Qarabağ.
Kamil oğlu, belə qeyrətli hanı?
44 günə şoka saldı dünyanı,
"Dəmir yumruq"la aldı Şuşanı,
Şuşamızda dalğalanır al bayraq,
Bizim idi, bizim oldu Qarabağ.

**Digər kişi sakin:** Cənab Ali Baş Komandan, Vətən müharibəsi iştirakçısı kiçik çavuş Quliyev, sağ ol.

**Qadın sakin:** Qardaşımdır.

**Kişi sakin:** Fəxr edirik Sizinlə, bəli, Sizinlə fəxr edirik.

**Digər kişi sakin:** Ali Baş Komandan, ehtiyatda olan zabit, baş leytenant Alıyev. Müharibə əlili, birinci qrup.

**Prezident İlham Əliyev:** Birinci Qarabağ müharibəsində vuruşmusan?

**Kişi sakin:** Bəli, ön cəbhədə xidmət etmişəm.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Digər kişi sakin:** Sizinlə fəxr edirik. Həyat yoldaşımdır, cənab Prezident.

**Prezident İlham Əliyev:** Sağ olun, təbrik edirəm. Təbriklər.

**Qadın sakin:** Sizinlə fəxr edirik. Allah bu günü bizə qismət etdi, həm vətənimizi, həm də Sizinlə görüşməyimizi.

**Sakinlər:** Çox şadıq. Hamı şaddır. Bu sevinci bizə bəxş etdiniz. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Xoşbəxt yaşayın. Allah şəhidlərimizə rəhmət eləsin.

**Qadın sakin:** Hər iki valideynim, hər iki qardaşım burada şəhid olub.

**Prezident İlham Əliyev:** Onların qanı yerdə qalmadı.

**Sakinlər:** Qalmadı, qalmadı, alındı. Çox sağ olun, təşəkkür edirik. Cənab Prezident, qarşınızda baş əyirik, Sizin sayənizdə bu gün biz bu torpaqlara gəldik.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Digər qadın sakin:** Cənab Prezident, xoş gəlmisiniz. Sizin siyasətiniz sayəsində artıq biz bu torpaqlardayıq. Atalarımızın, babalarımızın bizə nağıl kimi təsvir etdiyi bu torpaqları bizə realda yaşatdığınıza görə Sizə təşəkkür edirik, xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Sağ olun bir daha.

**Qadın sakin:** Mən bütün xalqımızı təbrik edirəm ki, Sizin kimi Prezidentimiz var.

**Prezident İlham Əliyev:** Sağ olun, çox sağ olun.

**Kişi sakin:** Allah "dəmir yumruğ"unuzu həmişə güclü eləsin.

**Prezident İlham Əliyev:** Əgər lazım olsa, yerindədir, yerində.

**Kişi sakin:** Qoy yerində olsun ki, yenə lazım olsa, vaxtında ensin.

**Qadın sakin:** Allah Sizi Azərbaycanın üstündən əskik etməsin.

**Prezident İlham Əliyev:** Özün yazmısan bu şeiri?

**Kişi sakin:** Cənab Prezident, Sizinlə qürur duyuruq.

**Digər kişi sakin:** Özü yazmasa da, gözəl şeirdir, çox gözəldir.

**Prezident İlham Əliyev**: Gözəl şeirdir. Sağ olun bir daha.

**Kişi sakin:** Cənab Prezident, çox sağ olun, çox səmimisiniz, təşəkkür edirik.

**Prezident İlham Əliyev**: Sağ olun, burada, doğma Qarabağ torpağında xoşbəxt yaşayın.

**Sakinlər:** Çox sağ olun, cənab Prezident. Allah Sizə dəyməsin, Allah razı olsun.

**Tələbə qız:** Salam. Mən Qarabağ Universitetinin Hüquqşünaslıq fakültəsinin ikinci kurs tələbəsiyəm. Burada təkcə Xocalı sakini kimi yox, həm də şəhid bacısı kimi iştirak edirəm. Qardaşım Sərvan Mehralıyev Aprel döyüşlərində qəhrəmancasına şəhid olub.

**Prezident İlham Əliyev:** Allah rəhmət eləsin.

**Tələbə qız:** Sizin dəstəyinizi nəinki bir şəhid bacısı, həm bir tələbə, həm də bir keçmiş məcburi köçkün kimi daim hiss etmişəm və buna görə də böyük minnətdarlığımı bildirirəm. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Sağ ol. Burada, Xankəndidə həyatın necə keçir, yaxşıdır?

**Tələbə qız:** Bəli, əla. Hamı razıdır, hamının ürəyincədir.

**Prezident İlham Əliyev:** Çox gözəl. Dünən Tibb fakültəsinin yeni klinikasının açılışını etdik, tələbələrin sayı çoxalacaq, 100 nəfər də tibb klinikasına daxil oldu. Yəni bir neçə ildən sonra orada minlərlə tələbə olacaq. Yəni Xankəndi tələbələr şəhəri olacaq. Bütün tələbə yoldaşlarına məndən salam söylə. Sağ olun.

**Sakinlər:** Çox sağ olun. Allah Sizi qorusun. Çox sağ olun, cənab Prezident. Xoş gəlmisiniz Qarabağımıza. Allah Sizi ailənizin, bu millətin başı üstündən əskik etməsin. Yumruğunuz da Azərbaycana tərs baxanın başına dəysin. Çox xoşbəxtik, Allah sizi qorusun.

**Prezident İlham Əliyev:** Sağ olun, sizə cansağlığı, xoşbəxtlik.

**Kişi sakin:** Bu gün bizimlə burada olmağınız bizim üçün şərəfdir. Allah Sizi qorusun.

**Prezident İlham Əliyev:** Sağ olun. Gəlin şəkil çəkdirək.

Sonra birgə şəkil çəkdirildi.

***AZƏRTAC***

# Prezident İlham Əliyev Türkiyə Silahlı Qüvvələri Baş Qərargahı rəisini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Şuşada Türkiyə Respublikası Silahlı Qüvvələri Baş Qərargahı rəisi Selçuk Bayraktaroğlunu qəbul edib.**

Qəbula görə minnətdarlığını bildirən Selçuk Bayraktaroğlu Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

Görüşdə ölkələrimiz arasında qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin bütün istiqamətlərdə, o cümlədən hərbi sahədə uğurla inkişaf etdiyi vurğulandı.

Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın ölkələrin olmadığını deyən dövlətimizin başçısı qeyd etdi ki, birliyimiz dünya miqyasında önəmli amildir. Prezident İlham Əliyev bölgədə artıq sülh dövrünün başladığını vurğuladı.

Söhbət zamanı Azərbaycanla Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Bəyannamənin 2021-ci ildə məhz Şuşa şəhərində imzalanmasının önəminə toxunuldu.

Bugünkü görüşün 15 sentyabr - Qafqaz İslam Ordusu tərəfindən Bakının daşnak-bolşevik işğalından azad olunmasının 107-ci ildönümünə təsadüf etməsi məmnunluqla vurğulandı.

Söhbət zamanı Azərbaycanın və Türkiyənin hərbi qurumları arasında qardaşlığa, strateji müttəfiqliyə əsaslanan əməkdaşlığın daha da inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

# Baş nazir Çin Xalq Siyasi Məşvərət Şurasının rəsmisi ilə görüşüb



**Sentyabrın 15-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Çin Xalq Siyasi Məşvərət Şurasının Ümum-Çin Komitəsi sədrinin müavini Su Hui ilə görüşüb.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin birgə səyləri nəticəsində iki ölkə arasında münasibətlərin dostluq, qarşılıqlı hörmət və strateji tərəfdaşlıq prinsipləri üzərində ardıcıl şəkildə inkişaf etdiyi vurğulanıb. Cari ilin aprel ayında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanatın imzalanması ilə Azərbaycan-Çin münasibətlərinin yeni mərhələyə qədəm qoyduğu bildirilib.

Prezident İlham Əliyevin avqustun sonu-sentyabrın əvvəlində Çin Xalq Respublikasına işgüzar səfərinin iki ölkə arasında münasibətlərin daha da dərinləşdirilməsi və çoxtərəfli əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyəti qeyd edilib.

***XQ***

# Çin parlamenti Komitəsinin sədr müavini Milli Məclisdə

**Sentyabrın 15-də Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Çin Xalq Siyasi Məşvərət Şurasının Ümum-Çin Komitəsinin sədr müavini Su Huinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Görüşdə Sahibə Qafarova Azərbaycanla Çin arasında əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsindən danışdı. Qeyd edilib ki, Prezident İlham Əliyevin Çinə son dövlət səfəri ikitərəfli münasibətlərin dərinləşməsində tarixi mərhələni təşkil edir.

Azərbaycan və Çin parlamentləri arasında əməkdaşlığın əhəmiyyətindən danışan S.Qafarova qeyd edib ki, Milli Məclis Çindən olan həmkarları ilə əməkdaşlığın daha da gücləndirilməsinə xüsusi önəm verir. Bu sahədə hər iki ölkənin parlamentində fəaliyyət göstərən qarşılıqlı əlaqələr üzrə işçi qrupları mühüm rol oynayır.

Su Hui Azərbaycana ilk dəfə səfər etdiyini bildirib və bu barədə təəssüratlarını bölüşüb. Qonaq ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərin inkişafı, “Bir kəmər, bir yol” layihəsinin həyata keçirilməsində birgə fəaliyyət, Çin iqtisadiyyatının inkişaf istiqamətləri və ikitərəfli münasibətlərin perspektivləri barədə fikirlərini bölüşüb. Söhbət zamanı qonaq Azərbaycanın “Vahid Çin” siyasətinə verdiyi dəstəyə görə təşəkkürünü ifadə edib, qarşılıqlı əlaqələrin perspektivləri barədə fikirlərini bölüşüb.

***XQ***

# IDEA-nın yeni layihəsi

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə “Explore Azerbaijan with IDEA” layihəsi fəaliyyətə başlayıb.**

Layihənin əsas məqsədi Azərbaycanın canlı aləminin təkrarolunmaz gözəlliklərini yerli və beynəlxalq auditoriyaya tanıtmaq, eyni zamanda, ölkəmizin təbiətinin özünəməxsus zənginliyini əks etdirən multimedia bazasını yaratmaqdan ibarətdir. Sosial media istifadəçiləri fotovideoqraf Saleh Baxşiyevin peşəkar obyektivi ilə Azərbaycanın flora və faunasının incəliklərini kəşf edərək ölkəmizin füsunkar təbiətinə daha yaxın ola biləcəklər.

“Explore Azerbaijan with IDEA” təkcə maarifləndirici layihə deyil, eyni zamanda, təbiətimizin qorunması və gələcək nəsillərə ötürülməsi üçün bir çağırışdır. Layihənin rəsmi sosial media səhifələrini aşağıdakı linklər vasitəsilə davamlı izləmək olar:

YouTube: https://www.youtube.com/@exploreAzerbaijanwithIDEA

Instagram: https://www.instagram.com/explore.aze

Facebook: https://www.facebook.com/explore.aze

*Xuntaçıların məhkəməsi*

# Ermənilərin 1988–1992-ci illərdə törətdikləri cinayətlər





**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası sentyabrın 15-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclası sənədlərin tədqiqi ilə davam etdirilib. Onlardan biri 1988-1991-ci illərdə Xankəndi şəhərinin Kərkicahan qəsəbəsində törədilmiş kütləvi iğtişaşlar, qəsəbədə yaşayan azərbaycanlı sakinlərin evlərinin dağıdılması ilə bağlı olub.

Şübhəli şəxs qismində dindirilmiş Georqi Sarkisyan bildirib ki, 1988-ci il sentyabrın 18-20-də ermənilər tərəfindən azərbaycanlıların evləri dağıdılıb, yandırılıb, azərbaycanlılar Xankəndi şəhərindən qovulublar. O dəstəsində Arkas, Şahin, Razmik, Balayan qardaşları, sürücü Edik, Vanik və Vaçik qardaşları, Qrişa, Maksim olduğunu deyib. Şahid qismində dindirilmiş Şahverdi Səfərov bildirib ki, 1988-ci ildən başlayaraq Kərkicahan qəsəbəsində azərbaycanlıların yaşadığı evlərə basqınlar olub, həmin basqınlara tanıdığı Jora adlı erməni təşkilatçılıq edib.

Aleksandr Xaçaturyan göstərib ki, 1988-ci ilin fevralından Araksi, Qurqen Kaprelyan, Raça Beqlaryan və digərləri ermənilərin və azərbaycanlıların aralarında düşmən münasibət yaratmağa başlayıblar. Araksi Kərkicahan qəsəbəsində çıxış edərək, azərbaycanlıları Qarabağdan qovmağa səsləyib. 1988-ci ilin fevral ayından Jora Sarkisyan başçılıq etdiyi silahlılar azərbaycanlıların Qarabağdan qovulmasını təşkil edib, hərbi paltarda gəzərək yanında olan şəxslərlə azərbaycanlılara qarşı tədbirlər hazırlayıb.

Zərərçəkmiş şəxs Əvəz Abuzərov bildirib ki, 1990-cı ilin avqust ayında Tapdıq Rzayev ermənilər tərəfindən odlu silahla qətlə yetirilib. 1991-ci il iyunun 3-də Kərkicahan qəsəbəsinə ermənilər yenidən hücum ediblər. Ramiz Salahov, Şükür Rəhimov, Atdıxan Sahilov, Osman Səfərov və adlarını unutduğu şəxslər ermənilər tərəfindən açılan atəşlərə məruz qalıblar. Həmin hadisələr zamanı bəzi sakinlər yaralanaraq xəsarətlər alıb, Ağəli Səfərov isə öldürülüb. 1991-ci il sentyabrın 25-də Kərkicahana növbəti hücum olub. Həmin vaxt Aslan Hüseynov ayağından güllə yarası alıb.

Sentyabrın 30-da ermənilər avtomat silahdan atəş açaraq Kərkicahan sakini Telman Həsənovu öz evinin qarşısında qətlə yetiriblər, daha sonra müəllim Bənövşə Abuzərovanı, Əfqan Tarverdiyevi, Saleh Soltanovu, Nurəddin Salahovu və başqalarını yaralayıblar. Şəkər Salahovanı isə Qədir Balasanyan yaralayıb. Dekabrın 28-də ermənilər hər tərəfdən Kərkicahana hücuma keçiblər. 1992-ci il yanvarın 13-də ermənilər atəş açaraq sakin Əliyev İlham Bahadur oğlunu qətlə yetiriblər.

Arif Məmmədovun öldürülməsi ilə bağlı cinayət işi üzrə şahid qismində dindirilmiş Müşfiq Rüstəmov bildirib ki, hücumlarda şübhəli bilinən Borik Süleymanyan saxlanılıb. Onu polis şöbəsinə gətirdikləri zaman avtomobil atəşə tutulub, Arif Məmmədov güllə yarası alıb və ölüb. Daha bir sənəd Cəbrayıl rayonunun Çullu kənd sakini Sevdayar Quliyevin Hadrut rayonunda öldürülməsi ilə bağlı olub. İclasda Şövkət Həşimovanın və Cavanşir Səfərəliyevin itkin düşməsi faktı üzrə sənədlər də elan edilib.

Məhkəmə iclasında Əsgəran rayonunun meşə massivində “Alazan-2M” tipli raket qurğularının aşkar edilməsi, 1988-ci ilin yanvar-fevral aylarında təbliğat-təşviqat aparmaqla azərbaycanlıların Xankəndi şəhərindən qovulmaları, 1991-ci il iyunun 13-də Şərur rayonunun Yuxarı Yaycı kəndində sovxozun atəşə tutulması, 1991-ci il iyulun 17-də Ağdərə rayonunun İmarət-Qərvənd kəndinə silahlı basqın edilməsi, 1991-ci il iyunun 27-28-də Xocavənd rayonunun Qaradağlı kəndində yerləşən fermanın atəşə tutulması və digər faktlar üzrə də sənədlər oxunub.

Məhkəmədə Kəlbəcər-Mərcimək avtomobil yolunun üzərində yerləşən “Sarıqaya” adlanan yerdə silahlı ermənilər tərəfindən Maarif Qəribovun, Ağdərə rayonunun çobanı Yaqub Şərifovun, Ağdərə rayonunun Umudlu kənd sakini Qara Qasımovun öldürülməsi faktları ilə əlaqədar sənədlər və şahid ifadələri, Mahal İmanovun, Vaqif Həsənovun, Novruz İmanovun, Qəzənfər Həsənovun qətlə yetirilmələri üzrə epizodlar da elan edilib.

Məhkəmə prosesi sentyabrın 18-də davam etdiriləcək.

***XQ***

# Kəlbəcər 32 ailəyə də qucaq açdı





**İşğaldan azad olunmuş torpaqlara köçmək məcburi köçkünlərin qayıdışı davam edir. Dünən Kəlbəcər şəhərinə 32 ailə - 139 nəfər köçürülüb. Onlar respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub. Kəlbəcər şəhərində daimi yaşayış üçün köçürülən ailələrə yeni tikilmiş binalarda mənzillər verilib.**

***XQ***

# Qafqaz İslam Ordusunun möhtəşəm zəfəri!

**1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti bütün müsəlman Şərqinin və türk dünyasının tarixinə ilk demokratik respublika quruculuğunun tarixi kimi yazıldı. Cümhuriyyətin qurulması ilə əsrlər boyu müstəqillik arzusu ilə yaşayan Azərbaycan türkləri özlərinin müasir tipli müstəqil dövlətinə sahib oldu.**



*Cavanşir FEYZİYEV,*
*Milli Məclisin deputatı*

Azərbaycan Xalq Cümhuriyyəti Birinci Dünya müharibəsində böyük dövlətlərin dünyanı bölüşdürmək uğrunda apardığı qanlı müharibələrin həlledici mərhələyə daxil olduğu çox mürəkkəb daxili və beynəlxalq şəraitdə yaradılmışdı. İlk türk respublikasının birinci mühüm vəzifəsi Azərbaycanın müstəqilliyinin dünya dövlətləri tərəfindən tanınmasına nail olmaq, qonşu dövlətlərlə münasibətləri qaydaya salmaqdan ibarət idi. Lakin Azərbaycan Xalq Cümhuriyyəti elan olunandan dərhal sonra xarici qüvvələr onun devrilməsi üçün bütün imkanlardan istifadə etməyə çalışdılar. Həmin ərəfədə Bakıda hakimiyyəti ələ keçirmiş S.Şaumyanın başçılıq etdiyi daşnak-bolşevik rejimi Azərbaycanın türk-müsəlman əhalisinə qarşı soyqırımı həyata keçirirdi. Yenicə təşkil olunmuş hökumətin qarşısında ölkədə baş verən dağıdıcı hadisələrin qarşısını almaq, Azərbaycan xalqını və müstəqilliyini qorumaqla yanaşı, həm də Cənubi Qafqaz respublikaları arasında mübahisəli məsələləri, xüsusilə, ermənilərin ərazi iddialarını həll etmək kimi ağrılı problemlər dayanırdı.

Azərbaycan milli azadlıq hərəkatının liderləri getdikcə şiddətlənən daşnak-bolşevik təcavüzünü dayandırmağın yeganə yolunu Osmanlı dövlətindən hərbi yardım almaqda görürdülər. Çox mürəkkəb beynəlxalq geosiyasi şəraitdə müstəqilliyini elan etmiş və təxirəsalınmaz hərbi köməyə böyük ehtiyacı olan Azərbaycan Xalq Cümhuriyyəti beynəlxalq siyasətinin ilk addımı kimi Türkiyə ilə dostluq müqaviləsi bağlamağı qərara aldı. Beləliklə, 1918-ci il iyunun 4-də Batumda Osmanlı dövləti ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında dostluq müqaviləsi imzalandı. Azərbaycan xalqı üçün həyati əhəmiyyətə malik olan bu sənəd Cümhuriyyət hökumətinin imzaladığı ilk dövlətlərarası müqavilə idi. Müqavilənin şərtlərinə uyğun olaraq, Beşinci Qafqaz firqəsi (diviziyası) Mürsəl paşanın komandanlığı altında Azərbaycana göndərildi. Həmin diviziya və general-leytenant Əliağa Şıxlınskinin komandanlığı ilə əsası hələ 1917-ci ilin dekabrında qoyulan, lakin mürəkkəb tarixi şəraitdə lazımınca formalaşa bilməyən Azərbaycan hərbi qüvvələri Qafqaz İslam Ordusu adı ilə vahid strukturda birləşdirildi. Bu struktura rəhbərlik Nuru Paşaya həvalə olundu.

Bunun ardınca iyunun 16-sı Azərbaycan hökuməti Tiflisdən Gəncəyə köçdü. Gəncədə Nuru Paşanın başçılıq etdiyi türk hərbi birləşməsinə yerli əhalidən toplanmış könüllülər də daxil oldu. Qafqaz İslam Ordusunun şəxsi heyəti birgə qüvvələrdən formalaşdı.

1918-ci il iyunun 17-də Fətəli xan Xoyskinin başçılıq etdiyi Azərbaycan hökuməti soyqırım taleyini yaşamaqda olan xalqı bu çətin vəziyyətdən çıxarmaq məsuliyyətini öz üzərinə götürdü. Hökumət iyunun 19-da bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan etdikdən sonra təcili olaraq dövlət quruculuğu prosesinə başladı. Azərbaycan hökuməti xarici müdaxilənin qarşısının alınması və dövlət müstəqilliyinin qorunub saxlanması məqsədilə əsas fəaliyyətini ordu quruculuğuna yönəltmişdi.

İyunun 26-sı müsəlman hərbi korpusunun Azərbaycan korpusuna çevrilməsi ilə ordu quruculuğu istiqamətində mühüm addım atıldı və faktiki olaraq ilk milli ordu yaradıldı. Bir gün sonra, Azərbaycan dili dövlət dili elan edildi. Bunun ardınca isə, iyul ayının 15-də Birinci Dünya müharibəsi dövründə Cənubi Qafqaz ərazisində türk-müsəlman əhalisinə qarşı erməni daşnakları tərəfindən törədilən soyqırım cinayətlərini araşdırıb, cinayətkarları məsuliyyətə cəlb etmək məqsədilə Fövqəladə Təhqiqat komissiyası yaradılması barədə qərar qəbul olundu.

Qafqaz İslam Ordusunun hissə və bölmələri bu struktur yaranan gündən Azərbaycanın istiqlaliyyətini məhv etmək üçün irimiqyaslı hərbi əməliyyatlara başlamış bolşevik-daşnak qüvvələrinə qarşı ağır döyüşlərə başladı. Azərbaycan hökuməti və bütün Azərbaycan xalqı tərəfindən hərtərəfli dəstəklənən Qafqaz İslam Ordusu Gəncə ermənilərinin tərksilah edilməsində, Qaraməryəm, Kürdəmir, Şamaxı, Binəqədi və s. döyüşlərində misilsiz şücaət göstərdilər, bolşevik-daşnak qüvvələrinə ağır zərbələr endirərək, onları bütün cəbhə boyu geri çəkilməyə məcbur etdilər.

Qafqaz İslam Ordusunun zəfər yürüşünün zirvəsi isə 1918-ci il sentyabrın 15-də Bakının azad edilməsi oldu. Bakı üzərinə hücumu uğurla başa çatdırmaq üçün Qafqaz İslam Ordusunun əsgər və zabitlərinin sayı 14 minə çatdırılmışdı. Bunların 8 mini osmanlı, 6 mini isə Azərbaycan türkləri idi. Yüksək hərbi peşəkarlıqla planlaşdırılan əməliyyat qısa zamanda müstəqil Azərbaycan dövlətinin paytaxtı elan olunmuş Bakının azad edilməsi ilə nəticələndi. 1918-ci il sentyabrın 15-də Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Azərbaycan Korpusu Bakıya daxil olaraq şəhəri erməni-bolşevik işğalından azad etdi.

Bakının erməni-bolşevik işğalından azad edilməsi zamanı düşmənin çoxlu sayda silah-sursatı müsadirə edildi. Bakı uğrunda döyüşlərdə 5-ci Qafqaz diviziyası 1300-ə qədər şəhid verdi. Ümumilikdə isə iyunun ortalarından sentyabrın 15-dək Qafqaz İslam Ordusunda döyüşlər zamanı şəhid olanların sayı təxminən 4000 nəfər olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi məqsədi ilə həyata keçirilmiş birgə döyüş əməliyyatlarının uğurlu nəticələrindən biri də Qafqaz İslam Ordusunun Qarabağ hərəkatı olub. Bakının azad edilməsindən bir neçə gün sonra Qafqaz İslam Ordusu Qarabağ bölgəsində erməni-daşnak qüvvələrinin Azərbaycan xalqına qarşı həyata keçirdiyi qırğınların qarşısını almaq üçün ora köməyə yollandı. Qafqaz İslam Ordusunun bir hissəsi isə Dağıstan istiqamətində xilaskarlıq yürüşünü davam etdirməyə başladı.



Qafqaz İslam Ordusu Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi günlərdən 1918-ci ilin noyabrına qədər fəaliyyət göstərdiyi bütün dövrdə Göyçaydan Bakıya qədər olan əraziləri bolşevik-daşnak qüvvələrindən, Qarabağı erməni-daşnak quldurlarından, Cümhuriyyətin şimalını isə rus müdaxiləsindən azad etdi.

Qafqaz İslam Ordusu Azərbaycan Xalq Cümhuriyyətinin tarixində, xüsusilə Azərbaycan xalqına qarşı S.Şaumyanın başçılıq etdiyi daşnak-bolşevik rejiminin həyata keçirdiyi soyqırımların dayandırılmasında, Bakının işğaldan azad edilməsində və milli ordunun yaranmasında və formalaşmasında mühüm rol oynadı.

Qafqaz İslam Ordusunun və Azərbaycan hərbi qüvvələrinin 1918-ci ildə birgə həyata keçirdikləri əməliyyatlar o dövrdə Azərbaycanın ərazi bütövlüyünü təmin etməklə yanaşı ölkəmizin bugünkü müstəqilliyinin təməlinin qoyulmasında da çox mühüm tarixi rol oynadı. O zaman Osmanlı dövlətinin göstərdiyi hərbi və siyasi dəstək milli dövlətçilik tariximizin sonrakı mərhələlərində də çox mühüm rol oynadı. Bu tarixi hadisələrə bu günün reallığından baxdıqda Azərbaycanın Türkiyə ilə bugünkü qardaşlıq münasibətlərinin zəfərlərlə dolu tarixi keçmişimizə söykəndiyi aydın görünür.




# Bakını xalqımıza qaytarmış qəhrəmanlıq

## *Şəhərin azad edilməsi Azərbaycanın dövlətçilik mübarizəsində dönüş yaratdı*

**Türkün şanlı tarixinə yaxından nəzər yetirəndə müxtəlif dövrlərdə baş verən və əksəriyyəti qələbə ilə başa çatan hadisələr zəncirində ümumi cəhətləri görmək mümkündür. Yəni, tarixin təkrarini yanlış istiqamətdən düzgün səmtə yönəltməyi bacaran türkün zəfəri, eyni zamanda, İlahi ədaləti, sülhü bərqərar etməyin, hamı ilə sülh içində, dinc yanaşı yaşamağın təntənəsi sayıla bilər.**

1918-ci ilin 15 sentyabrında Azərbaycan korpusunu da özündə birləşdirən, Nuru Paşanın komandanı olduğu Qafqaz İslam Ordusu Bakıya daxil olaraq erməni–daşnak işğalına son qoyması faktı da bu gün tariximizin dönüş anı kimi anılır. Azərbaycan Xarici İşlər Nazirliyinin Bakının erməni-bolşevik işğalından azad olunmasının 107-ci ildönümü münasibətilə paylaşımında daha sonra qeyd olunur ki, paytaxtın azad edilməsi Azərbaycanın dövlətçilik uğrunda mübarizəsində dönüş nöqtəsi oldu və xalqımızın, həmçinin onun müttəfiqlərinin birliyini, cəsarətini və fədakarlığını nümayiş etdirdi: “107 il sonra biz Vətənimizin azadlığı və müstəqilliyi uğrunda canlarını fəda edənlərin xatirəsini dərin minnətdarlıqla yad edirik”.

“Can Azərbaycanın paytaxtı Bakının işğaldan azad edilməsinin 107-ci ildönümü münasibətilə azərbaycanlı qardaşlarımızı ən səmimi arzularımızla təbrik edirik”. Bu sözlər Türkiyə Xarici İşlər Nazirliyinin 1918-ci il sentyabrın 15-də Qafqaz İslam Ordusunun Bakını daşnak-bolşevik işğalından azad etməsi münasibətilə paylaşımında yer alıb. “Müstəqillik uğrunda canını fəda edən bütün şəhidlərimizi rəhmət, minnət və şükranlıqla yad edirik”, – paylaşımda deyilir. Bunun ardınca Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərlik etdiyi Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası (AKP) Bakının bolşevik və daşnaklardan azad edilməsinin 107-ci ildönümü münasibətilə Azərbaycanı təbrik edib. Müvafiq paylaşım sentyabrın 15-də bu partiyanın sosial şəbəkələrdəki səhifələrində yerləşdirilib. Paylaşımda deyilir: “Biz dost və qardaş Azərbaycanı paytaxt Bakının işğaldan azad edilməsinin ildönümü münasibətilə səmimi-qəlbdən təbrik edirik. Qafqaz İslam Ordusunun qəhrəman komandirlərinin və cəsur əsgərlərinin xatirəsini dərin ehtiramla anırıq”. Ədalət və İnkişaf Partiyası Türkiyə və Azərbaycanın “Bir millət, iki dövlət” kəlamı işığında bundan sonra da çiyin-çiyinə olacağına əminliyini ifadə edib.

Türkiyə Milli Müdafiə Nazirliyi də Bakının erməni-bolşevik işğalından azad olunmasının 107-ci ildönümü münasibətilə Azərbaycana təbrik ünvanlayıb. Bu barədə nazirliyin “X” hesabında yazılıb: “Bakı şəhərinin düşmən işğalından azad edilməsinin 107-ci ildönümü mübarək olsun. Nuru Paşanı və onun komandanlığı altındakı Qafqaz İslam Ordusunun qəhrəman şəhid və qazilərini rəhmət, minnətdarlıq və ehtiramla anır, Azərbaycan türkü qardaşlarımızı bu xüsusi gün münasibətilə səmimiyyətlə təbrik edirik. Türkiyə 107 il əvvəl olduğu kimi, bu gün də Azərbaycanla bir ürək, bir yumruq kimi qalmağa davam edəcək”.




Oxuculara xatırladaq ki, həmin dövrdə Osmanlı dövlətinin müttəfiqi Almaniya “Berlinin Bakı neftinə nəzarət etmək istədiyi üçün” Qafqaz İslam Ordusunun missiyasına qarşı çıxmışdı. Amma Almaniyanın böyük müqavimətinə baxmayaraq, Ankara öz addımlarını Azərbaycan hökuməti ilə yaxından əlaqələndirən Qafqaz İslam Ordusunun irəliləyişini davam etdirmək əmrini verdi. 1918-ci il sentyabrın 15-də 30 saatlıq döyüşdən sonra Bakı şəhəri düşməndən azad edildi. Nuru Paşanın komandanı olduğu Qafqaz İslam Ordusunun 1130 döyüşçüsü Azərbaycan paytaxtı uğrunda döyüşlərdə şəhid oldu.

Tarixin sınağından daim üzüağ çıxmış Türkiyə–Azərbaycan qardaşlıq münasibətləri 2021-ci il iyunun 15-də Şuşa Bəyannaməsinin imzalanması ilə müttəfiqlik səviyyəsinə yüksəldi. Prezident İlham Əliyevin dediyi kimi, tarixi Qars müqaviləsindən 100 il sonra, azad edilmiş Şuşa şəhərində imzalanan Birgə Bəyannamə bizim gələcək işbirliyimizin istiqamətini göstərir. Çağdaş dövrdə İkinci Qarabağ savaşından qalib çıxan Azərbaycanın paytaxtı Bakı dövlətimizin gücünün və qüdrətinin rəmzidir.

***İ.HƏSƏNQALA***
***XQ***

# Xarici işlər naziri Qətərdə




**Sentyabrın 15-də xarici işlər naziri Ceyhun Bayramov Qətər Dövlətinin paytaxtı Dohada keçirilən Fövqəladə Ərəb-İslam Sammitində iştirak və çıxış edib.**

Çıxışda Qətərə edilən son hava hücumunun dərin narahatlıq doğurduğu bildirilib, Qətərin suverenliyi və ərazi bütövlüyünə dəstək ifadə olunub. Qəzza bölgəsindəki mövcud vəziyyətin aradan qaldırılması xüsusunda Qətərin vasitəçilik səyləri yüksək qiymətləndirilib.

Ümumilikdə Fələstin məsələsi kontekstində ölkəmiz tərəfindən “iki dövlət” prinsipinin rəhbər tutularaq, beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun həll variantının dəstəkləndiyi bir daha diqqətə çatdırılıb.

Regiondakı böhranın həlli istiqamətində sülh təşəbbüslərindən əlavə humanitar yardım səylərinin əhəmiyyəti qeyd olunub. Bu çərçivədə Azərbaycanın qardaş Fələstin xalqına öncəki illər ərzində dəstəyinin davamı olaraq, eskalasiyanın başladığı 2023-cü ildən etibarən 2 milyon ABŞ dolları həcmində humanitar yardımın ayrıldığı bildirilib. Bundan əlavə, ölkəmiz tərəfindən Fələstinə təhsil və səhiyyə sahələri üzrə dəstək layihələrinin həyata keçirildiyi çıxışda qeyd olunub.

*

Həmin gün xarici işlər naziri Ceyhun Bayramov Dohada Özbəkistanın xarici işlər naziri Baxtiyor Saidov ilə görüşüb.

Görüş zamanı strateji müttəfiqlik səviyyəsindəki Azərbaycan-Özbəkistan əlaqələrinin bütün sahələrdə dinamik inkişafından məmnunluq ifadə edilib, bu əlaqələrin təməlində iki ölkənin dövlət başçıları arasında dostluq və qardaşlıq münasibətlərinin və sıx təmasların dayandığı vurğulanıb.

***XQ***

# Türkiyənin Baş Qərargah rəisi Azərbaycanda



**Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Selçuk Bayraktaroğlu ölkəmizdə səfərdədir.**

Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov müdafiə nazirinin birinci müavini – Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevin dəvəti ilə ölkəmizdə səfərdə olan Selçuk Bayraktaroğlunu və onun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Zakir Həsənov Azərbaycan və Türkiyə arasında dərin tarixi köklərə, ortaq dəyərlərə və qarşılıqlı etimada əsaslanan əlaqələrin hər iki qardaş ölkənin dövlət başçılarının dostluq münasibətləri nəticəsində daha da inkişaf etdiyini qeyd edib. Türkiyənin hər zaman ölkəmizə dəstəyini yüksək qiymətləndirən nazir 15 sentyabr – Bakının daşnak-bolşevik işğalından azad edilməsi gününün xalqımız üçün tarixi əhəmiyyətinə toxunub.

Ordu generalı S.Bayraktaroğlu səmimi qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib. Qarşılıqlı etimad və dostluğa dayanan münasibətlərimizin inkişaf etdirilməsində bu cür səfərlərin və keçirilən görüşlərin müsbət töhfələr verdiyini qeyd edib.

Səfər çərçivəsində hər iki ölkənin Baş Qərargah rəisləri arasında görüş keçirilib. Görüşdə Azərbaycan Ordusunda tətbiq edilən yeniliklərdən danışan general-polkovnik K.Vəliyev ölkələrimiz arasında mövcud hərbi əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün bütün imkanların mövcud olduğunu vurğulayıb.

Tərəflər hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın cari vəziyyəti və daha da genişləndirilməsinə dair ətraflı fikir mübadiləsi aparıb, qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

***XQ***

# Regional sülh, iqtisadi inteqrasiya və strateji liderlik

**14 sentyabr 2025-ci il tarixi Azərbaycan və Ermənistan münasibətlərində mühüm dönüş nöqtəsi kimi tarixə düşdü. Günün xüsusi önəmi, Azərbaycan Prezidenti İlham Əliyevin Xankəndidə çıxışında "Zəngəzur dəhlizi" ifadəsini işlətməsində özünü göstərdi. Sadəcə, nəqliyyat və logistika layihəsi kimi səslənən bu təşəbbüs, əslində, regional siyasətdə yeni mərhələnin başlanğıcını simvollaşdırır. Prezidentin mövqeyi burada açıq şəkildə görünür: qarşıya qoyulan məqsəd tərəflər arasında etimadın bərpası və uzunmüddətli sülhün təmin olunmasıdır.**

Azərbaycanın regionda mövqeyi tarixi və strateji aspektlərdə həmişə mürəkkəb olub. Qarabağ münaqişəsi və onun nəticələri regionun siyasi və iqtisadi geosisteminə dərin təsir göstərmişdir. Məhz bu baxımdan, Prezident İlham Əliyevin çıxışında işlədilən "Zəngəzur dəhlizi" ifadəsi diplomatik mesajdır. Prezidentin strateji qərarları burada həm diplomatik, həm də geosiyasi aspektləri əhatə edir. Dövlət başçısı qarşı tərəfə açıq mesaj verir ki, Azərbaycan regionda sabitlik və əməkdaşlıq prinsiplərinə əsaslanan siyasət yürüdür və bu siyasət qarşılıqlı fayda və iqtisadi inteqrasiya üzərində qurulub.

Prezidentin təşəbbüsü Ermənistan daxilində müxtəlif siyasi qruplara və beynəlxalq aktorlara da ünvanlanıb. İlham Əliyevin vurğuladığı kimi, Zəngəzur dəhlizi layihəsi həm Azərbaycanın, həm Ermənistanın, həm də bütövlükdə regionun iqtisadi və strateji maraqlarına xidmət edir.

Siyasi analitik suallar burada xüsusilə aktuallaşır: İlham Əliyevin çıxışındakı mesaj Ermənistan daxilində hansı reaksiyalara səbəb olacaq? Zəngəzur dəhlizi layihəsi regionda uzunmüddətli sabitliyi təmin edə biləcəkmi? Prezidentin liderlik mövqeyi və diplomatik təşəbbüsü beynəlxalq aktorların dəstəyini necə möhkəmləndirir? Sualların cavabları yalnız layihənin iqtisadi və siyasi təhlili ilə deyil, həm də avqustun 8-də Vaşinqtonda paraflanan üçtərəfli sülh bəyannaməsi ilə aydın olur.

8 avqust bəyannaməsi Azərbaycan, Ermənistan və ABŞ arasında sülh və əməkdaşlıq üçün rəsmi sənəd olaraq regionun tarixində mühüm mərhələni ifadə edir. Sənəd tərəflərin dialoq və əməkdaşlıq yolunu seçdiyini təsdiqləyir və layihənin beynəlxalq səviyyədə legitimliyini təmin edir. Prezidentin strateji qərarları isə bəyannamənin praktikada tətbiqi və regionda davamlı sülhün təmin olunması üçün güclü liderlik mövqeyinin mövcud olduğunu göstərir.

Uzunmüddətli perspektivdə bu təşəbbüs tərəflər arasında qarşılıqlı asılılıq yaratmaqla, iqtisadi əməkdaşlığı siyasi dialoqla uzlaşdıran bir platforma təqdim edir. ABŞ-ın vasitəçiliyi ilə 8 avqust 2025-ci ildə paraflanan sülh sazişi layihəyə siyasi və diplomatik legitimlik qazandırdı. Sənəd tərəflərin dialoq və əməkdaşlıq yolunu seçdiyini rəsmi şəkildə təsdiqləyir, eyni zamanda regionda sabitliyin təmin olunması üçün beynəlxalq nəzarət mexanizmlərinin tətbiqinə imkan yaradır. Avropa İttifaqı isə layihəni regional inteqrasiyanın və ticarət əlaqələrinin gücləndirilməsi perspektivi ilə izləyir. Brüssel üçün bu, həm tərəflər arasında dialoqu təşviq etmək, həm də Qafqaz regionunda iqtisadi stabilliyin təminatı məqsədini daşıyır. Eyni zamanda, Aİ-nin sərmayə və texniki dəstəyi layihənin həyata keçirilməsində əlavə etibarlılıq yaradır, tərəflər arasında qarşılıqlı etimadı möhkəmləndirir.



Azərbaycan və Ermənistan arasında iqtisadi əlaqələrin genişlənməsi qarşılıqlı asılılıq yaratmaqla tərəfləri sülh və stabillik yoluna sövq edir. Layihənin iqtisadi baxımdan rolu xüsusi əhəmiyyət kəsb edir: yeni nəqliyyat arteriyası məhsul və sərvətlərin daha qısa, təhlükəsiz və sərfəli marşrutlarla daşınmasına imkan yaradır.

Ermənistan üçün layihənin iqtisadi potensialı xüsusilə əhəmiyyətlidir. Qarabağ münaqişəsi nəticəsində iqtisadi izolyasiyada qalan ölkə üçün Zəngəzur dəhlizi xarici investisiyaların artmasına, iş yerlərinin yaradılmasına və iqtisadi şaxələndirməyə şərait yaradır. Layihə İrəvanın qapalı iqtisadi modeldən açıq, inteqrasiya olunmuş iqtisadi modelə keçidini sürətləndirir və regionda iqtisadi əlaqələrin genişlənməsini təmin edir.

Beynəlxalq aktorların rolu layihənin reallaşmasında həlledici əhəmiyyət daşıyır.

Ermənistan daxilində Zəngəzur dəhlizi layihəsinə münasibət qarışıq və çoxsəviyyəlidir. Bir tərəfdən, iqtisadi perspektivləri və regional əməkdaşlıq imkanlarını dəyərləndirən siyasi qruplar layihəni dəstəkləyir. Onların fikrincə, bu təşəbbüs xarici investisiyaların artmasına, ticarət və nəqliyyat sahəsində yeni imkanların yaranmasına səbəb olacaq, nəticədə iqtisadi şaxələndirmə və uzunmüddətli sabitlik üçün şərait yaradacaq. Digər tərəfdən, bəzi siyasi qüvvələr layihəni yanlış qavrayır, milli və tarixi mövqelərin zəifləməsi kimi qiymətləndirirlər. Buna görə də layihənin davamlılığı üçün yalnız iqtisadi və infrastruktur göstəriciləri kifayət etmir; diplomatik həssaslıq və strateji kommunikasiya zəruridir. Azərbaycan və beynəlxalq tərəflərin təşəbbüsləri ilə Ermənistan daxilində tərəfdar qrupların fəallaşdırılması, narazı qüvvələrin narahatlığının yumşaldılması və ictimaiyyətin layihənin faydalarına dair məlumatlandırılması vacibdir.

Sual: layihənin iqtisadi faydaları Ermənistan daxilində siyasi müqaviməti azalda bilərmi? Əvvəlcə onu qeyd edək ki, Zəngəzur dəhlizi layihəsi regional dialoq və etimad mühitinin möhkəmləndirilməsi üçün bir platformadır. Layihənin iqtisadi təsiri konkret olaraq iş yerlərinin artması, ticarət imkanlarının genişlənməsi və xarici investisiyaların cəlb edilməsində görünür. Mövcud faktorlar Ermənistan daxilində layihəyə tərəfdar olan siyasi qrupların mövqeyini gücləndirməklə yanaşı, skeptik dairələrin narahatlığını azalda bilər. Lakin iqtisadi faydaların özü kifayət deyil; layihənin uğuru həm də strateji qərarların dəqiqliyi, diplomatik təşəbbüslərin vaxtında və məqsədyönlü həyata keçirilməsindən asılıdır.

Beynəlxalq aktorların iştirakı layihənin həm legitimliyini, həm də davamlılığını təmin edir. Ağ Evin də imzasını atdığı üçtərəfli bəyannamə layihəyə diplomatik təsdiq verdi və regionda sülh prosesini gücləndirdi. Eyni zamanda, Avropa İttifaqı, Türkiyə və beynəlxalq təşkilatlar layihənin nəzarət mexanizmlərinin tətbiqinə dəstək verərək tərəflər arasında etimadın formalaşmasını təmin edir. Təbii ki, bu aktorların iştirakı yalnız siyasi təzyiq və diplomatik təsir yaratmır, həm də layihənin uzunmüddətli həyata keçirilməsi üçün vacib koordinasiya rolunu oynayır.

Enerji və iqtisadi inteqrasiya layihənin sülh perspektivini daha da möhkəmləndirir. Qarşılıqlı asılılıq yaratmaqla, tərəflər arasında həm də münaqişə riskləri azaldılır, regional maraqlar uzlaşdırılır. Buna görə də, Zəngəzur dəhlizi həm iqtisadi, həm siyasi, həm də strateji bir vasitə kimi çıxış edir.



Layihənin davamlı uğuru bir neçə amilin birgə təsirindən asılıdır: İlham Əliyevin strateji liderliyi və diplomatik təşəbbüsləri, iqtisadi və enerji əməkdaşlığının reallaşdırılması, Ermənistan daxilində siyasi balansın qorunması və beynəlxalq aktorların fəal iştirakı. Bütün bu komponentlər bir araya gəldikdə, Zəngəzur dəhlizi yalnız regional iqtisadi təşəbbüs deyil, uzunmüddətli sülh və sabitlik üçün nümunəvi bir modelə çevrilir.

Son olaraq bildirək ki, layihə tərəfləri əməkdaşlığa sövq edən iqtisadi və diplomatik mexanizmlərin sintezini təqdim edir. Regional inteqrasiya və qarşılıqlı fayda prinsipləri uğurla tətbiq edildikdə, siyasi gərginliklərin yumşaldılması və sabit gələcək mümkün olur.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

---

# Ağrı dağının əsl möhürü vurulur

## *Ermənilər bu zirvəyə ağrılı keçmiş kimi baxacaqlar*

**Ermənistan hökuməti noyabrın 1-dən etibarən sərhəd möhürlərindən Ağrı dağın təsvirini çıxarmaq barədə qərar qəbul edib. Bu addımın texniki prosedur kimi görünməsinə baxmayaraq, ölkənin milli simvollarının siyasi və psixoloji yükünü nəzərə alanda daha geniş məna daşıyır. Tipik erməni düşüncəsi ilə qərar "söykökə xəyanət" hesab oluna bilər. Amma mahiyyətə vardıqda bəlli olur ki, Ermənistana aid olmayan bir dağın ölkədə bu qədər ilahiləşdirilməsi "erməni xəstəliyinin" ən bariz nümunələrindən idi. İndi hökumət qonşularla münasibətləri tənizmləmək məqsədilə bu xəstəliyə qarşı "peyvənd" hazırlayır.**

Yeni möhür forması Ermənistan Nazirlər Kabinetinin sentyabrın 11-də keçirilən iclasında qəbul edilmiş qərarında öz əksini tapıb. Qaydalar cari il noyabrın 1-dən qüvvəyə minəcək. Ermənistanın "Vətəndaş Müqaviləsi" parlament fraksiyasının katibi Artur Ovannisyan Ermənistanın yalnız öz dövlət rəmzləri ilə fəaliyyət göstərməli olduğunu bildirib. O qeyd edib ki, erməni xalqı emosionallıqdan azad olmalı, möhür və ya bəyanat olmasından asılı olmayaraq Alma-ata Bəyannaməsinin prinsipləri əsasında heç bir hərəkətimiz qonşu dövlətlərə təhlükəli siqnallar göndərməməlidir. Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan isə strateji tarazlığın təmin edilməsi üçün sərhəd möhürlərindən Ağrı dağın təsvirinin çıxarılmasının sülhə xidmət etdiyini vurğulayıb.

Bəli, "Böyük Ermənistan" xülyasından bihuş olan hayların müharibədən sonrakı reallıqlarla barışması bu məqamda sülhə əsaslı ümidlər yaradır. Ağrı dağının mərkəzi təsviri Sovet dövründə Ermənistan SSR gerbində əsas element kimi yer alıb. Müstəqillikdən sonra qəbul edilən rəsmi gerbdə dağın zirvəsi və Nuhun gəmisi qorunub saxlanılıb. Ağrı dağı motivi, həmçinin müxtəlif sahələrdə geniş istifadə olunub. Ermənistan dramı banknotlarının müxtəlif seriyalarında dağın silueti yer alıb, ilk müstəqil poçt markalarının böyük hissəsi Ağrı dağın təsviri ilə hazırlanıb. İrəvan şəhərinin emblemi də dağın konturunu əhatə edir, İrəvan Dövlət Universiteti, Ermənistan Futbol Federasiyası, "FC Masis" və "Ararat-Armenia" kimi futbol klublarının loqolarında da dağın simvolu var. Kommersiya sektorunda "Ararat" konyakı, şərab və turizm məhsullarında bu simvol davamlı olaraq istifadə olunur. Bu baxımdan geniş yayılmış rəmzin dövlət möhürlərindən çıxarılması uzun illər formalaşmış milli psixologiyanı dəyişdirmək istiqamətində ciddi siqnaldır. Məhz möhürlərdən Ağrı dağının çıxarılması qərarından sonra növbə bütün Ermənistan gündəmindən bu yanlış düşüncənin təmizlənməsidir.




Ermənistan hökumətinin bu qərarı Ankara ilə münasibətləri normallaşdırmaq məqsədi daşıyır. Türkiyə tərəfi uzun illər Ermənistanın dövlət atributlarında öz ərazisinə aid obyektlərin təsvirini ərazi iddiası kimi qiymətləndirib. Paşinyan administrasiyası bu məsələyə diqqət yetirərək regional reallıqlara uyğunlaşmaq, Zəngəzur dəhlizinə (TRIPP) alternativ yollar açmaq və iqtisadi əlaqələri genişləndirmək istəyir. Ağrı dağı simvolunun möhürlərdən silinməsi Türkiyə-Ermənistan dialoqu üçün etimad mühiti yarada bilər. Bu addım qarşılıqlı jest kimi qiymətləndirilə, sərhədlərin açılması və diplomatik münasibətlərin bərpası prosesini sürətləndirə bilər. Bu qərar həm də Ermənistan-Azərbaycan normallaşma prosesinə dolayı təsir göstərə bilər, çünki İrəvanın praqmatik siyasəti regional əməkdaşlıq imkanlarını genişləndirir.

Ermənistanın müxalif qüvvələri bu addımı milli rəmzlərdən imtina və "mirasa xəyanət" kimi dəyərləndirərək hökuməti tənqid edir. Lakin Paşinyan komandası real siyasi-iqtisadi maraqları ön plana çıxararaq daxili reaksiyaları balanslaşdırmağa çalışır. Ağrı dağı haylar üçün nəinki coğrafi obyekt kimi, həm də mifik və tarixi simvol olaraq önəmlidir. Onun İrəvandan görünən mənzərəsi ermənilərdə "nostalji" və milli yaddaş hissini gücləndirir. Regionda bunun doğuracağı reaksiyalar qaçılmaz olsa da, bu dəyişiklik Ermənistanın yeni diplomatik kursunun açıq simvoludur.

***P.S.** Təbii ki məsələnin kökündə dayanan yeganə amil Türkiyə deyil. Həmişəki kimi, ikili siyasət yürüdən Nikol Paşinyan bu addımla Qərbə də göz qırpır. Çünki Ermənistanın sərhəd möhürlərindən Ağrı dağı təsvirinin çıxarılması barədə dəyişiklik, xüsusilə Avropa İttifaqında, sərhəd keçidlərində daha sadə və funksional dizaynların tətbiqinə yönəlmiş yanaşmanın bir hissəsidir. Növbəti aydan başlayaraq 29 Avropa ölkəsi ənənəvi pasport möhürlərini tamamilə ləğv edərək biometrik məlumatlara əsaslanan Elektron Giriş/Çıxış Sistemi (EES) tətbiq etməyə başlayacaq. Bu sistem üz tanıma və barmaq izi skanerləri vasitəsilə sərhəd keçidlərini izləyəcək və fiziki möhürlərə ehtiyacı aradan qaldıracaq. Yəni, Paşinyan Ağrı dağının təsvirini möhürdən elə-belə götürməyib. Bir tərəfdə Ankara ilə münasibətlərin normallaşması prosesi dayanırsa, digər tərəfdə İrəvan bu addımla Qərbə qucaq açmağa hazır olduğunu bildirir.*

***Tacir SADIQOV,***
***XQ***

### Ekspert rəyi



**Aydın MİRZƏZADƏ,**
**Milli Məclisin deputatı**

Ermənistanın rəsmi möhüründə digər ölkələrin coğrafi simvollarının təsvir olunması həm qanuna uyğun deyil, həm də beynəlxalq hüquq normalarına ziddir. Bu addım, eyni zamanda, qonşuluq münasibətlərinin əsas prinsiplərinə uyğun gəlmir və bölgədə sülh və sabitlik üçün ciddi narahatlıq yaradır. Əgər Ermənistan qonşularla, xüsusən Türkiyə ilə münasibətlərini yaxşılaşdırmaq niyyətində olsaydı, belə addımlar atmazdan əvvəl məsələləri ciddi şəkildə nəzərə almalı idi. Bu baxımdan, hazırda Ermənistanın Türkiyə ilə münasibətlərdə göstərdiyi yüksək maraq və fəallıq diqqət çəkir. Həqiqətən də, həmin maraq fonunda atılmış bu addım Ermənistanın siyasət strategiyasının bir hissəsi kimi dəyərləndirilə bilər.

Digər tərəfdən, Ermənistanın rəsmi möhürləri və bunun ətrafında baş verən məsələlər artıq ölkənin daxili siyasətinin predmetidir və biz bunu yalnız rəsmi mövqe olaraq qiymətləndiririk. Lakin biz istərdik ki, Ermənistan qonşularla, o cümlədən Azərbaycanla münasibətlərində də obyektiv və balanslı mövqe tutsun, bölgədəki gərginliyi artıracaq addımlardan çəkinərək dialoq və əməkdaşlığa üstünlük versin.

Bu, yalnız qonşuluq siyasətinin tələb etdiyi sivil yanaşma deyil, eyni zamanda Ermənistanın beynəlxalq nüfuzunun qorunması və bölgədə uzunmüddətli sabitliyin təmin olunması baxımından da vacibdir.

### Ekspert rəyi

**Əhməd ABBASBƏYLİ,**
**Cəmiyyətin İnkişafı Mərkəzi**
**İctimai Birliyinin sədri**

Erməni cəmiyyəti əsasən sülh müqaviləsinin tərəfdarı deyil və Paşinyan siyasətinə mənfi münasibət bəsləyir. Eyni zamanda, cəmiyyətin içində ciddi qarşıdurma mövcuddur: bir tərəfdə məğlubiyyəti qəbul etməyən, revanşist və şovinist, digər tərəfdə isə Ermənistanın gələcəyini düşünən, proqressiv və reallığa uyğun mövqe tutan qruplar dayanır. Bu iki cəbhə arasında ciddi rəqabət var.

Müşahidələr onu deməyə əsas verir ki, Rusiya müxtəlif yollarla Paşinyan hakimiyyətini devirmək və özünə sadiq şəxsləri hakimiyyətə gətirmək cəhdləri göstərsə də, hələki heç biri uğurla nəticələnməyib. Paşinyan həm Rusiyaya, həm də ölkədaxili qüvvələrə qarşı açıq şəkildə mübarizə aparır ki, bu da onun Ermənistan şəraitindəki siyasi nüfuzunu göstərir.



Paşinyanın yürütdüyü siyasət erməni cəmiyyətində müəyyən təsir yaratmağı bacarıb. Sosial şəbəkələrdə və digər informasiya platformalarında aparılan mübarizələr cəmiyyəti tam dəyişdirmir, amma uzun müddətə sülh yönümlü və proqressiv addımlar atmağa sövq edir. Erməni ictimaiyyəti stereotiplərlə dolu olsa da, mütərəqqi xadimlərin fəaliyyəti və sistemli yanaşmalar nəticəsində cəmiyyətin dəyişməsi mümkündür. Paşinyan hakimiyyəti davam edərsə, konstitusiya dəyişiklikləri və sülh müqaviləsi istiqamətində addımların atılması gözlənilir. Erməni cəmiyyəti də müvafiq olaraq qlobal mühitdə özünü sistem daxilində aparmağı öyrənməli və bu imkanlardan faydalanmalıdır.

# Qarabağın dirçəliş marafonu

**(əvvəli 1-ci səhifədə)**

Bəli, Qarabağ və Şərqi Zəngəzur bu gün yeni inkişaf mərhələsinə qədəm qoyub. Dövlət siyasətinin mərkəzində bu ərazilərin bərpası, sosial-iqtisadi dirçəlişi və dayanıqlı məskunlaşması, sakinlərin firavan həyatı dayanır. Prezident İlham Əliyev Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsində Qırmızı Bazar, Hadrut qəsəbələrinin və Sos kəndinin sakinləri ilə görüşündə bu məsələ barədə danışıb. Ölkə başçısı qeyd edib ki, biz beş il ərzində şəhərlər, kəndlər, körpülər, tunellər, su anbarları, elektrik stansiyaları qurmuşuq: "Yəni, burada – Qarabağda və Zəngəzurda gedən quruculuq dünyanın heç bir yerində yoxdur. Əsas odur ki, Azərbaycan xalqı rahat yaşasın, xoşbəxt yaşasın, sülh içində yaşasın".



İşğaldan azad olunmuş ərazilərdə görülən genişmiqyaslı işlər arasında infrastruktur layihələri xüsusi yer tutur. Çünki müasir infrastruktur olmadan nə iqtisadi potensialın səmərəli istifadəsi, nə də insanların orada rahat və təhlükəsiz şəkildə yaşaması mümkündür. Elektrik enerjisi şəbəkələrinin, su və qaz təchizatının, yol-nəqliyyat xətlərinin, rabitə və internet xidmətlərinin qurulması həmin ərazilərin gələcək sosial və iqtisadi həyatının əsas dayaqlarıdır. İnfrastrukturun bərpası regionların iqtisadi inteqrasiyasına şərait yaratmaqla yanaşı, Böyük Qayıdış prosesinin sürətlənməsinə xidmət edir. Prezident İlham Əliyevin Qarabağa və Şərqi Zəngəzura mütəmadi səfərləri də bu istiqamətdə dövlətin qətiyyətli iradəsinin təcəssümüdür. Səfərlər yeni yaşayış komplekslərinin istifadəyə verilməsi, təməlqoyma mərasimlərinin keçirilməsi, infrastruktur layihələrinin təqdimatı ilə yadda qalır. Bu, bir tərəfdən dövlət başçısının prosesə şəxsi nəzarətini ifadə edirsə, digər tərəfdən bölgənin gələcək inkişaf perspektivini göstərir. Hazırda Şuşa, Xankəndi, Ağdam, Füsuli, Kəlbəcər və digər bölgələr bərpa və yenidənqurma mərkəzinə çevrilib. Burada yaşayış evləri, sosial obyektlər inşa olunur, tariximizə və kimliyimizə aid mədəniyyət və dini abidələr bərpa edilir.

Yeri gəlmişkən, müasir Qarabağ işğaldan əvvəlki dövrün bütün xüsusiyyətlərini özündə birləşdirir. Bərpa və quruculuq işlərində tarixlə müasirliyin sintezinin nəzərə alınması gələcək nəsillərin milli kimliyinin itirilməməsinə xidmət edir. Çünki gənc nəsil doğma torpağın nəfəsini duymalı, onun qarşısında daşıdığı məsuliyyətin fərqinə varmalıdır.

Artıq 20-dən çox yaşayış məntəqəsinə köç həyata keçirilib. 2021-ci ildən bu yana Qarabağ və Şərqi Zəngəzurun bərpası üçün 19 milyard manatdan çox vəsait xərclənib. Hazırda azad edilmiş ərazilərdə yaşayan və çalışanların sayı 50 minə yaxınlaşıb. "Böyük Qayıdış" proqramına əsasən, 2026-cı ilin sonunadək bölgəyə 140 min nəfərin köçürülməsi nəzərdə tutulub. İlkin mərhələdə ayrılmış vəsaitlərlə infrastrukturun təməli qoyulub, növbəti illərdə isə daha geniş sosial və iqtisadi layihələrin reallaşdırılması planlaşdırılıb. Növbəti inkişaf mərhələsi Qarabağın təbii resurslarının üzə çıxarılması, zəngin flora və faunaya malik bölgələrin dünya miqyasında turizm zonaları kimi tanıdılmasıdır. Bundan başqa, azad edilmiş ərazilərdə enerji infrastrukturu artıq müasir standartlara uyğun qurulub. Dairəvi elektrik şəbəkəsi bütün bölgələri əhatə edir və Azərbaycanın əsas elektrik təsərrüfatına qoşulub. Hazırda 280 meqavat gücündə su elektrik stansiyaları fəaliyyət göstərir və istehsal olunan enerji Qarabağdan ölkənin digər bölgələrinə yönləndirilir. Nəqliyyat infrastrukturunda da mühüm irəliləyişlər əldə olunub. Ağdam–Xankəndi–Şuşa istiqamətində 7 tunel tikilib, onların ümumi uzunluğu 80 kilometrdir. Tunellər regionun nəqliyyat imkanlarını əhəmiyyətli dərəcədə artırır və iqtisadi inteqrasiyanı sürətləndirir. Eyni zamanda dəmir yolu şəbəkəsinin qurulması da intensiv şəkildə davam etdirilir. Bugünlərdə Ağdama ilk qatar yola salınıb, Ağdam–Xankəndi dəmir yolunun isə təməli artıq qoyulub. Bundan əlavə, Xankəndi-Şuşa, Laçın və Kəlbəcər istiqamətlərində kanat yollarının tikintisi ilə bağlı Prezident tərəfindən konkret qərarlar verilib.

Sonda bir daha vurğulayaq ki, Qarabağ xalqın ümidlərinin, müqəddəs torpaq uğrunda verilmiş qurbanların və gələcək nəsillərə ötürüləcək milli qürurun rəmzidir. Burada inşa edilən hər ev, bərpaolunan hər abidə bizi zəfərə qovuşduran yolun hekayəsini danışır...

***Nəzrin ELDARQIZI***
***XQ***

### Ekspert rəyi



**Yusif BAĞIRZADƏ,**
**politoloq**

Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzura səfərləri hər dəfə yeni yaşayış komplekslərinin açılışı ilə, sakinlərlə görüşlər mühüm mesajlarla yadda qalır. Prezidentin erməni işğalından azad edilən ərazilərin bərpası istiqamətində verdiyi tapşırıqlar və ona uyğun görülən işlər isə bir çox istiqamətləri əhatə edir. İnsanların öz doğma yurduna qayıdışı üçün yaşayış binalarının, fərdi evlərin tikintisi ilə paralel şəkildə infrastruktur layihələri həyata keçirilir. Bu gün dövlət başçısının göstərişləri əsasında həyata keçirilən yenidənqurma və bərpa işləri həqiqətən də öz həcminə görə misilsizdir. Prezidentin dediyi kimi, Qarabağ və Zəngəzurda gedən quruculuq işlərinə dünyanın heç bir yerində rast gəlmək mümkün deyil. Tamamilə dağıdılmış, viran qoyulmuş ərazilərdə 5 ildə görülən işlərin həcmi bu ərazilərə səfər edən hər kəsi təəccübləndirir. Mən özüm də işğaldan azad olunmuş ərazilərə bir neçə dəfə səfərlər etmişəm və hər səfərimdə xoş təəccüb hissləri keçirmişəm. Qısa vaxt ərzində 20-dən artıq məntəqədə əhalinin məskunlaşması, 10 minə yaxın keçmiş məcburi köçkünün öz yurdlarına qayıdışı, tunellər, körpülər, elektrik stansiyaları, su anbarlarının, hava limanlarının tikilməsi, avtomobil və dəmir yollarının çəkilişi, enerji infrastrukturunun bərpası və yenidən qurulması hər ölkənin bacara biləcəyi işlər deyil.

2021-ci ildən sonrakı dövrdə bu işlərin həyata keçirilməsi üçün 19 milyard manatdan çox vəsait ayrılıb və bu vəsait hər keçən il daha da artırılır. Bir sözlə, işğaldan azad olunmuş ərazilərimizdə, sözün əsl mənasında, cənnət yaradılır. Prezidentin Qarabağa budədəki səfəri zamanı Xocavənd, Xocalı və Füzulidə yeni yaşayış məntəqələri, infrastruktur layihələrinin təməlinin qoyuluşu, habelə, Hadrut və Qırmızı Bazar qəsəbələrində fərdi yaşayış evlərinin tikintisi ilə yadda qaldı. Bölgəyə köçən sakinlər üçün hər cür şəraitin qurulması bir daha sübut edir ki, tezliklə bu ərazilərin Azərbaycanın ən gözəl guşələrindən birinə çevriləcəyinə şahidlik edəcəyik.

# Menendez "öldü", növbə Avropanın "süngər bob"larınındır

## *Erməniپərəst senatorla bağlı yekun məhkəmə qərarına sözardı*

**İki il əvvəlin bu günlərində onun təşəbbüsü ilə ABŞ Senatının Xarici əlaqələr komitəsində "Qarabağdakı böhranın qiymətləndirilməsi" mövzusunda dinləmələr keçirilmişdi. Həmin dinləmələrə Birləşmiş Ştatların Dövlət katibinin Avropa və Asiya məsələləri üzrə müavini vəzifəsini icra edən Yuri Kim də qatılmış, aşkar anti-Azərbaycan mövqe nümayiş etdirmişdi.**




Haqqında söz açacağımız şəxs sözügedən dinləmələrdə özünün ermənipərəst ritorikasının vacibliyini Rusiya amilinə köklənərək əsaslandırmışdı. Təxminən belə: Ermənistan Cənubi Qafqazda Rusiyaya qarşı mübarizənin qalasıdır və onun müdafiəsinə ehtiyac var. Bu ehtiyacın qarşılanması üçün isə ölkənin Qarabağ avantürasına dəstək göstərilməlidir.

Onu da bildirək ki, bu şəxs 2010-cu ildə diplomat Metyu Brayzanın ABŞ-ın ölkəmizdəki səfiri postunu tutmasına qarşı çıxmışdı. Buna səbəb Brayzanın türk əsilli Zeyno Baranla evliliyi idi. O, hesab edirdi ki, həyat yoldaşı türk olan şəxs Azərbaycanda Ermənistana qarşı daha aktiv mövqe tutacaq.

Əlqərəz, söhbət Birləşmiş Ştatların siyasi dairələrində "Süngər Bob" kimi tanınan keçmiş senator Bob Robert Menendezdən gedir. O Menendezdən ki bir neçə gün əvvəl Nyu-York Məhkəməsinin yekun qərarı ilə 11 il müddətinə azadlıqdan məhrum edildi. Bobun erməni əsilli həyat yoldaşı Nadin Menendez (Arslanyan) də cəzasız qalmadı. İkinci ömrünün 4,5 ilini dəmir barmaqlıqlar arasında keçirəcək.

Bəli, ABŞ Konqresində Ermənistanın və ermənilərin əsas himayədarı olan Bob Menendez Birləşmiş Ştatların cinayət qanunvericiliyinin 16 maddəsi üzrə təqsirli bilinib. Həm ona, həm də həyat yoldaşı Nadinə qarşı irəli sürülmüş ittihamlarda başlıca predmet rüşvət və korrupsiyadır. Bob 18 il ərzində Misirin, Qətərin və erməni dairələrinin maraqlarını rüşvət qarşılığında lobbiləşdiribmiş. Nadin Arslanyan isə korrupsiya sxemlərində vasitəçilik edirmiş. Məhkəmə onun "Livanda keçirdiyi çətin uşaqlıq illərini" nəzərə alsa da, cəzasını çox da yüngülləşdirməyib.

Prokurorlar Menendezin Misirə gizli məlumatlar ötürməsi, eləcə də Misir hökuməti adından təbliğat aparmasını da vəzifə səlahiyyətlərindən ciddi sui-istifadə halı kimi təsnifatlandırıblar. Menendezin cinayət işini nadir hadisə kimi dəyərləndirilən prokurorlar fikirlərini belə əsaslandırıblar ki, eks-senatorun "sayəsində" ABŞ-da qanunverici orqanın ən yüksək səviyyəsində ölkənin xarici işlər və hüquq-mühafizə sahəsindəki suverenliyini korlamaq cəhdi qeydə alınıb.

Heç şübhəsiz, Menendezlərin iflası ABŞ-dakı erməni lobbisinə olduqca böyük zərbədir. Erməni siyasilərin və ekspertlərin fikri belədir. Onlar bildirirlər ki, lobbi tədricən zəifləyir. Yəni əvvəllər ABŞ ilə Azərbaycan arasında hərbi əməkdaşlığı məhdudlaşdıra bilirdilərsə, indi bu, tam mümkünsüzdür. Erməni siyasilər, eyni zamanda bildirirlər ki, Vaşinqton strateji seçim kimi Bakıya üstünlük verdiyindən, erməni maraqlarının müdafiəsi ABŞ-ın Cənubi Qafqazdakı yeni məqsədləri ilə ziddiyyət təşkil edir. Əlbəttə, bütün bunlar daha çox siyasi ritorikadır.

***(ardı 11-ci səhifədə)***

**Ermənistanın keçmiş müdafiə naziri Seyran Ohanyan yenə sərsəmləyib. O Ohanyan ki Azərbaycan xalqına qarşı olmazın qəddarlıqlar törədib. O Seyran ki İrəvanda yox, Bakıda digər erməni hərbi cinayətkarlar kimi, müttəhimlər kürsüsündə oturmalıdır.**

# Ohanyan, oha!

## *Ermənistanın keçmiş müdafiə nazirinin "tövlə təfəkkürü"*




Əlbəttə, S.Ohanyan müxalifəti təmsil edir və öz ölkəsində hakimiyyət dəyişikliyindən söz açması, müəyyən mənada, təbii qarşılanmalıdır. Məsələn, o, əks-qütbün baş nazir Nikol Paşinyanla mübarizədəki hansısa siyasi vasitələri barədə danışsa, problem yoxdur. Hərçənd, Ohanyanda belə bir potensial tam istisnadır. Onun potensialının nəyə çatdığını bildirdik. Yazımızın sonunda isə Ermənistan hakimiyyətinin bu məxluq barədə hansı tədbiri görməli olduğunu vurğulayacağıq.

Hələlik Ohanyanın nəyi sərsəmlədiyinə diqqət yetirəcəyik. Amma əvvəlcə Prezident İlham Əliyevin avqustun 27-də Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalına müsahibəsində vurğuladığı bir məqamı diqqətə çatdıraq: "Vaşinqtonda imzalanan sənədin əhəmiyyəti ondan ibarətdir ki, hər iki tərəf bir-birinin ərazi bütövlüyünü tanıyır və gələcək təmaslarını beynəlxalq hüququn bu fundamental tezisi əsasında planlaşdıracaq. Əgər onlar bizim ərazi bütövlüyümüzü tanımaqdan imtina etsələr, biz də onların ərazi bütövlüyünü tanımaqdan imtina edəcəyik. Burada kim qazanacaq, kim uduzacaq? Məncə, bu, ritorik sualdır. Ona görə hesab edirəm ki, Ermənistanın istənilən gələcək hökumətində kifayət qədər müdriklik, ağlabatan yanaşma olacaq ki, Vaşinqtonda razılaşdığımızı şübhə altına almasın. Bir daha qeyd edirəm ki, bu, iki dövlət arasında razılaşmadır. Bu, Paşinyan ilə mənim razılaşmamız deyil".

Bəli, keçmiş müdafiə naziri hazırkı erməni hökumətinin Azərbaycanla apardığı sülh danışıqlarına və iki ölkə arasında əldə edilmiş razılaşmalara qarşı olduğunu bildirib. "Ermənistanda hakimiyyət dəyişikliyindən sonra sülh müqaviləsi ilə bağlı danışıqlar yenidən aparılacaq", - deyən Ohanyanın sülh danışıqları barədə hansı cılız təsəvvürə malik olduğunu bilmək üçün 2018-ci ilədək Ermənistanın Azərbaycanla normallaşma prosesində tutduğu manipulyativ yola nəzər salmaq kifayətdir.

Əlqərəz, nəzərə alsaq ki, Ohanyan müxalifətdədir və onun təmsil olunduğu cinah Ermənistanda hakimiyyətə gəlməyi məqsəd seçib, bir anlıq bunun baş verəcəyi təqdirdə yaranacaq durumu təsəvvürə gətirək. Onu da düşünək ki, Ermənistandakı müxalif kəsimin təmsilçilərinin düşüncələri Ohanyanın düşüncəsindən heç nə ilə fərqlənmir. Onlar hələ də "Artsax", "Artsax" deyərək bağırırlar. Bu bağırtı isə Azərbaycana qarşı ərazi iddiasıdır.

Deməli, adamlarda müdrikliyin heç "m" hərfi də yoxdur. Ağlabatan yanaşma da həmçinin. Amma məsəl var ki, it arabanın kölgəsində yatır, elə bilir öz kölgəsidir. Ermənistandakı parabeyinlərin yanaşmaları da budur. Onlar Azərbaycan üzərində üstünlüyə yiyələnməyin yeganə yolunu Rusiyaya sığınmaqda görürlər. Heç şübhəsiz, Birinci Qarabağ müharibəsində əldə etdikləri üstünlüyün dadı damaqlarında qalıb. O qədər qalıb ki, İkinci Qarabağ müharibəsində Ermənistanın üzləşdiyi rəzil durumu yaddan çıxarıblar.

Rəzillikdən söz düşmüşkən, elə Ohanyanın özünü götürək. Bu məxluq, guya ki, Şuşanı müdafiə edəcəkdi. Azərbaycan əsgəri şəhərə daxil olar-olmaz yaralı cəmdəyini görürərək dabanına tüpürüb elə qaçdı ki, izi-tozu da görünmədi. Üstəlik, onun adı ilə adlandırılmış, keçilməzliyi iddia edilən, az qala, Majino xəttinə bənzədilən bir xətt də var idi ki, Silahlı Qüvvələrimiz onu bir həmlədəcə yerlə-yeksan etdilər.

Digər tərəfdən, Ohanyan və onun kimi əbləhlər bilməlidirlər ki, hazırkı sülh sazişinin hansısa alternativ formulu ola bilməz. Çünki Ermənistan iqtidarı indiyədək ən müxtəlif "formulları" sınamaq və tətbiq etmək istəyib, ancaq heç nəyə müyəssər ola bilməyib. Əksinə, mövcud istiqamətdəki bütün cəhdlər İrəvan üçün daha ağır şərtlərin meydana çıxmasına şərait yaradıb.

Məsələn, 44 günlük müharibədən sonra Qarabağda ermənilər qalmışdılar. Paşinyan administrasiyası müxtəlif əcnəbi platformalarda onlar üçün beynəlxalq təminat məsələsini qaldırmışdı. Bu, dolayısıyla Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini şübhə altına almaq idi. Üstəlik, Paşinyan iqtidarı Qarabağdakı keçmiş separatçı rejimi saxlamaq yolunda da cəhdlər göstərmişdi. Yekunda Silahlı Qüvvələrimiz 2023-cü ilin sentyabrında uğurlu antiterror tədbirləri həyata keçirdilər və bundan sonra Qarabağda erməni mövcudiyyəti səhifəsi tarixin arxivinə göndərildi. Halbuki, başqa yol seçilə bilərdi.

Əlbəttə, Azərbaycan antiterror tədbirlərindən sonra da Qarabağdakı erməni əhalinin qalıb bölgədə yaşaya biləcəyini açıqladı və bunun üçün təminat da verdi. Amma erməni iqtidarı razılaşmadı. Paşinyan və komandasının həmin əhalinin beynəlxalq təminat altında geri qayıdışı məsələsini qabartması isə fayda vermədi.

O zaman suallar yaranır: Görəsən, Ohanyan necə inana bilir ki, müxalifət hakimiyyətə gəldikdən sonra sülh müqaviləsini fərqli tərzdə tərtib edəcək? Bəlkə o, hesab edir ki, Rusiya 1991-1993-cü illərdəki kimi Azərbaycan torpaqlarının işğalında Ermənistana kömək edəcək? Bəlkə düşünür ki, Ermənistan keçmişdə olduğutək beynəlxalq dəstək qazanacaq?

Haşiyə çıxaq ki, Ermənistan parlamentinin sədri Alen Simonyan sentyabrın 11-də jurnalistlərə açıqlamasında hazırda rəhbərlik etdiyi qurumda müxalifətin olmadığını vurğulamışdı. O, məsxərə edərək bildirmişdi ki, Milli Assambleyada yalnız gələcək parlamentdə özünə yer axtaran ayrı-ayrı siyasətçilər var: "Milli Məclisdə müxalifət yoxdur. Mən hesab edirəm ki, parlamentdənkənar müxalifət mövcuddur və ümid edirəm ki, onların çoxu qarşıdakı seçkilərdə görünəcək. Onlar parlamentə daxil olacaqlar ki, nəhayət, orada da bir müxalifət olsun".

Sonda bunu da bildirək. Azərbaycanda xüsusən iribuynuzlu mal-qaranı ipə-sapa yatırtmaq üçün işlədilən bir ifadə var - "oha". İndi hakimiyyətə gəlib, Azərbaycanla fərqli sülh müqaviləsi xəyalından dəm vuran Ohanyan da həmin ifadə ilə müraciət edilməli biridir. O da adını müxalifətçi qoyan, Ermənistan parlamentində boş yerə kreslo kirlədən, əsl yeri heç tövlə də olmayan məxluqlardandır. Amma belələrinin mövcudluğuna görə Ermənistanın hazırkı iqtidarı da məsuliyyət daşıyır. Çünki Ohanyan kimilər hər çıxışları ilə erməni cəmiyyətini fərqli səmtə sürükləməyə, onu sülhdən yayındırmağa və zombiləşdirməyə çalışırlar.

Daha yaxşı olar ki, rəsmi İrəvan özündə bu cür cinayətkar ünsürləri Azərbaycana təhvil vermək cəsarətini tapsın. Nəzərə alsın ki, S.Ohanyan 1990-cı illərdə ölkəmizin ərazilərinin işğalının və bu zaman baş vermiş saysız hərbi qəddarlıq əməllərinin müəlliflərindən və həmin əməlləri həyata keçirənlərdən biridir. Onun barəsində Azərbaycanda cinayət işinin açıldığını da həmçinin.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Prezident İlham Əliyevin üçtərəfli əməkdaşlıq platformaları



## VI MƏQALƏ

### Genişlənən nüfuz məkanı

Bu mövzuda V məqalənin son iki tezisini xatırlatmaq istərdik. Birincisi, "Azərbaycan regional və regionlararası miqyaslarda təşəbbüs etdiyi əməkdaşlıq üçbucaqlarının bir-birini tamamlaması sayəsində vahid geosiyasi əməkdaşlıq məkanı formalaşdıra bilmişdir. Həmin məkanın cəzbedici coğrafiyası Bakıdır, əməkdaşlığı motiv edən məkanı isə bütövlükdə Azərbaycan Respublikasıdır".

İkincisi, "Azərbaycanın strateji paytaxt kimi özəlliyi nüfuzunu və təsir dairəsini dinamik artırmaqla bağlıdır. Bu prosesdə təkanverici rolu nüfuzun təsir səviyyəsini yüksəltməklə düz mütənasib olması oynayır. Yəni öncə konkret istiqamətlər üzrə Azərbaycanın təsiri artır və bunun təməlində dövlətin geosiyasi nüfuzu yeni səviyyəyə yüksəlir. Yekun olaraq bu prosesdə "qazan-qazan" prinsipi aparıcı rol oynayır. Bu özəllik də Azərbaycanın dayanıqlı və davamlı strateji paytaxt statusunda qalmasını təmin edir".

Bu tezisləri politoloji ümumiləşdirsək, çox maraqlı mənzərə alınır. Belə ki, Prezident İlham Əliyevin təşəbbüs etdiyi üçtərəfli əməkdaşlıq formatlarında Azərbaycan strateji paytaxt kimi digər üzvlərlə birgə vahid strateji məkan yarada bilir. Bu, geosiyasi aspektdə əməkdaşlıq formatının daxili oxunu təşkil edir.

Eyni zamanda, Azərbaycan əməkdaşlığın geosiyasi qütbü keyfiyyətində üzvlərə "yumşaq təsir" vasitəsilə nüfuzunu dinamik artıran "geosiyasi şüa" yaradır. Hər iki özəllik sintezdə Azərbaycana bütövlükdə davamlı geosiyasi platforma formalaşdırmaq imkanı meydana gətirir ki, kənar təsirlərə dayanıqlı olan əməkdaşlıq sahəsi yaranır.

Bununla geosiyasətdə "Əliyev üçbucağı"nın ümumi mənzərəsi aydınlaşır. Onun əsas əlamətlərindən biri "yumşaq təsirlər" vasitəsilə əməkdaşlıq sahəsinin genişlənməsi və eyni zamanda, Azərbaycanın əməkdaşlığın strateji paytaxtı keyfiyyətində nüfuzunun artmasıdır. Bu prosesin maraqlı özəllikləri son aylar daha geniş geosiyasi məkanda özünü göstərmişdir.

### 2 geosiyasi qütbün orta gücü

Bu, ümumiyyətlə, müasir geosiyasətdə maraqlı nəzəri və praktiki fenomendir. Məsələ Azərbaycanın regional lider statusunda dünyanın iki böyük geosiyasi gücü hesab olunan ABŞ ilə Çin münasibətlərinə təsir edə biləcək birləşdirici rol oynamağa başlaması ilə əlaqəlidir. Biz heç də bu prosesin son nəticəsi haqqında birmənalı proqnoz vermək fikrində deyilik. Çünki indi qlobal səviyyədə geosiyasi proseslərin vahid məntiqi gedişatı yoxdur və çoxlu sayda gözlənilməz situasiyaslar ortaya çıxır. Burada bizi Azərbaycanın qlobal miqyasda atdığı addımların mahiyyətinin fəlsəfi izahı maraqlandırır. Yəni Bakı öz təşəbbüsləri ilə hansı məzmunda geosiyasi proseslərə təkan verir?

Suala iki səviyyədə cavab axtarışları bizcə, doğru olardı. Onlardan biri rəsmi Bakının "3+3" formatını reaktuallaşdırması ilə bağlıdır. Həmin formatın təməl platforması 3 Cənubi Qafqaz dövlətinin əməkdaşlıq perspektividir. Bu anlamda əməkdaşlıq platformasının mərkəzi motivəedici əməkdaşlıq gücü bu region dövlətləridir. Həmin özül üzərində regional əməkdaşlıq və təhlükəsizliyin sığortası kimi Rusiya, Türkiyə və İranın əməkdaşlıq "üçbucağı"nı genişləndirmələri olmalıdır. Bunun üçün üç böyük dövlət təhlükəsizliyin təmini əsasında əməkdaşlığı daha geniş geosiyasi miqyasa proyeksiya etmək funksiyasını yerinə yetirməlidir. Belə bir transformasiyanın əsas kommunikativ "mediatoru" Zəngəzur Dəhlizi ola bilər. Buna alternativ yoxdur. Həmin məqamda "3+3" formatı ilə Orta Dəhliz kommunikasiya xətti vahid geosiyasi məkana daxil olurlar. O məkanın bütövlüyünün stimulverici faktoru Azərbaycanın roludur.

Deməli, təməlində "Əliyev üçbucağı" əməkdaşlıq platformasının dayandığı "3+3" maraqlı formada qlobal miqyasda geosiyasi qütblərin münasibətlərinə təsir edə biləcək "yumşaq güc"ə transformasiya olunmaq şansına malikdir. Artıq nəzəri olaraq bunun iki əlaməti haqqında danışmaq olar.

### Geosiyasi qütbə "aparan sülh"

Əlbəttə, bu kontekstdə "aparan sülh" ifadəsi metaforadır. Mənası Azərbaycan Respublikası dövlətinin sülhsevər konsepsiyasının əsaslı və perspektivli olması sayəsində dünya miqyasında getdikcə daha çox təsirə malik ölkəyə çevrilməsi ilə bağlıdır. Həmin aspektdə Azərbaycan orta güc olaraq xüsusi identikliyə malikdir. Yəni Azərbaycan orta güc səviyyəsində olmasa idi, indiki uğurlara çata bilməzdi. Ölkəmizin orta güc kimi formalaşmasında isə əməkdaşlıq formatlarının rolu böyük olmuşdur. Azərbaycanın da orta güc kimi özəllikləri buradan qaynaqlanır.

Ermənistanla münasibətlərin normallaşması prosesinin Vaşinqton Sazişinə aparması vurğuladığımız məntiqi gedişat prizmasında izahediləndir. Azərbaycan davamlı olaraq hər qonşusu ilə əməkdaşlığa, dialoqa və təhlükəsizliyin təmininə can atdığını illərlə göstərdi. Bakının bu sülhsevərliyi indiki sonucu verdi. ABŞ-da paraflanan sənəd bu baxımdan uzun sürən aktiv fəaliyyətin birbaşa nəticəsidir. Həmin kontekstdə Prezident İlham Əliyevin Vaşinqtonda jurnalistlərə verdiyi müsahibədə ifadə etdiyti aşağıdakı fikirlər əsas məqamlara aydınlıq gətirir.

Azərbaycan Prezidenti demişdir: "...bu gün 907-ci düzəliş əsasən siyasi və rəmzi məna daşıyır. Bu, artıq ədalətsizliyin artıq aradan qalxdığını göstərir. Beləliklə, bu, Prezidentin adından çox mühüm siyasi jest idi. Eyni zamanda, bu gün onun ofisində bu sənədlə bərabər, Strateji Tərəfdaşlıq haqqında Xartiyanın hazırlanması üçün Strateji İşçi Qrupunun yaradılması haqqında sənədi də imzaladıq. Bu iki mühüm hadisə bu gün baş verib. Buna görə də mən avqustun 8-ni dövlətlərarası münasibətlərimizdə tarixi gün hesab edirəm və bu da bütün regiona çox müsbət təsir göstərəcək. Şübhəsiz ki, bu gün Azərbaycan ilə Ermənistan arasında baş verənlər Cənubi Qafqazda sülh, sabitlik və firavanlıq istəyənlərin hamısı üçün, bütün region üçün çox əhəmiyyətli olacaqdır".

Deməli, Azərbaycanla ABŞ arasında əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi bir tərəfdən iki dövlətin münasibətlərində tarixi dönüşdür, digər tərəfdən isə regional və qlobal təsirləri olacaq hadisədir. Bu prizmada Azərbaycanın Çin istiqamətində fəaliyyəti diqqətləri çox çəkir.

Çin hazırda dünyanın ikinci ən güclü geosiyasi qütbü hesab olunur. Bakının bu istiqamətdə əməkdaşlıqla bağlı həyata keçirdiyi formatlar praktiki səmərəsini verir. Onlar həm ikitərəfli, həm də Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində irəli sürülür. Bununla yanaşı, ŞƏT formatından da Bakı imtina etmir. Bu barədə Azərbaycan Prezidenti "ŞƏT+" formatında çıxışı zamanı mühüm tezislər irəli sürmüşdür. Dövlət başçısı demişdir: "Azərbaycan Avrasiyanın nəqliyyat-logistika mərkəzlərindən biridir. Biz beynəlxalq nəqliyyat dəhlizlərini fəal şəkildə inkişaf etdirir, müasir infrastruktur yaradırıq. Şərq-Qərb və Şimal-Cənub dəhlizləri yeni iqtisadi və nəqliyyat perspektivləri yaradıb.

Orta Dəhliz Azərbaycan vasitəsilə Çin və Mərkəzi Asiyanı Avropa ilə birləşdirən etibarlı və təhlükəsiz marşrutdur. 2022-ci ildən bəri Orta Dəhliz üzrə Azərbaycan vasitəsilə yükdaşımaların həcmi təxminən 90 faiz artıb. Yüklərin bu dəhliz üzrə keçid müddəti əhəmiyyətli dərəcədə azalıb.

Əminəm ki, yaxın gələcəkdə Zəngəzur dəhlizi həm Orta Dəhlizin, həm də Şimal-Cənub dəhlizinin növbəti mühüm seqmentinə çevriləcək, sülhü, çoxtərəfli tərəfdaşlığı möhkəmləndirəcək və Azərbaycan sərhədinin şərqində, qərbində, şimalında və cənubunda yerləşən yaxın və uzaq qonşularımıza fayda gətirəcək".

### Əməkdaşlıq və ortaq maraqlar

Azərbaycanın üçtərəfli əməkdaşlıq platformalarından geosiyasi qütblər miqyasında əməkdaşlığa töhfə verməsi dövlətçilik və yeni düzənin formalaşması baxımından mühüm hadisədir. Əgər 30 il bundan öncəki vəziyyətə baxsaq, bu tezisin geosiyasi əhəmiyyətini aydın görə bilərik. O dönəmdə Heydər Əliyevdən başqa hansı siyasi liderin Azərbaycan dövlətinin bu möhtəşəm inkişafına inandığını deyə bilmərik. Lakin faktdır ki, Ulu öndərin liderliyi əsasında Azərbaycanın müstəqil dövlətçiliyi davamlı olaraq həm möhkəmləndi, həm də səmərəli əməkdaşlıq platformaları sayəsində dövlətin təsir dairəsini pillə-pillə genişləndirdi.

Bu zaman Azərbaycan hər yeni səviyyədə yeni əməkdaşlıq sahəsində digər dövlətlərlə ortaq maraqları uyğunlaşdıra bildi. Bizcə, bu məqam Prezident İlham Əliyevin əməkdaşlıq platformalarına xas olan çox əhəmiyyətli faktordur. Zəngəzur dəhlizi nümunəsində həmin özəlliyin vacibliyini görə bilərik. Prezident İlham Əliyevin yuxarıda gətirdiyimiz fikirləri onu ifadə edir ki, Zəngəzur dəhlizini Orta və Şimal-Cənub dəhlizlərinin "mühüm seqmenti" kimi qəbul etmək gərəkdir.

Bu keyfiyyətdə Zəngəzur dəhlizi, birincisi, sülhü möhkəmləndirəcək, ikincisi, çoxtərəfli əməkdaşlığı inkişaf etdirəcək, üçüncüsü, Azərbaycanın bütün istiqamətlərdə yaxın və uzaq qonşularına fayda verəcək. Sülh, çoxtərəfli əməkdaşlıq və qonşulara fayda yalnız ortaq maraqların mövcud olduğu şəraitdə bir-birini tamamlaya bilər. Və Zəngəzur dəhlizi çoxlu sayda dövlətin ortaq maraqlarının təmin edildiyi "mühüm seqment"dir.

### Strateji prioritetlərin uyğunlaşdırılması

Azərbaycanın əməkdaşlıq platformalarının fərqli cəhətlərindən biri çoxlu sayda dövlətlərlə strateji prioritetləri uyğunlaşdırmağın xüsusi yer tutmasıdır. ABŞ və Çindən sonra Böyük Britaniyanın da Azərbaycanla strateji tərəfdaş səviyyəsində münasibət qurmağa başlaması bu baxımdan diqqətləri çox çəkir. Dövlət naziri Stiven Dautinin Bakıya səfərdən sonra rəsmi Londonun Azərbaycanı Cənubi Qafqazda Böyük Britaniyanın ən mühüm tərəfdaşlarından biri bəyan etməsi adi hal deyil. Məlumdur ki, Böyük Britaniya Avropa İttifaqını tərk etmişdir. Belə alınır ki, yalnız Aİ üzvləri deyil, bütövlükdə Avropanın güclü dövlətləri (Fransa istisna olmaqla) Azərbaycanla strateji tərəfdaşlıqda maraqlıdırlar.

Bunlardan qlobal miqyasda Azərbaycanın əməkdaşlıq imkanları kontekstində maraqlı nəticə alınır: Azərbaycan dünyanın üç böyük geosiyasi güc mərkəzi ilə strateji prioritetləri uyğunlaşdırmağa imkan verən münasibətlər sistemini qurmuşdur. Bu artıq qlobal miqyasda Azərbaycanın strateji əməkdaşlıq qurması prosesində yeni dönəmin başlaması deməkdir. Onun meydana gəlməsi üç mərhələdən keçmişdir.

Birinci mərhələdə Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməklə Cənubi Qafqaz miqyasında əməkdaşlıq platformalarının qurucusu kimi özünü təsdiq etmişdir. Bu zaman rəsmi Bakı başlıca olaraq regional miqyasda ikitərəfli və üçtərəfli əməkdaşlıq formatlarını reallaşdırmışdır.

İkinci mərhələdə Azərbaycan əsas olaraq üçtərəfli əməkdaşlıq platformasını regionlararası miqyasa proyeksiya etmək üçün regional təşkilatların imkanlarından yararlanmışdır. Nəticədə Azərbaycan regionlararası miqyasda da çoxlu sayda dövlətin əməkdaşlığını təşkil edən ölkə səviyyəsinə yüksəlmişdir. Bu keyfiyyətdə Azərbaycan özünəməxsus orta gücə çevrilmək imkanlarını xeyli genişləndirmişdir.

Nəhayət, üçüncü mərhələdə dünyanın böyük geosiyasi gücləri ilə münasibətləri sülhsevərlik və qarşılıqlı faydalı əməkdaşlıq platformasında inkişaf etdirməklə Azərbaycan həm orta güc kimi özünü təsdiq etmiş, həm də məzmunca yeni əməkdaşlıq platforması yaratmışdır.

Başqa sözlə, üçtərəfli əməkdaşlıq formatları şəbəkəsinin formalaşdırılması sayəsində üç geosiyasi qütb – ABŞ, Avropa və Çin arasında münasibətlərin konstruktiv istiqamətə yönəldilməsi müəyyən çizgilər almağa başlamışdır. Şübhə yoxdur ki, Azərbaycan bu istiqamətdə müsbət nəticə verə biləcək səylərini davam etdirəcək.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**Gürcüstanda yerli özünüidarəetmə orqanlarına keçiriləcək seçkilərə cəmi 18 gün qalıb. Bu mühüm siyasi proses ərəfəsində bir daha aydın olur ki, sabitlik, inkişaf və milli maraqlar Gürcüstan vətəndaşı üçün prioritetdir. Bütün dövlət qurumları, Mərkəzi Seçki Komissiyası və digər aidiyyəti strukturlar seçkilərin şəffaf, demokratik və beynəlxalq normalara uyğun şəkildə keçirilməsi üçün ciddi hazırlıq işləri aparır. Artıq 23 beynəlxalq və 11 yerli müşahidəçi təşkilat, eləcə də 16 media qurumu seçki prosesində iştirakını rəsmiləşdirib.**

# Gürcü xalqının seçimi sabitlik və inkişafdır



Bu barədə **Gürcüstanın Mərkəzi Seçki Komissiyasının (MSK) mətbuat katibi Natia İoseliani** məlumat verib. O qeyd edib ki, beynəlxalq təşkilatlar üçün son qeydiyyat tarixi sentyabrın 27-si, yerli müşahidə təşkilatları üçün 24 sentyabr, KİV-lər üçün isə 29 sentyabrdır. Maraqlıdır ki, ATƏT-in Demokratik Təsisatlar və İnsan



Hüquqları Bürosu (DTİHB) seçkilərdə müşahidəçi kimi iştirak etməyəcək. Bununla bağlı DTİHB Gürcüstanın qurumu seçkiyə cəmi bir ay qalmış dəvət etdiyini və bu müddətin lazımi hazırlıq üçün kifayət etmədiyini açıqlayıb.

Seçkiyə hazırlıq prosesi fonunda ölkənin siyasi mühitində radikal müxalifət tərəfindən süni şəkildə gərginlik yaradılması cəhdləri diqqət çəkir. Müxalifətin bir qismi artıq seçkilərdə iştirakdan imtina etdiyini açıqlayıb. Bu isə onların siyasi böhran içində olduğunu, xalqın dəstəyindən məhrum qaldıqlarını açıq şəkildə göstərir.

Gürcüstanın Baş naziri İrakli Kobaxidze "İmedi" televiziya kanalına verdiyi geniş müsahibəsində müxalifətin destruktiv fəaliyyətini kəskin tənqid edərək bildirib ki, bu qüvvələr nəinki qarşıdakı seçkilərdə, hətta 2028 və 2032-ci illərdə keçiriləcək parlament seçkilərində də uğur qazana bilməyəcəklər. Baş nazirin sözlərinə görə, müxalifətin məğlubiyyətinin əsas səbəbi onların sıralarında milli maraqlara zidd fəaliyyət göstərən, "agent" kimi tanınan şəxslərin olmasıdır.

Baş nazirin mövqeyi aydındır. Onun fikrincə, agent olmaq vətənə xəyanət, xalqa arxa çevirmək və xarici mərkəzlərin sifarişlərini yerinə yetirmək deməkdir. Bu gün Gürcüstanda "Milli Hərəkat" və onun törəmə siyasi qurumları olan "Lelo", "Axali", "Qaxaria" və digərləri cəmiyyətin gözündə artıq əsl mahiyyətlərini ortaya qoyublar. Onların imicdəyişdirmə cəhdləri və ya yeni adlarla siyasi səhnəyə qayıtmaq planları uğursuzluğa məhkumdur. Gürcü xalqı artıq bu maskaların arxasında kimin dayandığını çox yaxşı bilir.

Baş nazir açıq şəkildə bildirib ki, bu gün müxalifət daxilində fəaliyyət göstərənlərin əksəriyyəti ya vaxtilə hakimiyyətdə olmuş şəxslər, ya da indi başqa ad altında eyni niyyətlə hərəkət edənlərdir. Bu onu göstərir ki, müxalifətin yeni ideyası yoxdur, onların tək məqsədi ölkədə qarışıqlıq yaratmaq və xarici maraqlara xidmət etməkdir. Bu bir həqiqətir və seçicilər də bunu çox yaxşı başa düşürlər.

Son zamanlar paytaxt Tbilisidə keçirilən "Vizasız rejimi qoruyaq" adlı mitinq də radikal müxalifətin gərginlik strategiyasının bir parçasıdır. Mitinq zamanı səsləndirilən "Rusiya rejiminə yox", "Avropa ilə birlikdə irəli" kimi şüarların arxasında siyasi manipulyasiya və ictimai rəyə təsir göstərmək cəhdi durur. Mitinqdə Tbilisi meri Kaxa Kaladzenin qərargahı qarşısında təxribat xarakterli aksiyalar keçirilməsi və bunun təşkilatçıları sırasında müxalifət liderləri ilə yanaşı keçmiş prezident Salome Zurabişvilinin də yer alması təsadüfi deyil. İstənilən halda bu cəhdlər sonda uğursuzluğa düçar olacaq. Bununla bağlı Baş nazir əminliklə bildirib ki, bu aksiyalar ölkədə ictimai sabitliyi poza, seçkilərin nəticələrinə təsir göstərə bilməyəcək. Onun sözlərinə görə, bu cür addımlar təkcə Gürcüstanın deyil, Avropa İttifaqının da maraqlarına ziddir.

Bunlara baxmayaraq, təəssüf ki, bəzi xarici dairələr və onların dəstəklədiyi radikal qüvvələr Gürcüstanda sabitliyi pozmağa, ölkədəki siyasi vəziyyəti gərginləşdirməyə çalışırlar. Gürcüstan parlamentinin vitse-spikeri Gia Volski bildirib ki, "kollektiv Vahid Milli Hərəkat" adlanan destruktiv qrup və ona bağlı dairələr xarici kəşfiyyat orqanlarının tapşırıqlarını yerinə yetirirlər. Onların məqsədi ölkənin müstəqilliyinə və suverenliyinə zərbə vurmaq, xalqı təxribatlara sürükləməkdir. Volski bu qüvvələrin ictimai dəstəyi itirdiyini, onların siyasi arenadakı rolu ilə xalqın maraqları arasında kəskin uçurum yarandığını qeyd edib.

Tbilisi meri Kaxa Kaladze hesab edir ki, sentyabrın 8-də qərargah qarşısında baş vermiş insident və digər təxribatların da məqsədi yerli seçkilər öncəsi ölkədə sabitliyi pozmaq olub: "Bu cəhdlərin xüsusi xidmət orqanları tərəfindən idarə olunması və xarici kəşfiyyat orqanlarından maliyyələşdirilməsi isə təkzibolunmaz həqiqədir. Hüquqi dövlətdə radikal çağırışlara və cinayətə təhrik edən davranışlara yer yoxdur. Məhz buna görə də radikal müxalifət nümayəndələrindən biri Levan Xabeişvili barəsində məhkəmə qərarı ilə həbs qətimkan tədbiri seçilib. "Dəyişikliklər üçün Koalisiya"nın liderlərindən biri Elene Xoştariya saxlanılıb. Əminliklə deyə bilərəm ki, Gürcüstana qarşı konspirativ sui-qəsd mövcuddur və burada Xabeişvili kimilər iştirak edir. Onun həbsi də hüququn aliliyinə və qanunun hökmünə verilən önəmin göstəricisidir. Dövlət hüquqa əsaslanaraq öz mövqeyini ortaya qoyur və ictimai təhlükəsizlik üçün zəruri tədbirləri həyata keçirir".

Hakim partiya müxalifətdən fərqli olaraq hesab edir ki, seçki qanunvericiliyində edilən dəyişikliklər, xüsusilə də majoritar sistemdə qalib gəlmək üçün tələb olunan 40 faiz limitin ləğv olunması Gürcüstanın daha ədalətli və çevik seçki modelinə keçidini təmin edir. Bu dəyişikliklər bəzi müxalif qüvvələr tərəfindən sui-istifadə olunmağa çalışılsa da, əslində, seçicinin iradəsinin daha dəqiq əks olunmasına xidmət edir.

**Gürcüstan parlamentinin keçmiş deputatı İsak Novruzov** XQ-yə bildirdi ki, Gürcüstan xalqı artıq yaxşı bilir ki, bu cür radikal qüvvələr ölkəni tərəqqidən yox, xaosdan bəhrələnən bir mühitə sürükləmək istəyir: "Lakin xalq bu oyunlara uymur.



Son aksiyalarda iştirakçıların azlığı, ictimai dəstəyin minimum səviyyəyə enməsi də bunun bariz sübutudur. "Gürcü Arzusu" Partiyası xalqın etimadını qazanmış yeganə siyasi qüvvə kimi seçkilərə hazırlığı yüksək səviyyədə davam etdirir. Seçkilər yaxınlaşdıqca cəmiyyətdə bu partiyaya olan dəstək daha da artır. Rəy sorğuları da hakim partiyanın 65 faizlik reytinqə sahib olduğunu göstərir. Müxalifətdən ən yaxşı halda "Qaxariya Gürcüstan naminə" 10,7 faiz, "Lelo" 10,4 faiz, "Girçi" 5,1 faiz seçicinin dəstəyini ala bilər. Bu rəqəmlər həm də xalqın sabitliyə, dövlətçiliyə və milli maraqlara sədaqətinin göstəricisidir".

Beləliklə, Gürcüstanın gələcəyi qanunun aliliyinə, demokratik prinsiplərə və sabit inkişafa əsaslanır. Bu seçkilər bir daha sübut edəcək ki, xalq yalnız inkişafa, təhlükəsizliyə və milli maraqlara xidmət edən qüvvələrlə yol getmək niyyətindədir. İstənilən destruktiv cəhdlər isə cəmiyyətin ayıq düşüncəsi, dövlətin hüquqi dayaqları və seçicilərin qəti iradəsi qarşısında iflasa uğrayacaq.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Paşinyanın yeni etirafı: Ermənistanın təhlükəsizlik formulu işləmədi

**Dünən İrəvanda "Kompleks təhlükəsizlik və dayanıqlılıq 2025" adlı beynəlxalq konfrans keçirilib. Konfransda baş nazir Nikol Paşinyanın çıxışı zamanı səsləndirdiyi bəzi fikirlər diqqəti cəlb edir. O bildirib ki, təhlükəsizlik gündəliyi nöqteyi-nəzərindən birlik çox vacibdir, lakin biz çox vaxt vacib şəraiti unuduruq.**

Birliyin və onun məqsədinin nə olduğunu aydın və dəqiq başa düşmək lazımdır: "Mümkün reaksiyalar – burada nə anlaşılmazdır, nə müzakirə edilməlidir? Əslində, danışılası məsələlər var, təhlükəsizlik deyəndə nəyi nəzərdə tutduğumuzu, kimi və hansı təhlükəsizliyi nəzərdə tutduğumuzu, hansı parametrlərlə ifadə edildiyini formalaşdırmaq lazımdır. Mənim anlamımda təhlükəsizlik şəxsi zəifliyin azaldılması prosesidir. Deyə bilərik ki, bu, toxunulmazlıq arzusudur, lakin aydındır ki, mütləq toxunulmazlıq mövcud deyil;



hətta Axilles və onun dabanı da toxunulmaz deyildi. Bizim vəzifəmiz mümkün qədər az "dabana" malik olmaq və ya onları maksimum qorumaqdır. Beləliklə, son illərdə zəifliyi azaltmaq anlayışımızda nə isə dəyişibmi və əgər belədirsə, məhz nə? Qeyd etməliyəm ki, təhlükəsizliyin təmin edilməsi və zəifliyimizi azaltmaq anlayışımızda əhəmiyyətli dəyişikliklər baş verib".

Paşinyan deyib ki, rəsmi İrəvan əvvəlki dövrdə zəifliyi azaltmaq üçün əsas alətlərin hərbi-siyasi ittifaqlar və ordu olduğuna inanırdı: "Amma bizim tariximiz bu formulun nə birinci, nə də ikinci punktda işləmədiyini göstərdi. Birinci hissədə üç dəfə nəticə vermədi: əvvəlcə, KTMT Azərbaycanın da onun üçün Ermənistan Respublikası kimi qardaş dövlət olduğunu və Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan etdi. Bizə elə gəlirdi ki, belə təkliflə heç vaxt qarşılaşmamışıq və ya bəlkə də Azərbaycanın ərazi bütövlüyü dedikdə nəyisə ifadə edən müəyyən formullar tapmışıq. KTMT-nin "Azərbaycanın ərazi bütövlüyü" dedikdə hər zaman "Dağlıq Qarabağı" (dırnaq işarəsi bizimdir–S.H.) nəzərdə tutması faktı Rusiya Prezidenti tərəfindən 2020-ci il noyabrın 18-də və dekabrın 17-də "Dağlıq Qarabağ" ərazisinin beynəlxalq hüquq baxımından Azərbaycanın tərkib hissəsi olduğu və həmişə belə hesab edildiyi bəyanatında təsdiqlənib. Başqa sözlə, bu ilkin təhlükəsizlik konsepsiyası, hərbi-siyasi birlik konsepsiyası "Dağlıq Qarabağ" ətrafında baş verən hadisələr kontekstində işləmədi. Hərçənd ki, əgər biz diqqətli olsaydıq, KTMT-dən heç nə çıxmayacağını əvvəldən təxmin edə bilərdik, çünki Ermənistanın Avrasiya İqtisadi İttifaqına qoşulması kontekstində ölkə ictimaiyyəti arasında böyük müzakirələrə səbəb olan çox məlum səhnələr və dialoqlar var idi, lakin zaman keçdikcə maraq azaldı".

Paşinyan qeyd edib ki, ikinci hal 2021-ci ilin mayında, üçüncüsü 2022-ci ilin sentyabrında yaşanıb: "Həmin vaxt Ermənistan Respublikası "öz ərazi bütövlüyünün pozulması" (?) ilə bağlı KTMT-yə müraciət edəndə təşkilat cavab verdi ki, görünür, sərhədlər delimitasiya olunmayıb, buna görə də sual yaranır: Ermənistan Respublikasının ərazisinə müdaxilə edilib, ya yox? Və burada, təbii ki, həll yollarımızın heç biri nəticə vermədi və biz sadə bir sualla üz-üzə qaldıq: KTMT Ermənistan Respublikasının ərazi bütövlüyünü tanıyırmı? Ancaq bu suala cavab verməyə və ya cavab tapmağa belə vaxtımız olmadı. Çünki qəfildən bizim üçün gözlənilmədən başqa, ağlasığmaz görünən sual yarandı: biz öz ərazi bütövlüyümüzü tanıyırıq, ya yox? Burada danışmaq üçün nələrsə var. Əlbəttə, tanıyırıq, ölkə öz ərazi bütövlüyünü necə tanımaya bilər? Bəs bu necə ərazi bütövlüyüdür ki, biz tanıyırıq və KTMT üzrə tərəfdaşlarımızdan tanınmasını gözləyirik?".

* * *

Ermənistan baş nazirinin çıxışının şərhinə keçməzdən əvvəl bildirək ki, "Kompleks təhlükəsizlik və dayanıqlılıq 2025" adlı beynəlxalq konfrans İrəvanda hökumətin təşəbbüsü ilə keçirilib. Bu format ilk dəfədir təşkil olunur və tədbirin əsas məqsədi Ermənistanın yeni təhlükəsizlik konsepsiyası barədə müzakirələr aparmaqdan ibarətdir. Amma onun neçənci dəfə keçirildiyi, müntəzəm xarakter daşıyıb-daşımadığı barədə məlumat tapmaq cəhdlərimiz faydasız qaldı. Çox güman ki, bu, Paşinyanın komandasının siyasi gündəliyinə uyğun olaraq təşkil edilən ilk tədbirlərdən biridir və cari ilin təhlükəsizlik və dayanıqlılıq konsepsiyasına bağlanır.

Paşinyanın çıxışı, əslində, Ermənistanın son illərdə yaşadığı siyasi və hərbi böhranların etirafı kimi yadda qaldı. Paşinyan bir daha göstərdi ki, ölkəsinin təhlükəsizlik gündəliyi uzun müddət yanlış təsəvvürlər üzərində qurulub. O, çıxışında etiraf etdi ki, "təhlükəsizlik" anlayışına yanaşma dəyişib və bu dəyişikliyin səbəbi Ermənistanın ardıcıl məğlubiyyətləri, müttəfiq kimi gördüyü qüvvələrin isə real vəziyyətdə susqun qalmasıdır. Nikolun sözlərinə diqqət yetirsək, görərik ki, o, birinci növbədə təhlükəsizlik anlayışını fərdi zəifliklərin azaldılması ilə izah edir. Bu, metaforik baxımdan müəyyən qədər maraqlı görünür. "Axilles dabanı" misalı ilə o demək istəyir ki, Ermənistanın da zəif nöqtələri var və onları gizlətmək, yaxud qorumaq mümkündür. Lakin Paşinyanın özü də etiraf edir ki, zəifliyi gizlətmək deyil, onu aradan qaldırmaq lazımdır. Ermənistanın bu istiqamətdə uğursuzluqları isə artıq danılmaz həqiqətdir.

Paşinyan açıq şəkildə bildirir ki, əvvəlki dövrlərdə təhlükəsizlik konsepsiyası hərbi-siyasi ittifaqlara və orduya bağlanmışdı. Ermənistan cəmiyyətində illərlə formalaşdırılan inam belə idi ki, KTMT kimi qurumlar onların müdafiəsini təmin edəcək, Rusiya isə hərbi və siyasi dəstək göstərəcək. Amma hadisələrin gedişi bunun əksini sübut etdi. Baş nazir özü deyir ki, bu formul nə birinci, nə də ikinci istiqamətdə işləmədi. Burada xüsusilə maraqlı məqam Paşinyanın KTMT-nin mövqeyini dilə gətirməsidir. O, açıq şəkildə etiraf edir ki, təşkilat Azərbaycanın ərazi bütövlüyünü tanıyıb və bu, Ermənistan üçün gözlənilməz olub. Halbuki, 2020-ci ilin noyabr və dekabr aylarında Rusiya Prezidentinin verdiyi bəyanatlar artıq hər şeyi aydın göstərirdi. Deməli, Ermənistan rəhbərliyi bu siqnalları ya görməzlikdən gəlib, ya da onları ictimaiyyətə fərqli təqdim edib.

Paşinyanın xatırlatdığı 2021-ci ilin may və 2022-ci ilin sentyabr hadisələri də göstərdi ki, KTMT Ermənistan üçün istənilən formatda müdafiə mexanizmi deyil. Ermənistan sərhədlərlə bağlı müraciət etsə də, təşkilat cavabında delimitasiya olunmamış xətlərdən bəhs edib. Bu, əslində, İrəvana ünvanlanan açıq mesaj idi ki, siz öz sərhədlərinizi dəqiqləşdirməmisinizsə, biz necə hərəkət edək? Bu cavabdan sonra Ermənistan cəmiyyətində yaranan məyusluq daha da dərinləşib.

Əslində, Paşinyanın sözləri Ermənistanın təhlükəsizlik siyasətində illərlə davam edən ziddiyyətlərin açıq etirafıdır. Bir tərəfdən "qardaşlıq" və "ittifaq" ritorikası ilə xalqı arxayın salmağa çalışıblar, digər tərəfdən isə ən kritik məqamlarda həmin müttəfiqlərdən heç bir fayda görməyiblər. Bu gün Paşinyan həmin səhvləri boynuna alır və deyir ki, maraqlarımızı qorumaq üçün yeni yanaşmalara ehtiyac var. Lakin burada əsas məsələ başqadır: Ermənistan hökuməti keçmişdəki yanlış konsepsiyalarını yalnız indi etiraf edir. Halbuki, hadisələrin gedişi çoxdan göstərirdi ki, KTMT-nin imkanları formal xarakter daşıyır və heç bir halda Ermənistan uğrunda riskə getməyəcək. Rusiya da öz maraqlarını üstün tutur və Azərbaycanın ərazi bütövlüyü məsələsində mövqeyini gizlətmirdi.

Paşinyanın konfransdakı çıxışı bir daha göstərir ki, Ermənistan rəhbərliyi indi təhlükəsizlik anlayışını daha çox daxili siyasi sabitlik, iqtisadi dayanıqlılıq və diplomatik manevrlərlə bağlamağa çalışır. Başqa sözlə, hərbi-siyasi blokların illüziyası dağılıb. İndi İrəvanın qarşısında yeni sual dayanır: daxili və xarici zəiflikləri necə minimuma endirmək olar? Əslində, Paşinyanın dilindən səslənən "biz öz ərazi bütövlüyümüzü tanıyırıqmı?" sualı Ermənistan cəmiyyətinə ünvanlanmış sarsıdıcı bir etirafdır. Çünki bu sualın cavabını Ermənistan özü illərlə qeyri-müəyyən saxlayıb. Nəticədə indi həm müttəfiqlər, həm də region ölkələri İrəvana etibar etmir. Bu gün Ermənistanın təhlükəsizlik konsepsiyası köklü şəkildə dəyişmək məcburiyyətindədir. Əgər Paşinyanın dediyi kimi, "daban"ları qorumaq lazımdırsa, o zaman bu zəif nöqtələri illüziyalarla deyil, real addımlarla örtmək gərəkdir. Əks halda, Ermənistan yenə də siyasi və hərbi baxımdan müdafiəsiz qalacaq.

*Səxavət HƏMİD*
*XQ*

# Menendez "öldü", növbə Avropanın "süngər bob"larınındır

**(əvvəli 9-cu səhifədə)**

Əslində, hələ 2022-ci ildə ABŞ-ın hüquq-mühafizə orqanlarının təmsilçiləri tərəfindən Menendezin və ailə üzvlərinin evlərində axtarışlar aparılmışdı. Məhkəmə sənədlərində bildirilir ki, həmin vaxt nağd pul, qızıl külçələri və müxtəlif sənədlər ələ keçirilmiş və əsas sübut paketinə daxil edilmişdi. Konkretliyə gəlincə, polis Menendezlərin evindəki rəflərdə və paltarlarının ciblərində 480 min dollar nağd pul, Nadina Arslanyanın seyfində isə daha 70 min dollar aşkarlamışdı. Dəyəri təxminən 100 min dollarlıq qızıl külçələr və dəbdəbəli əşyalar da öz yerində. Müstəntiqlərin fikrincə, Nadina Arslanyan iş adamlarının köməyi ilə saxta yolla yüksək maaşlı işə düzəldilib və onun həmin iş yerinə getmədiyi də aşkarlanıb.

Bundan başqa, Birləşmiş Ştatlar Prokurorluğu bir neçə iş adamını əsas dəlil mənbəyi kimi məhkəməyə çağırıb. İş adamları Hana və Daibes ifadələrində Menendez və onun həyat yoldaşına yüz minlərlə dollar rüşvət, o cümlədən nağd pul, qızıl külçələr, Nadinenin uydurma sahibkarlığına dair saxta çeklər, dəbdəbəli kabriolet və s. verdiklərini etiraf ediblər. Onların ifadələri Menendezin ödəniş qarşılığında müəyyən hərəkətlər etdiyinə dair iddianı təsdiqləyib. Prokurorluq, həmçinin elektron poçt, mesajlaşma və maliyyə sənədlərini də sübut kimi təqdim edib.

Qeyd edək ki, Menendezin ABŞ Senatında əvvəldə haqqında söz açdığımız "Qarabağdakı böhranın qiymətləndirilməsi" mövzusunda təşkil etdiyi dinləmələrdən cəmi bir həftə sonra, yəni 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Qarabağda uğurlu antiterror tədbirləri təşkil etdi. Nəticədə ölkəmiz özünün ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi. Sentyabrın 24-də isə Birləşmiş Ştatların Ədliyyə Nazirliyi ermənipərəst senator barəsində məlumat yaydı. Məlumatda bildirildi ki, 2006-cı ildən Nyu-Cersi ştatını Senatda təmsil edən Bob Menendez Misir hakimiyyətinin xeyrinə göstərdiyi köməkliyin müqabilində rüşvət alıb.

Qeyd edək ki, Menendez bundan əvvəl də korrupsiyada ittiham olunub. Məsələn, 2015-ci ildə o, 1 milyon dollar müqabilində Floridada yaşayan oftalmoloq Salomon Melgenin əcnəbi qız rəfiqələri üçün viza alıb. Həmin vaxt bu, mətbuatda geniş rezonans doğursa da, senator cəzadan yaxa qurtarmağı bacarmışdı. O zaman çoxları belə iddia edirdi ki, Menendezi həbsdən "güclü əllər" qoruyub. Çox güman, senatoru 2012-ci ildə də dəmirbarmaqlıqlar arasında düşməkdən məhz həmin əllər qorumuşdu. Belə ki, o, ABŞ Senatına yenidən seçilməzdən əvvəl Dominikan Respublikasında iki azyaşlı fahişə ilə cinsi münasibətdə olmaqda ittiham edilsə də, dəlil çatışmazlığına görə senatora qarşı rəsmi ittiham irəli sürülməmişdi.

Sonda onu da deyək ki, B.Menendezin azadlıqdan məhrum edilməsi ilə bağlı yekun qərarı doğuran amillər barədə çox söz açmaq, daha çox fikirlər və faktlar diqqətə çatdırmaq mümkündür. Amma buna lüzum görmür, əvvəldə vurğuladığımız məqama qayıdırıq. Həqiqətən, Menendezin sıradan çıxması ABŞ-dakı erməni lobbi və diaspor təşkiları üçün böyük zərbədir, bu, öz yerində. Eyni zamanda onu da bildirməliyik ki, Nyu-York Məhkəməsinin yekun qərarı bir presedentdir. Çünki Avropadakı erməni lobbi və diaspor təşkilatlarının, belə demək mümkünsə, öz menendezləri var və onlar da eyni korrupsiya və rüşvət sxemi üzrə hərəkət edir, indinin özündə də "erməni soyqırımı" kimi saxta ritorikalarla varlanmağa, sərvət toplamağa cəhd göstərirlər. Hesab edirik ki, "Süngər Bob"dan sonra dəmir barmaqlıqlar arasında getmək növbəsi məhz onlarındır.

*Ə.RÜSTƏMOV*
*XQ*

**Ermənistanın uzun illər apardığı işğalçılıq siyasəti təkcə Azərbaycanla münasibətlərə deyil, bütövlükdə regionun siyasi ab-havasına mənfi təsir göstərib. Bundan ən çox zərər çəkən tərəf elə Ermənistanın özü olub. "Böyük Ermənistan" kimi xülyalara qapılan və türklərə qarşı nifrət ritorikasından əl çəkməyən hay siyasi dairələri uzun müddət yalnız qonşuların torpaqlarını işğal etmək barədə düşünüblər. Bu yanaşma nəticəsində Ermənistan qonşuları ilə normal münasibətlər qura bilməyib, regional iqtisadi layihələrdən kənarda qalıb və inkişaf imkanlarını itirib.**

# İrəvan üçün sülhün alternativi yoxdur

*Ermənistan–Türkiyə əməkdaşlığı Azərbaycanla sülhə bağlıdır*




1993-cü ildə qardaş Türkiyə işğalçı siyasətə etiraz əlaməti olaraq Ermənistanla sərhədlərini bağladı. Ermənistan silahlı birləşmələri Kəlbəcəri işğal etdikdən sonra, 1993-cü il aprelin 3-də rəsmi Ankara bu ölkə ilə bütün sərhədləri bağlandığını, dəmir yolu və aviasiya əlaqələrinin, eləcə də tranzit ticarət marşrutlarının dayandırıldığını bəyan etdi. Bundan sonra qarşılıqlı münasibətlər yeni mərhələyə keçid etdi. Ermənistanın "soyqırımın tanınması" yönündə təşəbbüsləri, Türkiyənin isə "birgə komissiya yaradılması" təklifi bu dövrün əsas müzakirə mövzusuna çevrildi. Sonrakı dövrlərdə iki ölkə arasında münasibətlərin yaxşılaşmasını istəyən ABŞ administrasiyası (Corc Buşun prezidentliyi dövründə) Türkiyə və Ermənistanın xarici işlər nazirlərinin beynəlxalq platformalarda görüşməsini təmin etdi. Amma bu görüşlərin heç biri gözlənilən nəticəni vermədi.

Hazırkı mərhələdə Ermənistan rəhbərliyi başa düşür ki, sülh sazişi həm Azərbaycanın, həm də Ermənistanın maraqlarına xidmət edir. Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ani Badalyan "Armenpress" agentliyinə açıqlamasında bildirib ki, Azərbaycan–Ermənistan sülh sazişinin imzalanması mümkün qədər qısa müddətdə baş tutmalıdır və bu, mövcud sülhün institusionallaşdırılması yolunda ciddi addım olacaq. Onun sözlərinə görə, bu il martın 13-də sazişin mətninin razılaşdırılması barədə açıqlama verildikdə Ermənistan tərəfi sənədi qısa müddətdə imzalamağa hazır olduğunu bildirmişdi. Avqustun 8-də sazişin paraflanması isə bu mövqeyi bir daha təsdiqləyib və beynəlxalq miqyasda geniş dəstək qazanıb. Deməli, Ermənistan artıq anlayır ki, sülh müqaviləsi imzalanmadan ölkənin qarşısında yeni inkişaf imkanları açılmayacaq.

Məsələnin diqqətçəkən tərəfi odur ki, Ermənistan–Türkiyə münasibətləri birbaşa Azərbaycanla sülhün imzalanmasına bağlıdır. Qeyd etmək vacibdir ki, Ermənistanla Türkiyə arasında yeni mərhələnin başlanması ilə bağlı yayılan məlumatlar regionda böyük maraq doğurub. Bir müddət öncə tərəflər diplomatik pasporta malik üçüncü ölkələrin vətəndaşları üçün quru sərhədin açılması barədə razılığa gəlmişdilər. Lakin bu razılaşmanın icrası hələ də reallaşmayıb. Türkiyə mediasının xüsusi olaraq vurğuladığı kimi, hazırda iki ölkə arasında hava yükdaşımalarının həyata keçirilməsi münasibətlərin praktiki müstəviyə keçməsi baxımından önəmli məqam kimi qiymətləndirilir. ŞƏT sammitindən geri dönərkən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan jurnalistlərə verdiyi açıqlamasında Ermənistanla əlaqələrin normallaşdırılması istiqamətində konkret addımların müzakirə edildiyini təsdiqləyib. Həmin sammit çərçivəsində Ərdoğan Ermənistan baş naziri Nikol Paşinyan, Azərbaycan Prezidenti İlham Əliyev, eləcə də Rusiya və İran liderləri ilə görüşlər keçirib.

* * *

Bu günlərdə İrəvanda Türkiyə və Ermənistanın xüsusi nümayəndələri – Serdar Kılıç və Ruben Rubinyan altıncı dəfə görüşərək, münasibətlərin tam normallaşdırılması yollarını müzakirə ediblər. Görüşdə 2022-ci il 1 iyul razılaşmasına əsasən sərhəd-keçid məntəqələrinin açılması, Gümrü–Qars dəmir yolunun və enerji birləşdiricisinin bərpası üçün texniki tədqiqatların aparılması qərara alınıb. Bundan başqa, mədəniyyət və təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi, Ani/İpək Yolu tarixi körpüsünün bərpası, tələbələr üçün təqaüdlərin ayrılması, avia əlaqələrin artırılması və 2026-cı ildən yeni uçuşların başlaması müzakirə mövzusu olub. Ən önəmlisi isə tərəflər hər hansı ilkin şərt qoymadan normallaşma prosesini davam etdirmək öhdəliyini bir daha təsdiqləyiblər.

Bu arada Türkiyənin xarici işlər naziri Hakan Fidan Romada çıxışı zamanı bildirib ki, Ermənistan və Azərbaycan yekun sülh sazişini imzaladıqdan sonra Ankara da Ermənistanla münasibətlərin normallaşdırılması istiqamətində konkret addımlar atacaq. Onun sözlərinə görə, Vaşinqtonda imzalanan sənəd hələ yekun sənəd deyil və əsas sənədin 2026-cı ilin birinci yarısında imzalanması gözlənilir.

Bu açıqlama bir daha təsdiqləyir ki, bölgədə sülhün bərqərar olması, kommunikasiyaların açılması və münasibətlərin normallaşdırılması üçün açar rolunu məhz Azərbaycan–Ermənistan sülh müqaviləsi oynayır. 30 il təcrid vəziyyətində yaşayan Ermənistan anlayır ki, vəziyyətdən çıxış yolu qonşularla münasibətlərin normallaşdırılmasından keçir. Azərbaycanla sülh sazişi, Türkiyə ilə münasibətlərin bərpası, ticari, enerji əməkdaşlıq layihələrində iştirak və regional inteqrasiya Ermənistan üçün alternativsiz yoldur. Sülhün institusionallaşdırılması isə təkcə Ermənistan və Azərbaycan üçün deyil, bütövlükdə Cənubi Qafqaz regionu üçün yeni imkanlar açacaq, regionun təhlükəsizlik və sabitlik mühitini möhkəmləndirəcək.

*Musa BAĞIRLI*
*XQ*

## Ekspert rəyi



**Toğrul İSMAYIL,**
**Ankara Universitetinin professoru, politoloq**

Türkiyə ilə Ermənistan arasında İrəvanda keçirilən altıncı görüş regionda diplomatik dinamikanın davamlı şəkildə inkişaf etdiyini göstərir. Tərəflərin əvvəlki razılaşmaları təsdiqləməsi danışıqların ardıcıllığını və müəyyən etimad mühitinin formalaşdığını ortaya qoyur. Bu, həm də iki ölkənin uzun illər davam edən qarşıdurmadan sonra daha praqmatik yanaşmaya meyilləndiyini göstərən mühüm siqnaldır. Hakan Fidanın açıqlaması Türkiyənin Ermənistanla münasibətləri normallaşdırmaq prosesini Azərbaycan–Ermənistan sülh müqaviləsi ilə əlaqələndirdiyini açıq şəkildə nümayiş etdirir.

Bu yanaşma Türkiyənin Cənubi Qafqaz siyasətində Azərbaycanın maraqlarını birinci plana çıxardığını və Ankara–Bakı strateji sinxronizasiyasının dəyişməz olduğunu sübut edir. Beləliklə, Ermənistan yalnız Azərbaycanla yekun sülh sazişinə imza atmaqla Türkiyə ilə real diplomatik irəliləyişə nail ola bilər. Bu prosesin uzanması regionda siyasi və iqtisadi imkanların tam reallaşmasının qarşısını alır. Lakin paralel addımların uğurla atılması regional kommunikasiyaların açılmasını, ticarət və enerji layihələrinin genişlənməsini mümkün edə bilər. Ermənistan üçün bu, uzun illər davam edən təcrid durumundan çıxmaq və regional iqtisadi inteqrasiyaya qoşulmaq imkanı yaradır. Türkiyə üçün isə həm Cənubi Qafqazda təsir dairəsini gücləndirmək, həm də yeni iqtisadi və logistika imkanlarını reallaşdırmaq perspektivi formalaşdırır. Ümumilikdə, İrəvanda baş tutan son görüş prosesin simvolik deyil, strateji məna daşıdığını göstərir. Əgər Ermənistan real kompromislərə gedərsə, Türkiyə ilə münasibətlərin normallaşması Cənubi Qafqazda yeni geosiyasi tarazlıq yaradacaq.

# Dövlət İmtahan Mərkəzi təhsil islahatının önündə gedən qurumlardandır



**Milli təhsil sistemində həyata keçirilən mühüm islahatların əsasında dayanan məsələlərdən biri ali məktəblərə qəbul imtahanlarının şəffaflığı və obyektivliyin təmin olunmasıdır. Bu sahədə uzun illərdən bəri fəaliyyət göstərən Dövlət İmtahan Mərkəzi təhsil islahatlarının önündə gedən qurumlardandır. DİM-in İdarə Heyətinin sədri, Azərbaycan təhsilinin inkişafında əvəzsiz xidmətləri olan Məleykə Abbaszadə ilə söhbətimizdə 2025/2026-cı tədris ilində gözlənilən yeniliklərdən və görülən işlərdən danışdıq.**

**– Məleykə xanım, bu il keçirilən qəbul imtahanlarının yekun nəticələrini necə qiymətləndirirsiniz? Əvvəlki illərlə müqayisədə hansı xarakterik tendensiyalar müşahidə edildi?**

– İlk növbədə, vurğulamaq lazımdır ki, ali məktəblərə qəbul imtahanları cəmiyyət həyatında mühüm sosial prosesdir. Mövcud qaydalar çərçivəsində aparılan imtahanlarda hər il 300 mindən çox gənc iştirak edir. İmtahanların məzmununun elmi-metodiki əsaslarla hazırlanmasına 5 mindən çox pedaqoq və elmi ictimaiyyətin nümayəndəsi cəlb olunur. Prosesin idarə olunmasına vətəndaş cəmiyyətindən, təxminən, 20 min nümayəndə dəvət edilir. Təbii ki, imtahanların keçirilmə mexanizmləri, araşdırmalar, apellyasiya prosesləri Dövlət İmtahan Mərkəzi əməkdaşlarının bilavasitə iştirakı ilə aparılır. Lazımi alqoritmlərin hazırlanması və düzgün tətbiqi də məhz burada formalaşdırılır.

Ölkəmizdə kütləvi proseslərin idarə olunması ilə bağlı informasiya texnologiyalarından istifadə sahəsində ilk addımları da məhz biz atmışıq. Bu sahənin tədqiqi və tətbiqi bu gün mühüm əhəmiyyət kəsb edir. Nəzərə almaq lazımdır ki, IX-XI sinif buraxılış, bakalavr, magistratura, rezidentura və doktoranturaya qəbul imtahanları daim ictimaiyyətin diqqət mərkəzində olur. Bu proses açıq şəkildə aparılır və hər hansı qərar yalnız qanun, qayda və mövcud alqoritmlərə uyğun qəbul edilir.

Builki qəbul imtahanlarının diqqətçəkən məqamlarından biri iştirakçıların sayında artımın müşahidə olunmasıdır. Bu il ali təhsil müəssisələrinə qəbul olmaq üçün qeydiyyatdan keçən şəxslərin sayı 130 mindən çox idi. Ötən illə müqayisədə ərizələrin sayında, təqribən, 12 min artım müşahidə olundu. Bu, ilk növbədə, 2025-ci ildə məzun olan abituriyentlərin sayının çoxluğu ilə bağlı idi. Belə ki, bu il buraxılış imtahanlarında 119 mindən çox şagird iştirak etdi. Lakin bu artım hər hansı təşkilati və s. çətinlik yaratmadı və görülən tədbirlər nəticəsində bütün proses uğurla idarə olundu. Bundan əlavə, IX sinif buraxılış imtahanlarında xarici dil fənni üzrə yeni test modeli tətbiq edildi. Burada əsas məqsəd şagirdlərin yaradıcı düşünmə, məntiqi ardıcıllıqla fikir ifadə etmə və dil bacarıqlarını daha da inkişaf etdirməkdir. Hazırda IX sinif məzunları üçün tətbiq edilən bu yeniliyin 2027-ci ildən tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanında da tətbiqi nəzərdə tutulur.

**– Qəbul imtahanlarının nəticələrinə görə abituriyentlərin bilik səviyyəsini fənlər üzrə qiymətləndirmək mümkündür. Bu baxımdan ümumi mənzərəni necə dəyərləndirə bilərsiniz?**

– Qəbul imtahanları iki mərhələdən ibarətdir: birinci mərhələ cari ilin məzunları üçün XI sinif buraxılış imtahanlarıdır. Bu imtahanlar əsas üç fənn – tədris dili, riyaziyyat və xarici dil üzrə təşkil olunur. Bu nəticələr əsasında biz iki ildən sonra nəyi gözləyə biləcəyimizi proqnozlaşdırırıq. Maraqlıdır ki, uzun illərdir aparılan proqnozlar real nəticələrlə üst-üstə düşür. Əldə olunan nəticələr Elm və Təhsil Nazirliyinə təqdim olunur, birgə müzakirələr aparılır və gələcəkdə plan yerlərinin ayrılmasında həmin təhlillər nəzərə alınır.

İmtahan nəticələrinin təhlili “Abituriyent” jurnalının 12-ci buraxılışında dərc olunur. Jurnalın elektron forması Dövlət İmtahan Mərkəzinin rəsmi saytına da yerləşdirilir və ictimaiyyətin ixtiyarına verilir. Statistik məlumatlar Azərbaycan Respublikasının Açıq Məlumatlar Portalına (opendata.az) da yerləşdirilir. Beləliklə, istənilən tədqiqatçı imtahanlarla bağlı məlumatlardan rahat şəkildə istifadə edə bilər. 2024-cü ilin imtahan nəticələri ilə bağlı 12 nömrəli jurnalda 1.26-cı cədvəldə (səh., 64) abituriyentlərin test tapşırıqlarına düzgün cavablarının orta statistik göstəriciləri ilə tanış ola bilərsiniz.

Orta statistik göstəricilər abituriyentlərin test tapşırıqlarına düzgün cavablarının orta nisbətini əks etdirir. Həmin cədvəli builki imtahan nəticələri ilə müqayisə edəndə görürük ki, bəzi göstəricilər müsbət istiqamətdə artıb, bəzilərində isə azalma müşahidə olunur. Lakin bu dəyişikliklər cüzi səviyyədədir. Lakin bir balın artması və ya azalması keyfiyyət göstəricilərinə çox böyük təsir edir. Uzun illərdir müşahidə edirik ki, IV ixtisas qrupu üzrə imtahanlarda adətən 4-5 min, bəzən 6 min nəfər iştirak edir və onların nəticələri ölkə üzrə ən yüksək göstəricilər olur.

Cədvəldəki göstəricilər 50 faizdən yuxarı olduqda, bunu qənaətbəxş hesab edirik. Məsələn, Azərbaycan bölməsində 1-ci mərhələdə IV ixtisas qrupu üzrə göstəricilər tədris dili, riyaziyyat və ingilis dili fənləri üzrə belə olub: 77.55 faiz, 64.05 faiz, 70.50 faiz. Yəni orta səviyyə kifayət qədər yüksəkdir. Blok imtahanlarında fizika, kimya və biologiya üzrə nəticələr isə müvafiq olaraq 50.56 faiz, 49.17 faiz və 52.85 faiz olmuşdur. Bunlar da yaxşı göstəricilərdir, amma təəssüf ki, digər qruplarda belə yüksək səviyyə müşahidə edilmir.

Tədris dili üzrə həm Azərbaycan, həm də rus bölməsində bütün orta göstəricilər 50 faizdən yuxarıdır, bu, müsbət tendensiyadır. Lakin riyaziyyat fənni üzrə vəziyyət bir qədər fərqlidir. 1-ci mərhələdə orta göstərici 46.11 faiz təşkil edir ki, bu, I qrupa sənəd təqdim edən abituriyentlər üçün nəzərəçarpan göstəricidir. IV qrupa sənəd verən şagirdlərin riyaziyyat fənni üzrə nəticəsi isə 64 faiz olub, yəni ən yüksək səviyyəli şagirdlər bu fənn üzrə daha yaxşı nəticə göstərirlər. Builki nəticələrə əsasən, ümumi olaraq fənlər üzrə keyfiyyət göstəriciləri sabitdir və müəyyən sahələrdə xüsusilə tədris dili fənni üzrə artım var.

Riyaziyyat fənni üzrə imtahan verən şagirdlərin düzgün cavablarının faizi II qrupda 30.19 faiz, III qrupda 31.21 faiz və qabiliyyətyönümlü ixtisaslara aid V qrupda isə 31.28 faizdir. Əgər birinci mərhələdə riyaziyyat üzrə nəticələr 50 faizdən yuxarı olsaydı, biz artıq özümüzü məqsədimizə çatmış hesab edərdik.

Xarici dillər, xüsusilə ingilis dili üzrə son 3-4 ildə sürətli irəliləyiş müşahidə olunur. I qrupda ingilis dili üzrə göstəricilər 50 faizdən yuxarı, II qrupda 43.26 faiz, III qrupda 53.36 faizdir. Azərbaycan və rus bölmələri arasında müqayisə aparanda deyə bilərik ki, Azərbaycan bölməsinin göstəriciləri ingilis dilindən başqa digər fənlərdə daha yüksəkdir. Rus bölməsində ingilis dili göstəriciləri qruplar üzrə ardıcıl olaraq təqribən 63 faiz, 58 faiz, 62 faiz, 74 faiz və 59 faiz olub. Nəzərə almaq lazımdır ki, rus bölmələri əsasən şəhər məktəblərindədir, Azərbaycan bölməsində isə çoxlu kənd məktəbləri var. Ən aşağı nəticələr isə coğrafiya fənni üzrə müşahidə olunur. Coğrafiya II ixtisas qrupu üzrə imtahan verən abituriyentlər üçün əsas fənlərdən biridir, III qrupda isə müvafiq alt qruplar üzrə müsabiqədə iştirak etmək üçün coğrafiyadan imtahan verirlər. Nəticələr göstərir ki, coğrafiya üzrə II qrupda orta göstərici 28,68 faiz, III qrupda isə təxminən 15,5 faizdir ki, bu da çox aşağı səviyyədir.

Xüsusilə narahatlıq doğuran sahələrdən biri kimyadır. Abituriyentlərin daha çox seçdiyi I qrupda bu fənnə aid bir çox ixtisas var. I qrupda orta göstərici 24.18 faiz, IV qrupda isə 49.17 faizdir, yəni qruplar arasında təxminən 25 faiz fərq mövcuddur. Mövcud nəticələr hələ qənaətbəxş deyil və təkmilləşdirilməyə ehtiyac var.

I qrupda fizika üzrə düzgün cavabların faizi 33.29-dur və bu isə kifayət qədər aşağı səviyyədir. Bu sahədə də dəyişikliklər və təkmilləşdirmələr zəruridir. Riyaziyyat üzrə də vəziyyət eynidir. Bu məsələdə maraqlı bir məqam da budur ki, gələcəkdə İT sahəsində fəaliyyət göstərmək istəyən abituriyentlərin riyaziyyat nəticələri kifayət qədər yüksək olmalıdır. Bizə çox təkidlə müraciət edirdilər ki, informatika fənni üzrə də imtahanlar keçirilsin və biz bunu təşkil etdik. Lakin nəticə 37.86 faizdir, keçən illə müqayisədə cüzi olaraq artsa da, bu göstərici qənaətbəxş deyil. Bununla belə, bütün qruplar üzrə ümumi cədvəli ötən illə müqayisə etdikdə müşahidə olunan müsbət tendensiya ümidvericidir.

**– Ali məktəblərdə dövlət planının yerinə yetirilməsi ilə bağlı nə deyə bilərsiniz?**

– Bu il qəbul imtahanlarında iştirak etmək üçün 102 min abituriyent sənəd təqdim edib. İmtahan nəticələrinə əsasən, müsabiqəyə 68 min 54 nəfər buraxılıb. Yəni sənəd verənlərin təxminən 66 faizi ixtisas seçimi mərhələsinə keçib.

Müsabiqəyə buraxılan abituriyentlər 200 və 150 baldan yuxarı nəticə göstəriblər. İkinci mərhələdə isə 50 və ya 100 baldan yuxarı bal yığıblar. Beləliklə, müraciət edənlərin 66 faizi tələb olunan minimal nəticəni əldə edib ki, bu da yüksək göstəricidir. Ümumilikdə qəbul planına nəzər salsaq, mülki ali məktəblər üzrə plan 59 min 455 yerdir. Əsas və əlavə yerləşdirmədən sonra ali təhsil müəssisələrinə qəbul olunanların sayı 57 481 nəfərdir. Plan yerlərinin təxminən 97 faizə yaxın dolduğunu görürük. Nəzərə alaq ki, orta ixtisas məktəblərinə də XI sinif bazasından qəbul aparılıb və burada 15 mindən çox abituriyent qəbul olunub. Beləliklə, ümumilikdə 70 mindən çox abituriyent ali və ya orta ixtisas təhsili müəssisələrinə qəbul olunub.

Qruplar üzrə vəziyyət isə fərqlidir. Qəbul planına nəzər saldıqda görürük ki, qruplar üzrə yerlər əsasən dolub. Məsələn, II və III qruplarda plan demək olar ki, tam dolub. III qrupda cəmi 9 yer boş qalıb ki, bu yerlər də əsasən jurnalistika ixtisasına aiddir. Burada ixtisas üçün tələb olunan qabiliyyət imtahanında esse yazaraq məqbul alanların sayı kifayət etmədiyi üçün yer dolmayıb. I qrup üzrə plan yerləri 92.93 faiz, II qrup üzrə 98.38 faiz, III qrup üzrə 99.94 faiz, IV qrup üzrə 96,30 faiz, V qrup üzrə isə 96.68 faiz dolub.

Sənəd qəbulunda iştirak edən və müsabiqəyə buraxılan abituriyentlərin sayını müqayisə etdikdə müxtəlif göstəricilərlə qarşılaşırıq. Məsələn, I ixtisas qrupu üzrə imtahanlarda iştirak etmək üçün təqribən 32 min abituriyent sənəd təqdim edib, lakin onlardan yalnız 19900-ə yaxını müsabiqəyə buraxılıb. Yəni təxminən 62 faizə yaxın şəxs ixtisas seçimi mərhələsinə keçib. Səbəb odur ki, 2-ci mərhələdə abituriyentlər riyaziyyat, kimya və fizika fənlərindən 50 baldan yuxarı nəticə göstərə bilməyiblər və seçimə buraxılmayıblar. Bilirsiniz, abituriyentlərin çoxu I ixtisas qrupunu seçirlər, lakin fərqinə varmırlar ki, bu qrupa gedən şəxs texniki fənlər üzrə müəyyən biliklərə malik olmalıdır. Sadəcə bu qrup üzrə plan yerləri çox olduğundan, bəzi abituriyentlər düzgün seçim etmir və nəticədə müsabiqədən keçə bilmirlər.

Eyni vəziyyət II qrupda da müşahidə olunur. Burada 27 minə yaxın abituriyent sənəd təqdim edib və yalnız 12718 nəfər, yəni 47.25 faiz müsabiqəyə buraxılıb. Bu da göstərir ki, bu qrupda da zəif nəticəli abituriyentlər çoxdur. Qeyd etmək lazımdır ki, II qrupun plan yerləri I qrupa nisbətən azdır və buna görə dolma faizi burada daha yüksək (98%) olub.

III qrup üzrə sənəd verən 29017 abituriyentdən 23460 nəfər müsabiqəyə buraxılıb. Təxminən 81 faiz müsabiqə şərtlərini ödəyib. IV qrup üzrə isə 6.657 nəfər sənəd təqdim edib, onlardan 5.391 nəfər müsabiqəyə buraxılıb. Bu, 81 faizə yaxındır və kifayət qədər yüksək göstəricidir. Faktiki olaraq imtahanda iştirak edənlərin yalnız 19 faizi müsabiqədən kəsilib. Buradan aydın görünür ki, zəif hazırlıqlı kontingent əsasən I və II ixtisas qruplarını seçir və bu tendensiya əslində IX-XI siniflərdən əvvəl başlayır və özünü yekun imtahanlarda göstərir.

Bu il plan yerləri 13 universitetdə tam, 43 universitetdən 38-də isə 95 faizdən artıq dolub, bu çox yaxşı nəticədir. Hesab edirəm ki, bu istiqamətdə işi davam etdirmək və xüsusilə, I və II qruplarda riyaziyyatdan orta balı yüksəltmək vacibdir. Plan yerləri məhz buna görə ayrılır – iqtisadiyyatın sözügedən sahələr üzrə peşəkar mütəxəssislərə ehtiyacı var. Hətta I ixtisas qrupu üzrə ayrılan yerlərin əksəriyyəti dövlət sifarişli yerlərdir və bu ixtisaslara qəbul olunan məzunlar sonradan əmək bazarında rahatlıqla iş tapa bilirlər.

**– Bölgələrlə paytaxt ali və orta məktəblərin nəticələri arasında hansı fərqlər müşahidə olunur?**

– Müxtəlif regionların göstəriciləri “Abituriyent” jurnalının 12-ci buraxılışında qeyd olunub. Adətən ilk yerlər lisey və gimnaziyalara məxsus olur. Belə məktəblər həm paytaxtda, həm də bölgələrdə fəaliyyət göstərirlər və onların nəticələri ümumtəhsil məktəblərinin nəticələrindən daha yüksəkdir. Bununla belə, elə ümumtəhsil məktəbləri var ki, göstəriciləri hətta bəzi lisey və gimnaziyaların nəticələrini də üstələyir. Müəyyən hallarda ayrı-ayrı məktəblərin nəticələri yüksək olsa da, həmin regionda göstəriciləri aşağı olan məktəblərin çoxluğu ümumi nəticəni aşağı salır. Əksinə, nəticələri orta səviyyədə olan məktəblərin yerləşdiyi regionlar da var ki, bir-iki güclü məktəbin hesabına ümumi bal yüksək olur.

Bu baxımdan mənzərəni dəyərləndirərkən təkcə region göstəricilərinə əsaslanmaq tam obyektiv olmazdı. Paytaxtın özündə də vəziyyət müxtəlifdir: Qaradağ, Sabunçu, Suraxanı kimi rayonların göstəriciləri ilə mərkəzi rayonları müqayisə edərkən fərqlər görünsə də, mərkəzi rayonlarda da nəticələri aşağı olan məktəblər mövcuddur. Həmin rayonlarda yerləşən bir sıra gimnaziyaların nəticələri ümumi statistikaya daxil edilmir ki, bu da mənzərəni bir qədər dəyişir. Buna görə də paytaxt və regionlar arasında fərqin kəskin olduğunu söyləmək çətindir, nəticələr müxtəlifdir. Biz həmişə bir regiondakı məktəbləri öz aralarında, şəhərdəki məktəbləri isə ayrıca müqayisə edirik.

Bakıda və regionlarda fəaliyyət göstərən ali məktəblərin nəticələri 12 nömrəli jurnalda cədvəl 1.11-də göstərilib. Bu cədvəl qruplar üzrə orta statistik balları müqayisə etməyə imkan verir. Müqayisəni düzgün aparmaq üçün dörd qrup üzrə ixtisaslar mövcud olan universitetləri seçmək vacibdir. Məsələn, Tibb Universitetində yalnız tibb ixtisasları var. Bu səbəbdən IV qrupda Tibb Universitetinin ortalama keçid balı həmişə yüksək olur. Amma bəzi universitetlərdə IV qrupa aid olan digər ixtisaslar da var. Məsələn, Bakı Dövlət Universitetində, Azərbaycan Dövlət Pedaqoji Universiteti və İqtisad Universitetində bütün 4 qrup üzrə ixtisaslar mövcuddur. Digər universitetlərdə isə yalnız bəzi qrupların ixtisasları təklif olunur. Məsələn, yalnız II və III, ya da I və II qrupa aid ixtisaslar mövcuddur, digər qruplar isə yoxdur. Regional universitetlərdə isə demək olar ki, bütün qruplar üzrə ixtisaslar var.

Cəmi iki ildir ki, qəbul apardığımız Qarabağ Universitetinə qəbul olunan abituriyentlərin hər bir qrup üzrə orta bal göstəriciləri Bakı Dövlət Universiteti və İqtisad Universitetindən çox az fərqlənir. I qrupda Qarabağ Universitetinə qəbul olunanların nəticələri 400 baldan yuxarıdır. II qrupda Dövlət İqtisad Universitetinin göstəriciləri daha yüksəkdir və Qarabağ Universiteti ikinci yerdə qərarlaşıb. III qrupda isə Qarabağ Universitetinin nəticələri 500 baldan yuxarıdır. IV qrupda da müqayisə aparmaq mümkündür. Qarabağ Universitetində yalnız tibb ixtisasları deyil, digər ixtisaslar da mövcuddur və burada nəticələr 512 bal səviyyəsindədir. Bütün qruplar üzrə ortalama ballara baxdıqda, xüsusilə I və IV qruplarda Qarabağ Universiteti 456 balla birinci yerdədir. Bu göstərici Qarabağ Universitetinə daha bilikli gənclərin üstünlük verdiyini göstərir ki, bu da sevindiricidir. İnanıram ki, Qarabağ Universiteti yalnız ölkədə deyil, regionda, hətta postsovet məkanında da gələcəkdə layiqli yer tutacaq.

**– Rəhbərlik etdiyiniz qurum imtahanların obyektivliyinə və şəffaflığına ictimai etimadı artırmaq üçün bu il hansısa texnoloji və ya təşkilati yeniliklər etdimi?**

– Obyektivlik ədalətli imtahanın keçirilməsində çox böyük rol oynayır. Bizim işimizin əsas hissəsi imtahanların təhlükəsizliyini təmin etmək, məlumat sızmaları və kənardan müdaxilələrin qarşısını almaqdır. Bu məqsədlə çoxlu resurs sərf edir və texnoloji yeniliklər tətbiq edirik. Lakin yeniliklər haqqında açıq məlumat verməyəcəyəm, çünki bu, virus və antivirus məsələsinə bənzəyir. Əgər biz açıq desək ki, antivirus sistemimiz hansı alqoritmlə işləyir, onda virus yazanlar da yenilərini hazırlaya bilərlər. Ona görə də biz onların qayda pozuntularını və qanunsuz əməllərini diqqətlə izləyir və aşkar edirik.

Keçən il bir neçə belə hadisə qeydə alınmışdı və həmin halların təkrarlanmaması üçün öncədən tədbirlər görüldü. Belə hallarda imtahan nəticələri ləğv olunur və abituriyent heç bir müsabiqəyə buraxılmır. Hazırda biz bu sahədə qanunvericilik və normativ-hüquqi sənədlərdə müəyyən dəyişikliklər edirik ki, gələcəkdə oxşar hallar tamamilə aradan qaldırılsın. Məqsədimiz həm ədalətli və obyektiv mühiti qorumaq, həm də imtahan sisteminə etimadı gücləndirməkdir.

Bu il imtahana daxil olan bəzi şəxslərdə tamamilə yeni olan qurğular aşkarlanıb. Əfsus ki, bu haqda daha geniş məlumat verə bilmirəm, çünki istintaq gedir və materiallar prokurorluğa təqdim olunub. Araşdırmalar davam edir və yəqin ki, proses başa çatdıqda hüquq-mühafizə orqanları tərəfindən ictimaiyyətə bu barədə daha geniş məlumat veriləcək. Qeyd edim ki, bu əməllərin qiymətləndirilməsini hüquq-mühafizə orqanları həyata keçirir. Təbii ki, bizim tərəfdən həmin şəxslərin nəticələri artıq ləğv olunub və onlarla əlaqəsi olan digər şəxslərin nəticələri də etibarsız sayılıb. Bu, imtahan sistemində ədalətin qorunması və qayda pozuntularına qarşı ciddi mövqe nümayiş etdirmək məqsədi daşıyır. Hər il biz belə müdaxilələr və ayrı-ayrı qanunsuz hallarla mübarizə aparırıq. Odur ki, imtahanda iştirak edən hər bir şəxsə yalnız öz biliyinə güvənməsini məsləhət görürəm.

Bundan başqa, beynəlxalq imtahanların nəticələrini də biz yoxlayıb qəbul etməliyik. Bu sahədə ədalət prinsipini qorumaq məqsədilə araşdırmalar apararaq müəyyən etmişik ki, TOEFL, SAT kimi bəzi imtahanların nəticələri imtahan verən şəxslərin biliyinə uyğun deyil və araşdırmaların nəticələrini hüquq-mühafizə orqanlarına təqdim etmişik. Düzdür, bu imtahanlar beynəlxalq imtahanlar olduğundan biz onlara cavabdeh deyilik, ancaq müəyyən yerlərə qəbul üçün nəticələrin adekvatlığını, düzgünlüyünü və sertifikatların etibarlılığını yoxlayıb təsdiqləmək bizə həvalə olunub. Bu istiqamətdə işlərimizi davam etdiririk.

Şəffaflıq və açıqlıq məsələsinə gəldikdə isə təqdim etdiyimiz məlumatlar və nəticələr hər bir mərhələdə o qədər əhatəlidir ki, heç bir beynəlxalq imtahan təşkilatçısı bu səviyyədə materialları açıqlamır. Birinci növbədə biz test kitabçalarını paylayırıq, ümumiyyətlə, heç yerdə bu kitabçalar paylanmır. Çünki testlər paylanırsa, onlar itirilmiş hesab olunur və hər kəs çalışır ki, bu intellektual sərvət qapalı qalsın və gələcəkdə də istifadə olunsun. Ancaq biz kitabçaları paylayırıq ki, insanlar evdə də həmin materiallar üzərində işləyə və düşünə bilsinlər.

Biz təkcə şagirdlərin və namizədlərin nəticələrini SMS-lə və ya arayışla elan etmirik, eyni zamanda əlyazmalarının “skan” olunmuş surətini onların şəxsi kabinetlərində yerləşdiririk. Bu, iştirakçılara imkan verir ki, yazdıqlarını yoxlasınlar. Bundan əlavə, imtahan bitdikdən dərhal sonra biz hər bir suala aid cavabın hansı dərslikdə, hansı səhifədə və hansı sinif proqramına aid olduğunu, həmçinin həllini də veririk. Bilirsiniz ki, çox zaman imtahan bitdikdən sonra bəzi müəllimlər sosial platformalarda yanlış izahatlar verirlər. Biz isə metodiki və elmi əsası olmayan iradların qarşısını almaq üçün bu məlumatları açıq şəkildə təqdim edirik. Təbii ki, bizim tərəfdən də bəzi hallarda müəyyən texniki səhvlər ola bilər. Belə olan halda biz səhvimizi etiraf edir və abituriyentlərin xeyrinə onu düzəldirik. Hamı kimi biz də test tapşırıqlarını yalnız imtahan bitdikdən sonra görə bilirik, testləri görən şəxslər isə qapalı şəraitdə, heç kimlə ünsiyyətdə olmurlar.

Təəssüf ki, çox zaman iştirakçılar bizim verdiyimiz materialları tam oxumadan, dərk etmədən bizə müraciət edirlər. Medianın rolu da burada böyükdür; imtahandan sonra bəzi media orqanları mənfi hadisələri qabardaraq xəbərlərin “klik” sayını artırmaq üçün ajiotaj yaradırlar. Buna baxmayaraq, təhsil sistemlərində qiymətləndirmə və şəffaflıq baxımından DİM ön sıralardadır. Bu, qiymətləndirmə sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlar tərəfindən də təsdiqlənir.

**– Bildiyimiz kimi, Dövlət İmtahan Mərkəzinin tətbiq etdiyi yeniliklərin, həm də ümumən qurumun iş prinsipinin ümumtəhsil sisteminin problemlərini və boşluqlarını üzə çıxarmaqda mühüm rolu var. Mövcud istiqamətdə hansı xarakterik xüsusiyyətləri vurğulamaq mümkündür?**

– Qeyd etmək istəyirəm ki, bizim komanda Elm və Təhsil Nazirliyinin əməkdaşları ilə mütəmadi əlaqədədir. Münasibətlərimiz kifayət qədər sıx və elmi nöqteyi-nəzərdən düzgün qurulub. Elmi və metodiki məsələlər daim müzakirə olunur. İmtahan sualları, proqramlar, yeniliklər, qiymətləndirmə alətlərinin istifadəsi və yeni növ qiymətləndirmə vasitələrinin yaradılması, imtahanın statistik nəticələri və ortaya çıxan problemlərin nədən qaynaqlanması haqqında məlumatlar tərəfimizdən Elm və Təhsil Nazirliyinə açıq şəkildə təqdim edilir. Bu yanaşma sayəsində imtahanların keyfiyyətini artırmaq üçün müvafiq tədbirlər görülür.

Təbii ki, müəyyən problemlərin həlli bir gündə, bir ayda, hətta bir ildə belə mümkün deyil. Məsələn, marker müəllimlərin hazırlanması üçün biz özümüz iş aparırıq. Halbuki, Pedaqoji Universiteti bitirənlər və bu sahədə ixtisası olan müəllimlər bizimlə bilavasitə işləməlidir, amma biz məcburuq təlimlər və treninqlər keçirək ki, bu sahəyə cəlb olunan işçilər tam hazırlıqlı olsunlar. Bu gün müşahidə olunan bəzi uğursuzluqların kökü 15-20 il əvvələ gedib çıxır. Biz hələ də həmin problemlərin təsirini görürük və onları həll etmək üçün sistemli iş aparırıq. Hesab edirik ki, indiki müsbət tendensiyalar bir müddətdən sonra daha qabarıq hiss olunacaq.

(ardı 13-cü səhifədə)

# Dövlət İmtahan Mərkəzi təhsil islahatının önündə gedən qurumlardandır

(əvvəli 12-ci səhifədə)

**– Sizcə, müasir imtahan sistemində tələbələrin gələcək peşə seçimində əmək bazarının real tələbləri necə nəzərə alınır?**

– Bu il XI sinfi bitirib qəbul imtahanlarında iştirak etməyən və ali təhsil müəssisələrinə sənəd təqdim etməyən abituriyentlərin sayı təxminən 11 min nəfər olmuşdur. Onlardan 8 mini imtahanda 0-50 bal arasında nəticə göstərən zəif hazırlıqlı kontingentə daxildir. Bu şəxslər orta məktəbi bitirərək attestat almış və birbaşa əmək bazarına daxil olmuşlar. Bu gənclərlə işləmək, onlara düzgün istiqamət vermək və işsizlik riskini azaltmaq üçün müvafiq qurumlar iş aparır. Məsələn, bizim Gənclər və İdman Nazirliyi ilə belə bir layihəmiz var idi ki, həmin gənclərlə hansısa peşəyönümlü testlər aparaq. Belə alətlərimiz var və inanıram ki, bunun kütləvi şəkildə istifadəsinə başlaya biləcəyik.

VIII və IX siniflər üçün hazırladığımız psixometrik testlər hər bir şagirdin hansı istiqamətdə daha yüksək nəticələr göstərə biləcəyini müəyyən etməyə imkan verir. 14-15 yaşlı şagirdlər üçün bu alətlər vasitəsilə testlər keçirmək və onlara istiqamət vermək çox vacibdir. Biz bu alətləri artıq Gənclər və İdman Nazirliyi ilə birgə istifadə etmişik və yeniyetmələr arasında peşəyönümlü testlər hazırlamışıq. Əgər bu testləri proqram şəklində VIII-IX siniflər üzrə məktəblərdə həyata keçirsək, şagirdlər IX-XI siniflərdə artıq öz peşə istiqamətlərini seçə biləcəklər.

Digər bir istiqamət isə odur ki, biz məlumatları izləyərək proqnoz verə bilirik: məsələn, IX sinifdə müəyyən bir fəndən sıfır nəticə göstərmiş şagirdlər 2 ildən sonra I qrupa sənəd versələr belə, qəbul olmaq şansları az olacaq. Bu proqnozları biz əvvəlcədən təqdim edir və həmin proqnozlara əsasən kontingent necədir və onlarla hansı istiqamətdə iş aparmaq lazım olduğunu müəyyənləşdiririk.

Dövlət tərəfindən isə əmək bazarında hansı sahələrə daha çox ehtiyac olduğu müəyyən edilir. Bu ehtiyac iqtisadi durumdan asılı olaraq formalaşır, əgər əmək bazarından belə bir sifariş gəlirsə, bundan sonra yalnız təhsil sistemində müəyyən addımlar atıla bilər. Lakin bu zaman həmişə gecikmə riski olur. Ona görə də əvvəlcədən proqnoz verərək təhsil sistemində müvafiq addımlar atmaq vacibdir.

**– Növbəti sualım Milli Kurikulumla uyğunluqla bağlıdır. İmtahan suallarının yeni dərsliklərlə uzlaşdırılması necə aparılır? Bəzən bu istiqamətdə narazılıqlar eşidilir. Belə halların aradan qaldırılması üçün hansı tədbirlər görülür?**

– Milli Kurikulum 2009-cu ildə təsdiqlənmiş və rəsmi sənəd kimi qəbul olunmuşdur. Dərsliklər həmişə kurikuluma əsaslanır, eyni zamanda imtahan sualları müəyyən keyfiyyətləri yoxlamaq üçün hazırlanır. Məsələn, uşaqların "oxuyub-anlama" bacarığını yoxlayarkən, dərslikdə olmayan, tanımadıqları bir mətni təqdim edirik. Çünki kurikulumda göstərilir ki, şagird bilmədiyi, tanımadığı mətni oxuyub-anlamalıdır.

Biz imtahanda şagirdə ona tanış olmayan mətni veririk ki, oxuyub-anlama, eşidib-anlama qabiliyyətini yoxlayaq. Müəyyən sualların qoyuluşu elədir ki, biz məlumatı verir və soruşuruq ki, situasiyanın həllini necə görürsən. Diaqramlarla işləmək kimi tapşırıqlar da verilir. Bu və ya diaqram özü dərslikdə olmaya bilər və olmamalıdır, şagird diaqramla işləmək bacarığını məktəbdə öyrənməlidir. Bəzən isə buna irad bildirirlər ki, verilən tapşırıqlar dərsliklərə uyğun deyil, uşaqlar əzbərçiliyə yönəlir və kütləvi imtahan əzbərçiliyi təşviq edir. Burada heç bir məntiq yoxdur, belə iradlar əsaslı və düzgün yanaşma deyil.

**– Qarşıdakı zaman kəsiyində qəbul imtahanlarının forma və strukturunda hansı dəyişikliklər aparıla bilər? Bunu labüd edən məqamlar varmı? DİM ali məktəblərə qəbul prosesini daha səmərəli etmək üçün beynəlxalq təcrübənin tətbiqi imkanlarını nəzərdən keçirirmi? Ümumiyyətlə, qəbul yalnız imtahanla aparılır, yoxsa digər modellər – məsələn, orta məktəbdə toplanmış portfoliolar, beynəlxalq sertifikatlar nəzərə alınır?**

– Nazirlər Kabineti tərəfindən qəbul olunan qaydalarda müsabiqədənkənar qəbul, beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları üzrə təhsil almış abituriyentlərin qəbulu mövcuddur. Amma qeyd edim ki, bu proqramlar üzrə nəticə göstərən abituriyentlərin sayı ölkə üzrə cəmi 35 nəfərdir. Həmçinin beynəlxalq müsabiqə və yarışlarda qalib olmuş 83 nəfər də qaydalara əsasən qəbul olunub. Respublika fənn olimpiadalarının qaliblərindən 88 nəfər qəbul olunub. Hazırda bu sistem tətbiq olunur, lakin qəbul olunanların sayı çox azdır.

Həmçinin bu il 6587 subbakalavr ali məktəblərə qəbul olunub. Bu da qaydalarda nəzərdə tutulub və biz bunu tətbiq edirik. Lakin bəzi ali məktəblər subbakalavr qəbulundan imtina edir və bildirirlər ki, onların tədris prosesinə uyğunlaşmaları çətin olur və hazırlıq səviyyəsi kifayət etmir.

Beynəlxalq SAT imtahanlarının nəticələri ilə bağlı bu il bir ali məktəb 569 nəfər qəbul edib. Hazırda bu yalnız bir universitetdə tətbiq olunur və nəzərə almaq lazımdır ki, bu imtahanlar ingilis dilində aparılır.

**– Azərbaycanın imtahan nəticələri beynəlxalq qiymətləndirmələrlə (PISA, TIMSS və s.) nə dərəcədə üst-üstə düşür?**

– Ümumiyyətlə, TIMSS IV və VIII siniflər üçün nəzərdə tutulub, bu isə milli imtahanların nəticələrinə birbaşa təsir göstərmir. Eyni zamanda PISA nəticələri ümumi ölkə səviyyəsində qiymətləndirmə aparır və milli imtahanlarla birbaşa müqayisə oluna bilməz. Çünki PISA nəticələrində biliklərin həyati situasiyalarda tətbiqi yoxlanılır. Biz də belə tipli sualları 2017-ci ildən başlayaraq öz sistemimizdə tətbiq etməyə başlamışıq.

Xüsusilə, VIII sinfin nəticələri gələcəkdə milli imtahanların proqnozlaşdırılması üçün faydalı məlumat verir. Biz bu nəticələri nəzərə alır, üzərində işləyir və milli imtahanlarımızda da situativ testlərin tətbiqinə ciddi yanaşırıq. 2025-ci il PISA tədqiqatının nəticələri gələn il açıqlanacaq, ona görə də hələ konkret fikir söyləmək çətindir.

Bütün bu işlər Elm və Təhsil Nazirliyinin təşəbbüsü və birgə işçi qrup çərçivəsində aparılır. Biz həm Azərbaycanın beynəlxalq qiymətləndirmələrdəki, həm də milli imtahan nəticələrini müzakirə edirik. Lakin qeyd etmək lazımdır ki, bu imtahanlar tamamilə fərqli istiqamətlər üzrə keçirilir və bir-biri ilə müqayisə oluna bilməz.

**– Məleykə xanım, artıq yeni dərs ili başlayıb. Bu il tələbə adını qazanmış gənclərə nə demək istəyirsiz?**

– İmtahanlar, ixtisas seçimi və ümumilikdə müsabiqəni təşkil edən qurum olan Dövlət İmtahan Mərkəzi adından bütün tələbələri yeni tədris ilinin başlanması münasibətilə ürəkdən təbrik edirəm. Onlar önəmli bir mərhələni geridə qoyaraq bilikli, əzmli və məqsədyönlü olduqlarını sübut ediblər. İndi onların qarşısında imkanlarla, kəşflərlə və nailiyyətlərlə dolu yeni səhifə açılır.

Müasir dünya sürətlə dəyişir, texnologiyalar o qədər tez inkişaf edir ki, bu gün əldə etdiyimiz biliklər sabah artıq yenilənməyə ehtiyac duyur. Buna görə də təhsil yalnız imtahanlara hazırlıq deyil, həm də ömür boyu öyrənmək bacarığı, yeniliklərə açıq olmaq və çevik uyğunlaşmaq qabiliyyətidir. Bilik və bacarıqlar insanın böyük sərvətidir. Məsuliyyət, intizam və öyrənmə həvəsi hər zaman insana uğur qazandırır. Bu gənclərin ideyaları və inkişaf etmək arzusu ölkəmizin və cəmiyyətimizin gələcəyini formalaşdırır.

Əminəm ki, bu il tələbə adını qazanmış gənclərimiz elm, mədəniyyət, texnologiya, iqtisadiyyat və digər sahələrin inkişafına öz töhfələrini verəcəklər. Qoy bu tədris ili onlara yalnız yeni biliklər deyil, həm də kəşf sevinci, sadiq dostlar və öz gücünə inam bəxş etsin.

Müstəqil, müasir Azərbaycan gəncinə enerji, ilham və məqsədə gedən yolda uğurlar arzulayıram.

**– Maraqlı müsahibəyə görə çox sağ olun.**

***Müsahibəni yazdı:***
***Mehparə ƏLİYEVA***
***XQ***

# Məktəblərin "yeni ili" başlandı

*Paytaxtın təhsil ocaqları bu ildən "rəqəmsal məktəb" kimi fəaliyyət göstərəcək*



**Artıq yeni dərs ili başlayıb. Həm məktəblilər, həm də tələbələr üçün xüsusi əhəmiyyət kəsb edən 15 Sentyabr Prezident İlham Əliyevin 2004-cü il 21 avqust tarixli fərmanı ilə ölkəmizdə Bilik Günü kimi qeyd olunur. Bu gün minlərlə şagird ilk dəfə məktəb həyatı ilə tanış olur, tələbə adını qazanmış yüzlərlə abituriyent isə yeni mərhələyə qədəm qoyur.**

Bu il, təxminən, 2,2 milyon şagird və tələbə təhsilin müxtəlif pillələri üzrə yeni tədris ilinə başlayıb. Ümumtəhsil müəssisələrində, təxminən, 130 mini 1-ci, 160 mini 9-cu, 117 mini isə 11-ci sinif olmaqla 1,6 milyon şagird təhsil alacaq. Yeni dərs ilinin başlanması münasibətilə paytaxtda və bölgələrdə təntənəli tədbirlər keçirilib. Məktəblərin həyətlərində üçrəngli bayrağımız dalğalanıb, Dövlət Himni səsləndirilib. Ümumtəhsil müəssisələrinin II–XI siniflərində ilk dərs "Konstitusiya və Suverenlik İli" mövzusuna həsr olunub.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən ümumtəhsil müəssisələrində isə bu il 505 min 766 şagird təhsil alacaq. Minlərlə müəllim və pedaqoji heyət şagirdlərin bilik, bacarıq və dünyagörüşünün formalaşması üçün çalışacaq. Paytaxtın ümumtəhsil məktəblərində I sinifdə 39 min 622, IX sinifdə 47 min 438, X sinifdə 35 min 134, XI sinifdə 124 şagird təhsil alacaq.

Yeni tədris ilində məktəbəhazırlıq qruplarında 90 minə yaxın uşaq təhsilə cəlb olunub. Bunlardan 21 min 491-i paytaxtın payına düşür.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin məlumatlarına əsasən, bu il məktəbəqədər təhsil 226 min uşağı əhatə edir. Paytaxtın təhsil ocaqlarına isə 35 min 28 uşaq cəlb olunub. Bakıdakı təhsil müəssisələrində 28 min 127 müəllim, məktəbəqədər təhsil müəssisələrində isə 4 min 149 tərbiyəçi-müəllim çalışır. Qeyd edək ki, BŞTİ-nin tabeliyində 673 təhsil müəssisəsi, 9 məktəbdənkənar müəssisə fəaliyyət göstərir.

Universitetlərdə isə mənzərə fərqlidir: tələbə adını qazanan gənclər ilk dəfə auditoriyaya qədəm qoyur, yeni dostlar və mühitlə tanış olurlar. Onlar üçün sentyabrın 15-i həm də gəncliyin, müstəqil həyatın, məsuliyyətli qərarların başlanğıcı deməkdir. 2022-2026-cı illəri əhatə edən sosial-iqtisadi inkişaf strategiyasına əsasən, ali təhsilin bütün səviyyələrinə 75 min tələbənin qəbul olunması proqnozlaşdırılır.



Yeni tədris ilindən Bakı məktəblərində jurnallar ləğv edilir və "Rəqəmsal məktəb" platforması fəaliyyətə başlayır. Beləliklə, 2025–2026-cı tədris ili Azərbaycanda böyük ümidlərlə başlanıb. Hər bir şagirdin uğuru, hər bir tələbənin nailiyyəti bütövlükdə ölkəmizin inkişafına xidmət edəcək.

15 Sentyabr – Bilik Günü isə bütün bu dəyərləri özündə birləşdirən, təhsilin gücünü simvolizə edən əlamətdar gündür. Ölkəmizdə təhsil sahəsində həyata keçirilən islahatlar genişmiqyaslı xarakter daşıyır. Məktəblərdə aparılan əsaslı təmir və yenidənqurma işləri, müasir tədris avadanlıqlarının tətbiqi, yeni dərsliklərin istifadəyə verilməsi bu sahədə keyfiyyəti yüksəldir.

Gənc müəllimlərin sertifikasiyadan keçirilməsi isə pedaqoji kadrların peşəkarlıq səviyyəsini artıraraq şagirdlərin təlim-tərbiyəsində mühüm nəticələrə zəmin yaradır. Rəqəmlər də əldə olunan nəticələri təsdiqləyir. Elm və Təhsil Nazirliyinin məlumatlarına görə, 2023–2024-cü tədris ilində ölkə üzrə 1,6 milyondan çox şagird təhsil alıb və onların inkişafı ilə 150 mindən artıq müəllim məşğul olub.

2024-cü ildə məktəbəqədər təhsil müəssisələrində çalışan 11 min 218 nəfər tərbiyəçi-müəllimin ilk dəfə diaqnostik qiymətləndirilməsi keçirilib. Son bir neçə il ərzində məktəbəqədər təhsil müəssisələrinə 800-ə yaxın tərbiyəçi-müəllim, 81 nəfər direktor təyin olunub, məktəbəqədər təhsil üzrə kadr potensialının yaxşılaşdırılması məqsədilə 10 minə yaxın pedaqoji heyət üçün ixtisasartırma təlimləri təşkil edilib.

Dövlət büdcəsindən təhsilə ayrılan vəsaitin hər il artırılması da bu sahənin prioritet olduğunun göstəricisidir. Belə ki, 2024-cü ilin dövlət büdcəsində təhsil xərcləri ümumi xərclərin təxminən 12 faizini təşkil edib.

"Təhsil haqqında" Qanunun 14-cü maddəsində dövlətin təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi üzrə məsuliyyət daşıdığı nəzərdə tutulub. Bu gün həyata keçirilən yenidənqurma layihələri, məktəblərin müasir tələblərə uyğunlaşdırılması və müəllimlərin peşəkarlığının artırılması həmin müddəanın real həyatda icra olunduğunu nümayiş etdirir.

***Ləman TƏHMƏZ***
***XQ***

# ATMU-da Bilik Günü

**Sentyabrın 15-də Azərbaycan Turizm və Menecment Universitetində (ATMU) 2025/2026-cı tədris ilinin başlanması və 15 sentyabr Bilik Günü münasibətilə şənlik keçirilib.**

Universitetin rektoru İlham Mədətov Bilik Günü münasibətilə tələbələri təbrik edib, ATMU-nun ölkənin ali məktəbləri arasında bir sıra nailiyyətlərə imza atdığını, turizm ixtisası üzrə kadr hazırlığını həyata keçirən ilk ixtisaslaşmış dövlət ali təhsil müəssisəsi olduğunu, turizm ixtisası üzrə beynəlxalq ikili diplom proqramının mövcudluğunu, tədrisin ixtisaslı və praktik biliklərə sahib mütəxəssislər tərəfindən aparıldığını, tələbələrə xarici ölkələrdə istehsalat təcrübəsi keçmək imkanının yaradıldığını diqqətə çatdırıb.



İ.Mədətov tələbələrə ATMU-da yaradılan təhsil-təcrübə imkanlarından lazımınca faydalanmağı tövsiyə edib. Tələbə adını qazanan gənclərə təhsil uğurları arzulayıb.

Universitetin sosial menecment fakültəsinin sosial iş ixtisasına ən yüksək balla qəbul olan Aysel Seyfullayeva sevincini tələbələrlə bölüşüb.

Sonda bu il tədris ilində ATMU-ya yüksək balla qəbul olunan ixtisas birincilərinə təltifnamələr və hədiyyələr təqdim edilib.

***Z.HÜSEYNOVA***
***XQ***

# "Xarıbülbül" yay düşərgəsi yekunlaşıb



**Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Gənclər Fondunun dəstəyi, "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin və "Böyük Qayıdış" Gənclər Təşkilatının birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində tarixi Zəfərimizin 5-ci ildönümü münasibətilə Qubada keçirilən "Xarıbülbül" şəhid və qazi övladlarının yay düşərgəsi başa çatıb.**

"Böyük Qayıdış" İctimai Birliyindən verilən məlumata görə, bu günlərdə Quba Olimpiya İdman Kompleksində 80 nəfər gəncin iştirakı ilə 5 gün davam edən düşərgədə Vətən müharibəsi qazilərinin iştirakı ilə görüşlər, karyera planlanması və şəxsi inkişafyönümlü mövzularda təlimlər, yaradıcı master-klaslar, intellektual yarışlar, komanda quruculuğu oyunları, gənclərin müxtəlif ideyalarının və layihə təkliflərinin müzakirəsi keçirilib. Düşərgə müddətində gənclərin bilik və bacarıqlarının artırılması ilə yanaşı, onların asudə vaxtlarını əyləncəli keçirməsi məqsədilə müxtəlif özfəaliyyətlər, musiqili-əyləncəli proqramlar və idman oyunları təşkil olunub.

Düşərgənin sonuncu günündə bağlanış mərasimi keçirilib və iştirakçılara sertifikatlar təqdim olunub. Tədbir musiqili-bədii hissə ilə davam edib. Tanınmış gənc sənətçilərin ifalarında iştirakçılar əyləncəli anlar keçiriblər.

Artıq dördüncü ildir ki, şəhid və qazi övladları üçün ənənəvi olaraq təşkil olunan düşərgənin növbəti illərdə də davamlı olaraq keçirilməsi planlaşdırılır.

***Nurəngiz ADİLQIZI***
***XQ***

# Qeyri-neft ixracında yeni yüksəliş

## *8 ayda 2,4 milyard dollarlıq məhsul satılıb*

**Azərbaycan iqtisadiyyatının inkişaf trayektoriyası artıq neftlə məhdudlaşmır. Son illər atılan ardıcıl addımlar, dövlətin qeyri-neft sektoruna verdiyi dəstək və sahibkarlığın gücləndirilməsi nəticəsində ölkənin ixrac coğrafiyası və strukturunda mühüm dəyişikliklər baş verir. Bunun ən bariz nümunəsi isə 2025-ci ilin yanvar-avqust aylarına dair göstəricilərdir.**



Rəqəmlər Azərbaycanın iqtisadi sabitliyinin, diversifikasiya siyasətinin və milli brend məhsullarının dünya bazarında qazandığı etimadın aydın sübutudur. Cari ilin ilk 8 ayında qeyri-neft sektoru üzrə ixrac ötən ilin eyni dövrü ilə müqayisədə 10,3 faiz artaraq 2,4 milyard dollar səviyyəsinə çatıb. Bu, ölkə iqtisadiyyatının neftdən kənarda da yüksəlişdə olduğunu göstərir.

Azərbaycanın kənd təsərrüfatı və aqrar-sənaye məhsulları üzrə göstəriciləri də diqqətəlayiqdir. Torpağımızın bərəkəti bu gün beynəlxalq bazarlarda layiqli yer tutur. Bu ilin yanvar-avqust aylarında aqrar məhsulların ixracı 28,2 faiz artaraq 614,4 milyon dollar, aqrar-sənaye məhsullarının ixracı isə 4,7 faiz artaraq 209,5 milyon dollar təşkil edib. Ümumilikdə, aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 21,3 faiz artaraq 823,9 milyon dollara yüksəlib. Bu rəqəmlərin arxasında minlərlə fermerin zəhməti, kənd təsərrüfatında tətbiq olunan müasir texnologiyalar və dövlət dəstəyinin real nəticələri dayanır.

### Ekspert rəyi

**Vüqar BAYRAMOV,**
**Milli Məclisin deputatı**



Neftdən kənar sektorun həm inkişafı, həm də ixrac imkanlarının genişləndirilməsi əsas iqtisadi prioritetlər sırasındadır. Nəzərə alınsa ki, iqtisadiyyatın diversifikasiyasının əsas vasitəsi daha çox məhsulların ixracının təşviqidir, bu sahədə atılan addımların önəmi daha da aydın görünür. Bir tərəfdən ümumi ixracın həcminin artırılması, digər tərəfdən isə qeyri-neft sektorunun payının yüksəldilməsi bu kontekstdə mühüm əhəmiyyət daşıyır.

Çünki ixrac ölkəyə valyuta vəsaitlərinin daxil olması deməkdir. Eyni zamanda qeyri-neft məhsullarının ixracının çoxalması iqtisadiyyatın və ixrac strukturunun şaxələndirilməsi baxımından vacibdir. Statistik göstəricilər sübut edir ki, 2025-ci ilin səkkiz ayında qeyri-neft ixracında artım tendensiyası davam edib.

Bu isə bir tərəfdən ixrac potensialının artdığını, digər tərəfdən ixrac olunan məhsullar arasında sənaye məhsullarının payının çoxaldığını göstərir. Bu fakt, təbii ki, ixracın məhsul çeşidləri baxımından zənginləşməsi və diversifikasiya siyasətinin daha da möhkəmlənməsi anlamına gəlir. Məxsusi olaraq meyvə-tərəvəz və digər konservləşdirilmiş məhsulların ixracında müşahidə olunan artımlar da bu prosesin mühüm tərkib hissəsidir. Lakin ümumilikdə, qeyri-neft ixracının strukturu sənaye məhsullarının payının artdığını nümayiş etdirir və bu artım qeyri-neft ixracının keyfiyyəti, yenilənməsi baxımından xüsusi önəm daşıyır.

Bütün bunlar göstərir ki, yeni dövrün hədəflərinə uyğun olaraq iqtisadi diversifikasiya ilə bağlı islahatlar daha da dərinləşir. Bu isə qeyri-neft ixracının həcminin artmasına, ixrac bazarlarının genişlənməsinə və nəticə etibarilə iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı hədəflərə nail olunmasına gətirib çıxarır.

İxrac səbətində ən çox diqqətçəkən sahələrdən biri yeyinti məhsullarıdır. 8 ayda bu sahə üzrə ixrac 22,9 faiz artaraq 774,2 milyon dollar olub. Ənənəvi məhsullar isə öz mövqelərini daha da möhkəmləndirib: şəkər ixracı 58,2, meyvə-tərəvəz 32,2, kimya sənayesi məhsulları 24,3, pambıq iplik 16,3, çay 2,1, qara metallar və onlardan hazırlanan məmulatların ixracı isə 0,2 faiz artım nümayiş etdirib. Bu artımlar Azərbaycanın daxili istehsal imkanlarının güclənməsindən, həm də dünya bazarında keyfiyyətli, rəqabətədavamlı məhsul kimi qəbul olunmasından xəbər verir.

Neft uzun illər Azərbaycan iqtisadiyyatının lokomotivi olub. Lakin bu gün ölkə yeni bir mərhələyə qədəm qoyur. Göstəricilər sübut edir ki, Azərbaycan artıq qlobal iqtisadiyyatın kənd təsərrüfatı, sənaye və digər qeyri-neft məhsulları ilə çıxış edən güclü iştirakçısıdır. İxracın artması, xüsusilə də qeyri-neft sektorunda müşahidə olunan yüksəliş ölkənin valyuta ehtiyatlarını möhkəmləndirir, yeni iş yerlərinin açılmasına zəmin yaradır və ən əsası, Azərbaycanın iqtisadi müstəqilliyini daha da gücləndirir.

Qeyd edək ki, ölkə rəhbərinin sahibkarlığın inkişafına, milli istehsalın gücləndirilməsinə verdiyi strateji dəstək nəticəsində sənaye zonaları işgüzar fəallığın mərkəzinə çevrilib. İnfrastrukturun müasirliyi, güzəştli vergi və gömrük rejimi, sürətli icazə və idarəetmə mexanizmləri sahibkarların bu məkanlara marağını daha da artırır. 2013-cü ildən bu günə qədər sənaye zonalarına 8,03 milyard manat həcmində investisiya cəlb olunub. Bu məkanlarda 160 sahibkar rezident statusu qazanıb, daha 12 sahibkar isə qeyri-rezident kimi fəaliyyət göstərir.

Yatırılan 6,88 milyard manatlıq sərmayə sayəsində 10 min 900 daimi iş yeri yaradılıb. Bu isə həm ailələrin rifahına, həm də ümummilli iqtisadi sabitliyə verilmiş töhfədir. Sənaye zonaları bu gün istehsalın genişləndirilməsi, idxaldan asılılığın azaldılması və ixracın şaxələndirilməsi baxımından diqqət çəkir. Bu zonalarda həyata keçirilən layihələr Azərbaycanın iqtisadi xəritəsini yenidən cızır, regionlarda balanslı inkişafı təmin edir və yerli resursların dəyərə çevrilməsində mühüm rol oynayır.

Azərbaycanın bu uğurları təsadüfi deyil. Onların arxasında illərlə aparılan sistemli iqtisadi islahatlar, kənd təsərrüfatına və sənayeyə yönəldilən dəstək, sahibkarlığın stimullaşdırılması və ixrac missiyalarının fəallaşması dayanır. Bu gün Azərbaycan iqtisadiyyatı öz yolunu aydın şəkildə müəyyən edib: neftlə yanaşı, qeyri-neft sektoru da inkişaf edir və ölkənin qlobal iqtisadi müstəvidə güclü imicini formalaşdırır. Rəqəmlər isə bir daha sübut edir ki, Azərbaycan gələcəyə inamla addımlayır.

***Nurlu ABDALOV***
***XQ***

**Sentyabrın 14-də Şuşa şəhərində Türk Dünyası Sığorta Birliyinin I assambleyası öz işinə başlayıb. Azərbaycan Mərkəzi Bankının strateji dəstəyi, Azərbaycan Sığortaçılar Assosiasiyasının təşkilatçılığı və Türk Dövlətləri Təşkilatının iştirakı ilə keçirilən toplantıda Türk dünyası sığortaçıları ilk dəfə geniş tərkibdə bir araya gəliblər.**

# Türk dünyası sığortaçılarının ilk məclisi Şuşada keçirilib



Azərbaycan Sığortaçılar Assosiasiyasından verilən məlumata görə, Şuşa toplantısında Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Özbəkistan və Şimali Kipr Türk Respublikasının maliyyə requlyatorları və sığorta assosiasiyaları iştirak ediblər. Assambleya çərçivəsində "Türk dünyası sığorta sənayesində requlyativ yanaşmalar" və "Türk Dünyası Sığorta Birliyi: Qarşıda Duran Hədəflər və Perspektivlər" adlı 2 panel üzrə müzakirə təşkil olunub.

Toplantıda Türk Dövlətləri Təşkilatının rəsmisi Fərid Məmmədov qurumun baş katibi Kubanıçbek Ömüraliyevin tədbir iştirakçılarına müraciətini səsləndirib. Türk dövlətləri arasında daxili ticarətin ümumi dövriyyədəki payının 3 faizdən 7 faizə yüksəldiyini diqqətə çatdıran F.Məmmədov türk dövlətlərinin iqtisadi potensialının sürətlə artdığını bildirib. Qeyd olunub ki, 2024-cü ildə ümumi ÜDM 2,1 trilyon ABŞ dollarını, ümumi ticarət dövriyyəsi isə 1,1 trilyon dolları ötüb, üzv ölkələr arasında daxili ticarət 85 milyard dollar təşkil edib.

Azərbaycan Mərkəzi Bankı sədrinin birinci müavini Əliyar Məmmədyarov bildirib ki, ölkəmizdə keçirilən assambleya Türk Dövlətləri Təşkilatının birgə əməkdaşlıq prinsiplərinə əsaslanaraq türk dövlətlərinin sığorta bazarlarının yaxınlaşmasına, ortaq inkişafyönümlü məqsədlərə nail olunmasına və qarşıda duran strateji hədəflərin daha effektiv həyata keçirilməsinə öz səmərəli töhfəsini verəcək. Onun sözlərinə görə, toplantıda qəbul olunacaq qərarlar yalnız milli bazarların deyil, bütövlükdə, Türk dünyasının sığorta sektorunun rəqabət qabiliyyətinin artmasına, yeni texnologiyaların tətbiqinə və dayanıqlı inkişafın təmin edilməsinə xidmət edəcək.

O daha sonra bildirib ki, bu ilin I yarısında Azərbaycanın sığorta sektorunun məcmu kapitalı risk kapitalını, təxminən, 2 dəfə üstələyib. Sədr müavininin sözlərinə görə, bu sahədə həyata keçirilən islahatlar inkişaf və dayanıqlılıq göstəricilərinə də müsbət təsir edib: "Son bir ildə sektorun aktivləri 12 faiz artaraq 2,1 milyard manatı ötüb. Gəlirlilik göstəricilərində də artımlar qeydə alınıb. Bu ilin ilk yarısında sektorun ümumi mənfəəti 80 milyon manatı keçib, aktivlərin gəlirliliyi 7 faiz, kapitalın gəlirliliyi isə 25 faiz təşkil edib".

Sığorta sektoru üçün əsas çağırışlardan biri olan qlobal iqlim dəyişikliklərinin yeni risklərin yaranmasına səbəb olduğunu bildirən Ə.Məmmədyarov Azərbaycanın və ümumilikdə, türk dövlətlərinin coğrafiyasınım iqlim dəyişikliklərinə qarşı xüsusi həssaslığının sığorta məhsulları və xidmətlərinin adaptasiyasını zəruri etdiyini vurğulayıb: "İqlim risklərinin qiymətləndirilməsi və modelləşdirilməsi, "yaşıl sığorta" məhsullarının təşviqi, həmçinin risklərin bölüşdürülməsi mexanizmlərinin inkişafı sığorta bazarlarının əsas vəzifələrindəndir. Təkrarsığorta sahəsində əməkdaşlığın gücləndirilməsi də risklərin effektiv idarə olunmasında mühüm rol oynayır. COP29 beynəlxalq iqlim gündəliyinin ən mühüm toplantısı olaraq ölkəmizin iqlim dəyişikliklərinə qarşı mübarizədə fəal mövqeyini nümayiş etdirdi, dayanıqlı maliyyə, "yaşıl sığorta" və iqlim risklərinin idarə olunması sahələrində yeni imkanlar açdı".

Qeyd olunub ki, Türk Dünyası Sığorta Birliyi çərçivəsində iqlim risklərinə qarşı birgə təşəbbüslərin həyata keçirilməsi iqtisadiyyatlarımızın dayanıqlılığını artırmaqla gələcək nəsillər üçün sabit inkişaf mühiti yaradacaq.

**Azərbaycan Sığortaçılar Assosiasiyasının icraçı direktoru Elmar Mirsalayevin məclis barədə fikirlərini öyrəndik. O dedi:**



– Türk Dünyası Sığorta Birliyinin I assambleyasının Şuşada keçirilməsi olduqca qürurvericidir. Assambleya çərçivəsində Türk Dünyası Sığorta Birliyinin Türk Dövlətləri Təşkilatının məqsəd və prinsiplərinə əsaslanaraq yenidən formalaşdırılmasına dair "Proklamasiya sənədi" imzalandı. Bununla da birliyə 5 təsisçi üzvdən əlavə 3 ölkənin (Macarıstan, Türkmənistan və Şimali Kipr) sığorta assosiasiyaları da müşahidəçi qismində daxil oldular. Yeri gəlmişkən, "Proklamasiya sənədi" birliyin region və sığorta sektoru üçün əhəmiyyətini bir daha qabarıq şəkildə ortaya çıxardı və geniş platforma kimi özünü təsdiqləmiş oldu.

Assambleyada 2 önəmli paneldə geniş müzakirələr və qlobal sığorta sənayesi üçün müasir trendlər ətrafında işgüzar fikir mübadiləsi aparıldı.

Sonda Türk Dünyası Sığorta Birliyinin 2026-cı ildə nəzərdə tutulan assambleyasının keçiriləcəyi ölkə də bəlli oldu. Belə ki, birlik üzvlərinin yekdil qərarı ilə Türk Dünyası Sığorta Birliyinin növbəti assambleyası 2026-cı ildə Türkiyədə keçiriləcək.

Xatırladaq ki, Türk Dünyası Sığorta Birliyi 2022-ci il mayın 24-də Azərbaycan ilə Türkiyənin sığorta assosiasiyalarının birgə təşəbbüsü ilə İstanbulda təsis edilib. Quruma Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistanın sığorta assosiasiyaları üzv olub. Daha sonra Macarıstan, Türkmənistan və Şimali Kiprin sığorta assosiasiyaları müşahidəçi qismində qoşulublar.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Ölkəmiz Seul Beynəlxalq Rəqabət Forumunda təmsil olunub

**Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sədri Elnur Bağırovun rəhbərlik etdiyi nümayəndə heyəti Cənubi Koreyanın paytaxtı Seulda işgüzar səfərdə olub. Soydaşlarımız III Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyası – Müstəqil Dövlətlər Birliyi – Koreya Ədalətli Ticarət Komissiyasının İcraçılar Sammiti (ASEAN-CIS-KFTC) və XIII Seul Beynəlxalq Rəqabət Forumunda iştirak ediblər.**



"ASEAN-CIS-KFTC" icraçılar sammitində region ölkələrinin rəqabət qurumları arasında beynəlxalq əməkdaşlığın gücləndirilməsi, müvafiq sahədə təcrübə mübadiləsi, rəqəmsal bazarların sürətli inkişafının rəqabət mühitinə yaratdığı çağırışlar və rəqabət qanunvericiliyinin genişlənən tətbiq sahələrinin müzakirəsinə həsr olunmuş "Rəqabətin təşviqi və beynəlxalq əməkdaşlıq", o cümlədən "Rəqabət qanunvericiliyinin tətbiqində cari tendensiyalar" mövzusunda sessiyalar təşkil olunub.

"Rəqabət qanunvericiliyinin tətbiqində cari tendensiyalar" sessiyasında agentliyin sədri E.Bağırov rəqabət sahəsində qanunvericiliyin müasir tələblərə uyğunlaşdırılmasının vacibliyindən və Azərbaycanda beynəlxalq təcrübə nəzərə alınmaqla qəbul olunan Rəqabət Məcəlləsindən bəhs edib. İstehlakçıların mənafelərinin qorunması istiqamətində mühüm tədbirlərin görüldüyü və haqsız rəqabət halları ilə mübarizə çərçivəsində bazar iştirakçıları üçün bərabər imkanların yaradıldığı qeyd olunub. Bundan əlavə, dövlət satınalmaları sahəsində təchizatçılar üçün əlçatanlığın və ədalətli rəqabət mühitinin təmin edilməsi məqsədilə satınalma proseslərində süni intellektin potensial tətbiqi imkanlarından söz açılıb.

Səfərin növbəti günü agentliyin nümayəndə heyəti XIII Seul Beynəlxalq Rəqabət Forumunda iştirak edib. Burada "Rəqabət sahəsində dəyişikliklər və rəqabət qurumlarının yenilənən səlahiyyətləri", "Rəqabət və istehlakçı hüquqları ilə bağlı məlumatlar və əlaqəli məsələlər", "Rəqəmsal sektorda spesifik məsələlər: Elektron ticarət və OTT" mövzularında sessiyalar təşkil olunub. Müasir tendensiyalara uyğun rəqabət orqanlarının dəyişən səlahiyyətləri, rəqabət siyasətinin müasir texnoloji inkişaf və innovativ yanaşma konsepsiyalarına uyğunlaşdırılması, rəqəmsallaşmanın, xüsusilə elektron ticarətin bazar dinamikasına təsirləri, eləcə də rəqabət və istehlakçı hüquqlarının müdafiəsi sahələri üzrə məlumatların toplanması, istifadəsi və onlardan irəli gələn hüquqi-iqtisadi məsələlər müzakirə edilib.

***XQ***

# AİB-in növbəti texniki yardım layihəsi

**Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (ADSEA) sədri Zaur Mikayılov ilə Asiya İnkişaf Bankının (AİB) ölkə direktoru Sunniya Durrani-Camal arasında görüş keçirilib. Söhbət zamanı Azərbaycanda dövlət-özəl tərəfdaşlığı sahəsində əməkdaşlıq imkanları müzakirə olunub, Asiya İnkişaf Bankı ilə potensial texniki yardım layihələri təqdim edilib.**



Görüş çərçivəsində ADSEA ilə AİB arasında Hövsan Tullantı Sularının Təmizlənməsi Qurğusu üzrə dövlət-özəl tərəfdaşlığı üzrə texniki yardım sazişi imzalanıb. Bu saziş cari ilin əvvəlində duzsuzlaşdırma zavodunun uğurla tenderə çıxarılmasından sonra Azərbaycanda hazırlanan ikinci dövlət-özəl tərəfdaşlığı layihəsidir.

Xatırladaq ki, Prezident İlham Əliyev 2023-cü il dekabrın 25-də Hövsan aerasiya qurğusundan Xəzər dənizinə axıdılan tullantı sularının təmizlənməsi və təkrar istifadəsi ilə bağlı pilot layihənin həyata keçirilməsi ilə bağlı sərəncam imzalayıb. Gələcəkdə Hövsan Aerasiya Stansiyasındakı sutəmizləyici qurğuların gücünün 200 min kubmetrə qədər artırılması nəzərdə tutulub.

***XQ***

# İstehlak bazarı böyüyüb

**Bu ilin yanvar-avqust aylarında Azərbaycanda istehlakçıların tələbatlarının ödənilməsi məqsədilə satılmış malların və göstərilmiş xidmətlərin dəyəri 51,5 milyard manat olub.**

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, bu, 2024-cü ilin eyni dövrü ilə müqayisədə 5 faiz çoxdur. Hesabat dövründə ümumi dəyərin 78,6 faizini pərakəndə ticarət dövriyyəsi, 18 faizini əhaliyə göstərilmiş ödənişli xidmətlərin dəyəri, 3,4 faizini isə ictimai iaşə dövriyyəsi təşkil edib. Qeyri-dövlət sektorunda fəaliyyət göstərən təsərrüfat subyektlərinin satdığı malların və göstərdiyi xidmətlərin dəyəri ötən ilin 8 ayına nisbətən 4,9 faiz artaraq 49,4 milyard manat olub, onun 43,9 faizi fərdi sahibkarların fəaliyyəti sayəsində formalaşıb.



8 ayda bir istehlakçı orta hesabla ayda 628,4 manat və yaxud illik müqayisədə nominal ifadədə 56,8 manat çox vəsait xərcləyib.

***XQ***

*Vasif Babayev – 85*

# Milli televiziyanın ilk Xalq artisti rejissoru

**Ondan qabaq böyük qardaşı – kinorejissor Arif Babayevi tanımışıq. Doğma İçərişəhərdə cazmen dostu Vaqif Mustafazadə ilə Arif Vasifin mədəniyyət və incəsənətə meyil göstərməsində müstəsna rol oynayıblar. Azərbaycan televiziyası işə başlayan gündən orada çalışmış Arif Babayev kinostudiyaya gedəndə artıq 3 il idi ki, Vasif televiziyada rejissorluq edirdi. Yəni teleməkanımız bir gün də Babayevlərsiz qalmayıb.**

Mən 80-ci illərin sonlarında televiziyaya gələndə Vasif Babayev artıq ən aparıcı rejissorlardan idi. Geniş formatlı Yeni il "Mavi işıq"ları, çoxsaylı sənədli filmləri, "Dalğa", "Həftə", "Arzu musiqi poçtu", "Hər çinardan bir yarpaq", "Görüşlər, xatirələr", "Ədəbi üfuqlər" kimi populyar silsilə verilişləri ilə tanınırdı. Montaj vaxtı o qədər ciddiləşirdi ki, söz deyib fikrini yayındırmağa kimsə ürək etmirdi. Qalan vaxtlarda isə olduqca səmimi, mehriban idi Vasif Babayev. O, qoltuğunda "İzvestiya", "Azadlıq" və sair qəzetlərlə çayxanamıza gələndə hər birimiz ayağa qalxıb yer təkilf edir, söhbətlərini eşitməyi qənimət bilirdik. Xüsusilə də xalq hərəkatı, azadlıq mübarizəsi barədə dedikləri maraqlı olurdu. O, tanınmış telejurnalist Nadejda İsmayılova ilə birlikdə ilk dəfə Dövlət təhlükəsizlik orqanlarının arxivlərində araşdırmalar aparandan sonra Mikayıl Müşfiq, Salman Mümtaz, Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb haqqında silsilə verilişlər hazırlamasından həvəslə danışır, sovet imperiyasına qarşı qəzəb hissimizi artırırdı.



Deyirdi ki, 2 dəfə təhlükəli rəhbərlərlə toqquşub. İlk dəfə 9 yaşı olanda, Mircəfər Bağırovla "əyani", 2-ci dəfə isə 50 yaşında ikən Mixail Qorbaçovla "qiyabi" olaraq.

...Balaca Vasif filarmoniya tərəfdə küçə ilə qaçarkən təsadüfən "Mirqəzəb"lə toqquşub və çantasındakı mürəkkəbqabı zərbədən sınaraq hər ikisinin üst-başını bulaşdırıb. Aradan çıxmaq istəyəndə tutub rəhbərin hüzuruna gətiriblər. Tanış olublar və uşağın yaxın dostu Əliağa kişinin qardaşı oğlu olduğunu bilincə Bağırov ona deyib: "Qaç, get evinizə"...

Qorbaçovla "toqquşma"sı isə SSRİ-nin süqutu ərəfəsində olub. Daha doğrusu, rejimlə "toqquşması". O vaxtlar yenicə Xalq artisti fəxri adını almış AzTV-nin baş rejissoru Vasif Babayev 20 Yanvar hadisələrindən sonra daha 45 soydaşımızla bərabər həbs edilərək, özü demişkən, "dahi Leninin vətəni"nə – uzaq Ulyanovsk şəhərinə aparılıb. Orada 1 ay olmazın zillətlər çəkib. Cəzanın səbəbi ruslar AzTV-nin enerji blokunu partlatdıqdan sonrakı "xoşagəlməz" fəallığı, operatorları etiraz çıxışlarını çəkməyə göndərməsi və mitinqlərə çağırış videokasetlərini gizlətməsi, bir sözlə, fədakar vətənpərvərliyi olub...

Vasif Hacıağa oğlu Babayev 1940-cı il sentyabrın 16-da Bakıda anadan olub. 1965-ci ildə İncəsənət İnstitutunu bitirib. Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində əvvəlcə rejissor köməkçisi, assistent, rejissor olub, 1966-cı ildə Leninqrad Televiziyası nəzdində Ali Televiziya rejissoru kurslarını bitirib. Bolqarıstan, Yuqoslaviya, Avstriya, Macarıstan, Yunanıstan, İran, Türkiyə, Malta, İspaniya, Fransa, İtaliya kimi xarici ölkələrdə çəkilişlər apararaq verilişlər və kinofilmlər yaradıb. Azərbaycan Dövlət Televiziyasında bədii rəhbər vəzifəsinə qədər yüksəlib. Sonrakı illərdə "MİR" Dövlətlərarası Teleradio Şirkətinin Azərbaycan üzrə direktoru, Moskvada Rusiyanın "İnter-Az" müstəqil Teleradio şirkətinin vitse-prezidenti olub. 40-a yaxın sənədli filmə müəlliflik və rejissorluq edib.

Yubilyar sənətçi 1970-1982-ci illərdə Ulu öndər Heydər Əliyevin iştirakı ilə keçirilən dövlət və hökumət tədbirlərinin, televiziya verilişlərinin və canlı yayımlanan proqramların aparıcı rejissoru olub. Ümummilli liderin televiziya və kino salnaməsinin yaradıcılarından biri olması ilə fəxr edir. 2000-ci ildən Peşəkar Azərbaycan Kinorejissorları Gildiyasının üzvüdür. "Xuraman" sənədli filmi Azərbaycan kino tarixində ilk dəfə beynəlxalq festivalın "Qran-pri"sinə layiq görülüb, "Akademik Yusif Məmmədəliyev" medalı, "Humay" mükafatı laureatı, Beynəlxalq Televiziya və Radio Akademiyasının akademikidir.

Öz sənətinin fədaisi kimi tanınan, neçə nəsil televiziya işçilərinin yetişməsində bilavasitə əməyi olan tanınmış rejissor 2005-ci ildən Prezidentin fərdi təqaüdçüsüdür. O, tək rejissor deyil, həm də reportyor kimi hər zaman irəlidə olub. Görkəmli Vətən oğullarımızın, qəhrəmanlarımızın nəsillərə yadigar olan irsinin, rəşadətinin təbliği, ən gözəl rakurslardan təqdimatı Vasif Babayev yaradıcılığının vizit kartıdır.

Yubileyinizi təbrik edirik, Vasif müəllim!

***Əli NƏCƏFXANLI***
***XQ***

**Azərbaycan Texnologiya Universitetində (ATU) 2025–2026-cı tədris ilinin başlanması münasibətilə təntənəli tədbir təşkil olunub. Tədbir universitetin bayraq meydanında Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və Dövlət Bayrağının ucaldılması ilə rəsmi şəkildə açıq elan edilib.**

# Gəncədə yeni dərs ili şənliyi




Daha sonra ümummilli lider Heydər Əliyevin əziz xatirəsi, eləcə də Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad olunub.



Tədbirdə çıxış edən universitetin rektoru, dosent Yaşar Ömərov professor-müəllim heyətini və tələbələri yeni dərs ilinin başlanması münasibətilə səmimi-qəlbdən təbrik edib, onlara elmi fəaliyyətlərində və təhsildə uğurlar arzulayıb. O, ali təhsil müəssisəsində tələbələrin hərtərəfli inkişafı üçün yaradılan şəraitdən, maddi-texniki bazanın gücləndirilməsindən və müasir tədris metodlarının tətbiqindən bəhs edib. Rektor vurğulayıb ki, ATU əmək bazarının tələblərinə uyğun, rəqabətqabiliyyətli və yüksəkixtisaslı mütəxəssislərin hazırlanması istiqamətində məqsədyönlü addımlar atır. O, tələbələri verilən imkanları düzgün dəyərləndirməyə, təhsilə məsuliyyətlə yanaşmağa çağırıb.

Tədbirdə çıxış edən YAP Gəncə Şəhər Təşkilatının sədri Bayram Aslanov, şəhid anası Kəmalə Abdullayeva və qazi Mətin Abdinov tələbələri təbrik edərək onlara müvəffəqiyyətlər arzulayıblar. Natiqlər ölkəmizdə təhsilin inkişafına göstərilən dövlət qayğısından bəhs edərək, gənclərin bu etimadı doğrultmalarının vacibliyini diqqətə çatdırıblar.

Daha sonra ali məktəbə ən yüksək balla qəbul olunmuş tələbə Nurlan Rəhimli və qazi tələbə Şəhriyar Ələkbərli çıxış edərək, təhsil almağın verdiyi sevinc və məsuliyyətdən söz açıblar.

Tədbirin sonunda ATU-ya fakültələr üzrə ən yüksək balla qəbul olunmuş tələbələrə tələbə biletləri və xatirə hədiyyələri təqdim olunub.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri,***
***Gəncə***

# Borçalıda bilik günü təntənəsi

**Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsinin layihələri çərçivəsində Gürcüstanda fəaliyyət göstərən "Qabal İnkişaf Mərkəzində" məktəb şagirdləri və gənclərin iştirakı ilə 15 sentyabrda Azərbaycanda Bilik Gününə həsr olunmuş tədbir keçirilib. İştirakçılar Azərbaycanın müəllim, tələbə və şagirdlərini yeni tədris ili münasibətilə təbrik ediblər.**

Mərkəzin rəhbəri Yavər Məmmədov çıxışında müstəqil Azərbaycanın taleyinin etibarlı əllərdə olduğunu və Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkənin dünya dövlətləri sırasında layiqincə təmsil olunduğunu, beynəlxalq aləmdə nüfuzunun artdığını, davamlı inkişafın, sabitliyin təmin edildiyini vurğulayıb. O, xaricdə yaşayan soydaşlarımıza qayğı və diqqət göstərilməsi istiqamətində ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursun hazırkı dövlət başçısı tərəfindən uğurla davam etdirildiyini söyləyib.



Mərkəz rəhbəri Gürcüstanda məktəblərin optimallaşması ilə bağlı xeyli işlər görüldüyünü, kiçik məktəblərin birləşdirildiyini bildirib. Onun sözlərinə görə, bu gün heç bir azərbaycanlı balası təhsildən kənarda qalmayıb. Ən ucqar kənddə yaşayanlara da dövlət məktəblərə getmək üçün avtobus verir. Məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi üçün işlər görülür. Müəllimlərin əmək haqqısı artırılır. Müəllim kadrlarının hazırlığı ilə bağlı Təhsil Nazirliyi tərəfindən təxirəsalınmaz tədbirlər həyata keçirilir.

Komitənin layihələri çərçivəsində mərkəzdə Azərbaycan və gürcü dillərinin tədrisi və həftəsonu məktəblərinin açılması da azərbaycanlı uşaqlara ana dilini, milli şüurlu formalaşdırmaq istiqamətində mühüm rol oynayır.

Prezident İlham Əliyevin dünya azərbaycanlılarının Şuşada keçirilən möhtəşəm V Qurultayındakı tarixi çıxışında xaricdəki yeni nəsil soydaşlarımıza yönəlik vacib tövsiyələr vardı. Cənab Prezident açılış nitqində bildirdi: "Əlbəttə, çox istəyirik ki, ikinci, üçüncü nəsil azərbaycanlılar öz mədəniyyətinə bağlı olsunlar. Əlbəttə, bu, o qədər də asan məsələ deyil. Burada onlar, ilk növbədə, Azərbaycan dilini bilməlidirlər. Burada, əlbəttə ki, təkcə ailələrdə Azərbaycan dilini yaşatmaq mümkündür, ancaq kifayət deyil. Ona görə Azərbaycan məktəblərinin, bazar günü məktəblərinin açılması istiqamətində də biz hər zaman kömək göstərməyə hazırıq. Əslində, bunu edirik. Bəlkə də bunu daha da təşkilatlanmış şəkildə etmək lazımdır. Çünki Ana dili əsas amildir. Ana dili bütün Azərbaycan vətəndaşlarını birləşdirir".

Tədbirdə çıxış edənlər Azərbaycan və gürcü xalqlarının tarixi dostluq münasibətlərindən söhbət açıb. "Qabal İnkişaf Mərkəzi"nin fəaliyyəti dövründə yerli azərbaycanlı icmasının gürcü ictimaiyyətinə inteqrasiyasında mühüm rol oynadığını qeyd ediblər.

***P.ƏMİRCANOV***
***XQ***


# "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti

*"AZALOİL YSM" idarəsinin istehsalat sahələrinin yenidənqurulması üçün layihələndirmə xidməti üzrə*

## AÇIQ TENDER ELAN EDİR

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin "AZALOİL YSM" idarəsinin istehsalat sahələrinin yenidən qurulması üçün layihələndirmə xidməti üzrə açıq tenderdə iştirakçılar f.seyidbayli@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 30 sentyabr 2025-ci il saat 15.00-dır.

Prosedur üzrə əlaqələndirici şəxs – Faiq Seyidbəyli, satınalmalar idarəsi, şöbə rəisi f.seyidbayli@azal.az

Əlaqə: (+99412) 4972600; daxili 8087.



# "LUKOIL-Azərbaycan" QSC-nin
## *TENDER ELANI*

Hörmətli xanımlar və cənablar!

Biz bununla sizi işlərin (xidmət, təchizat) yerinə yetirilməsinə dair tenderdə iştirak etməyə dəvət edirik: "LUKOIL-Azərbaycan" QSC-nin 19 və 83 saylı yanacaqdoldurma məntəqələrində tikinti-quraşdırma işlərinin sifarişi üzrə 2 mərhələli açıq tenderdə iştirak etməyə dəvət edirik.

Keçirilən tender barədə ümumi məlumat:

Sifarişçi: "LUKOIL-Azərbaycan" QSC

Ünvan: Bakı şəhəri. Səbail rayonu, Z.Tağıyev küçəsi 13

Əlaqə telefonları: (012) 497-41-99 / dax. 4246

E-mail: rasul.aliyev@eu.lukoil.com

Əlaqələndirici şəxs: Rəsul Əliyev

İşlərin icra müddəti: Müqavilənin imzalanma tarixindən etibarən 2 (iki) ay.

Sənədlərin tam toplusu, tenderdə iştirak etmək üçün zəruri sənədlərlə birgə təqdim etdiyiniz ərizənin, verilmiş tələblərə uyğunluq ekspertizasından sonra, Sizin ünvana göndəriləcək. Ərizə ilə birlikdə iddiaçılar mütləq qaydada kvalifikasiya anketlərini təqdim etməlidirlər.

Tenderdə iştirak etmək üçün ərizələrin təqdimi və tender sənədlərinin alınması müddəti 1 oktyabr 2025-ci il saat 18.00-dəkdir. Ərizə ilə birlikdə mütləq şəkildə kvalifikasiya anketi təqdim olunmalıdır.

Tender təklifləri 1 oktyabr 2025–ci il saat 18.00-dək yuxarıda qeyd olunan ünvana təqdim edilməlidir.

Tender 3 oktyabr 2025–ci il saat 11.00-da yuxarıda qeyd olunmuş ünvanda keçiriləcək (1-ci mərhələ).

Tender 6 oktyabr 2025–ci il saat 11.00-da yuxarıda qeyd olunmuş ünvanda keçiriləcək (2-ci mərhələ).

Qeydə alınmış namizədlərin, tender təklifləri olan zərflərin açılmasında iştirakı mütləqdir.

Müqavilə üzrə hesablaşma nağdsız ödəniş yolu ilə, icraçının bank hesabına ödənilir.

Müqavilə şərtlərini yerinə yetirmək üçün tender iştirakçılarının texniki imkanı, zəruri sənədlər toplusu olmalıdır.

Tender təkliflərinin qüvvədə olma müddəti 90 təqvim günündən az olmamalıdır.

Tender təklifləri Azərbaycan və ya rus dillərində təqdim olunmalıdır.

Tenderin qalibi ilə , tender başa çatdıqdan sonra , 20 təqvim günü ərzində müqavilə bağlanacaqdır

Tenderdə iştirak üçün "ərizə" forması, habelə tender haqqında tam məlumatları yuxarıda qeyd olunan telefon və elektron poçtu vasitəsi ilə almaq olar.

***Tender komitəsi***



# "ЛУКОЙЛ-Азербайджан" ЗАО
## ОБЪЯВЛЕНИЕ О ПРОВЕДЕНИИ ТЕНДЕРА

Уважаемые Дамы и Господа!

Настоящим приглашаем вас принять участие в открытом тендере на проведение строительно-монтажных работ на автозаправочных станциях №19 и №83 ЗАО "ЛУКОЙЛ-Азербайджан"

Общая информация о проводимом тендере.

Заказчик: ЗАО "ЛУКОЙЛ-Азербайджан"

Адрес: Сабаильский район, ул. З.Тагиева 13

Контактное лицо: Алиев Расул

Контактные телефоны (012) 497 41 99 / доб. 4246

E-mail: rasul.aliyev@eu.lukoil.com.

Дата начала и окончания работ: 2 (два) месяца с даты подписания договора.

Полный комплект тендерной документации направляется в Ваш адрес после экспертизы полученной заявки на участие в тендере с приложением необходимых документов на предмет соответствия предъявляемым требованиям. Вместе с заявкой претенденты обязательно должны предоставить квалификационные анкеты.

Срок подачи заявки на участие в тендере и приобретение тендерной документации – 1 октября 2025 г. до 18:00 по адресу, указанному выше.

Срок предоставления тендерных предложений до 1 октября 2025 г. до 18.00 по адресу, указанному выше.

Дата проведения тендера 3 октября 2025 г. в 11.00 по адресу, указанному выше (первый этап).

Дата проведения тендера 6 октября 2025 г. в 11.00 по адресу, указанному выше (второй этап).

Участие представителей зарегистрированных претендентов во втором этапе тендера обязательна.

Расчеты по договору будут проводиться по безналичному расчету путем перечисления на счет исполнителя.

Участники тендера должны иметь технические возможности проведения работ, набор необходимых документов для выполнения условий контракта.

Срок действия тендерных предложений должен составлять не менее 90 календарных дней, начиная с даты проведения тендера.

Тендерные предложения необходимо представить на азербайджанском и русском языках.

С победителем тендера будет заключен договор в течение 20 календарных дней с момента окончания тендерных торгов.

Форму «Заявки на участие в тендере», а также иную информацию можно получить по указанным в приглашении телефонам и адресу электронной почты.

***Тендерный комитет***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 197 (30891) 16 sentyabr 2025-ci il, çərşənbə axşamı

## İDMAN

## Dünya çempionatında uğurlu nəticə

**Xorvatiyanın paytaxtı Zaqrebdə güləş üzrə dünya çempionatı davam edir.**



Azərbaycan Güləş Federasiyasının mətbuat xidmətindən aldığımız məlumata görə, Nürəddin Novruzov (61 kq) təsəllivericі görüşlərdə ekvadorlu Coşua Kramerə (10:0) və ukraynalı Kamil Kərimova (12:2) tam üstünlüklə qalib gəlib. Nürəddin bürünc medal uğrunda görüşdə isə Şimali Koreya təmsilçisi Kumi "tuş"la üstələyərək dünya üçüncüsü olub.

Arseniy Djioyev (86 kq) təsəllivericі görüşdə ukraynalı Muxammed Aliyevə 7:2, bürünc medal uğrunda mübarizədə isə fransalı Raxim Maqamadova 7:0 hesabıyla qalib gələrək bürünc medalı qazanıb.

Finala yüksələn təmsilçimiz Giorgi Meşvildişvili (125 kq) iranlı Amir Zareylə qarşılaşıb. O, rəqibinə 0:5 hesabıyla məğlub olaraq yarışı gümüş medalla başa vurub.

Dünən axşam 79 kiloqram çəkidə təmsilçimiz Cəbrayıl Hacıyev iranlı Mohammad Noxodilarimi ilə, 91 kiloqram çəkidə isə Osman Nurmaqomedov Gürcüstan güləşçisi Miriani Maysuradze ilə bürünc medal uğrunda görüşüb.

## "Misli"də IV tur

**Misli Premyer Liqasında IV tura yekun vurulub. Turun son oyunlarında "Sabah" səfərdə "Neftçi" ilə qolsuz heç-heçə edib, "Şamaxı" isə "Karvan-Yevlax"ın qapısından üç cavabsız top keçirib.**



Xəbər verdiyimiz kimi, daha əvvəl keçirilən qarşılaşmalarda "Araz-Naxçıvan"– "Kəpəz" – 2:0, "Turan Tovuz" –"Qəbələ"– 1:0, "İmişli" – "Sumqayıt" – 1:0 hesabı qeydə alınıb. "Qarabağ" – "Zirə" görüşü isə heç-heçə yekunlaşıb – 1:1.

## Qalib pilot kim olacaq?

**Bukmekerlər "McLaren"in pilotu Oskar Piastrini qarşıdan gələn Azərbaycan Qran-Prisinin favoriti hesab edirlər.**



Bukmekerlər avstraliyalının Bakıda qələbəsini 2,75 əmsalla qiymətləndiriblər. "McLaren"in digər pilotu Lando Norrisin qələbə şansı isə 2,85 əmsala bərabərdir. Bakıda qələbə şansı yüksək olan ilk 5 pilot arasında Maks Ferstappen ("Red Bull") və "Ferrari"nin hər iki pilotu – Şarl Lekler və Luis Hemilton da var.

Qeyd edək ki, Formula 1 üzrə Azərbaycan Qran-Prisi sentyabrın 19-21-də keçiriləcək.

*Qabil YUSİFOĞLU*
*XQ*

*"Azərbaycan Televiziya və Radio Verilişləri" QSC tərəfindən Süleymanov Elmir Süleyman oğlunun adına verilmiş 001925574 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.*

*Liqa mərhələsi, I raund*

# "Qarabağ" çempionlar sammitinə Lissabonda başlayır

**Tarixində ikinci dəfə rəsmən UEFA Çempionlar Liqasının Liqa mərhələsi adlandırılan, ya da sadəcə, bu yarışın böyük əhəmiyyətinə rəğbətlə nəhənglər meydanı da deyilən turnirdə oynamaq hüququ qazanmış Ağdam komandası Portuqaliyanın paytaxtı, 1996-cı ildə ATƏT dövlət və hökumət başçılarının Sammitinin təşkilatçısı olmuş Lissabonun qonağıdır.**



Bu gün axşam Azərbaycan çempionu bir vaxtlar "Benfika"nın və ölkəsinin yığma komandasının şərəfini qorumuş, 1966-cı ildə İngiltərədə dünya çempionatında SSRİ komandası ilə 3-cü yer uğrunda görüşdə futbolumuzun əfsanəsi Anatoli Banişevskiyə rəqib olmuş digər əfsanə Eysebionun vətənində qitə klublarının ən nüfuzlu turnirində ilk oyununa çıxacaq. Rəqib adlı-sanlı "Benfika"dır.

Təmsilçimiz Portuqaliyaya bir həftə əvvəl Azərbaycan millisinin 2026-cı il dünya çempionatının seçmə mərhələsində Ukraynaya qarşı fədakar mübarizəsinin futbol ictimaiyyətimizdə yaratdığı xoş əhval, nikbinlik hissi şəraitində gedib. Buna qədər məğlubiyyətlər içində itib-batan komanda Santuşla 9 məğlubiyyət və 2 heç-heçədən sonra yerli mütəxəssis Ayxan Abbasovla elə ilk oyunda qolların və xalların hesabını açıb, nəhayət, sevinc hissi yaşayıb.

Millinin Reykyavikdə İslandiya ilə görüşdə nokauta bərabər uğursuzluğunun Bakıda fəal mübarizə sayəsində qazanılmış mühüm heç-heçə ilə əvəz olunmasında həmin axşam Tofiq Bəhramov adına Respublika Stadionunda meydana çıxan "Qarabağ"lılar Şahruddin Məhəmmədəliyev, Bəhlul Mustafazadə, Elvin Cəfərquliyev, Toral Bayramov, Musa Qurbanlı və Abbas Hüseynovun da xidmətləri az deyil.

İki cəbhədə döyüşən bu gənclər yığma kollektivdəki dostları ilə birlikdə mundialın Avropa zonasının "D" qrupunda Azərbaycan komandasının finişə ikinci çatmaq imkanlarını da nəzəri cəhətdən qorumuşlar. Oktyabrda Fransa və Ukraynaya qarşı səfər matçları nə qədər ağır olacaqsa da, hər halda, həmin oyunları maraqla gözləməyə müəyyən dərəcədə əsas var. Heç bir halda silahı vaxtından əvvəl yerə qoymaq olmaz. Noyabrda isə İslandiya və Fransa ilə son oyunlar Bakıda keçiriləcək. Deməli, əsas hadisələr hələ irəlidədir.

Qarşıdakı oyunları gözləyərkən yenə "Qarabağ"la nəfəs alacağıq. Qurban Qurbanovun komandası ikinci dəfə Çempionlar Liqasının qrup mərhələsinin qapısını üzümüzə açmaqla futbol ictimaiyyətimizin ömrünü uzatmışdır desək, elə bir mübaliğəyə yol vermiş olmarıq. Sevinc hissi həmişə insanlara gümrahlıq gətirir, onlarda xoş əhval yaradır, gələcək uğurlara, xeyirxah işlərə inamı artırır.

Bu gündən başlayaraq 2026-cı il yanvarın 28-dək həyatımızın bir parçasına çevriləcək böyük-böyük klublarla 8 oyuna şahidlik etmək imkanı yaratmış Ağdam komandası çətin sınaqlarda, şübhəsiz, qüvvəsini əsirgəməyib, mümkün qədər çox xal toplamağa çalışacaq. Avropanın ən yaxşı 36 klubunun rəqabətində təmsil olunmaq, əlbəttə ki, futbolumuz üçün böyük şərəfdir.

Ağır mübarizənin finişinə ən yaxşı 24 komanda sırasında çatmaq isə ikiqat şərəfli olar. Ümumi yekun cədvəlində məhz ilk 24 yerin sahibləri pley-off görüşlərinə vəsiqə qazanacaq, bu oyunlarda da uğur onların tərəfində olsa, daha da uzağa gedəcəklər.

Bakı vaxtı ilə saat 23-də Lissabonda başlanacaq "Benfika"–"Qarabağ" qarşılaşmasından sonra turnirdə iki həftəlik fasilə veriləcək, komandalar bütün diqqətlərini öz daxili çempionatlarındakı oyunlara yönəldəcəklər. Azərbaycan çempionu təqvimə əsasən Liqa mərhələsində ikinci görüşündə oktyabrın 1-də Danimarkanın paytaxtı Kopenhagen şəhərinin eyniadlı klubunu qəbul edəcək. Sonra da daha üç səfər matçı, evdə də bir o qədər oyun olacaq.

Bir sözlə, qışda üşüməyəcəyik. Gələn il yanvarın sonunadək bizi həyəcanlı, səs-küylü böyük futbol günləri gözləyir. "Qarabağ"ımızın yeni zəfərlərinə sevinək!..

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

# Formula 1: Uniforma və Akkreditasiya Mərkəzi fəaliyyətə başladı



**Formula 1 Azərbaycan Qran-Prisi 2025-ə hazırlıqlar plan üzrə davam edir. Bu hazırlıqların mühüm mərhələlərindən biri olan Vahid Uniforma və Akkreditasiya Mərkəzi artıq tam fəaliyyətə başlayıb. Mərkəz rəsmi olaraq 3 sentyabr tarixindən etibarən Milli Gimnastika Arenasında minlərlə əməkdaş, könüllü, marşal, təhlükəsizlik işçisi və podratçı nümayəndələrini qəbul edir.**

Burada iştirakçılara yarış günlərində istifadə ediləcək akkreditasiya kartları və xüsusi uniformalar təqdim olunur. Mərkəzin işinin səmərəli təşkili üçün Bakı Şəhər Halqası Əməliyyat Şirkəti (BŞHƏŞ) tərəfindən bütün zəruri şərait yaradılıb.

BŞHƏŞ-in insan resursları üzrə baş meneceri Lamiyə Şahməmmədova açıqlama verdi ki, Uniforma və Akkreditasiya Mərkəzində 140-dən çox könüllü çalışır. O, yarış üçün 31 min nəfərin könüllü olmaq üçün qeydiyyatdan keçdiyini bildirdi: "16 mini müsahibəyə çağırılıb və onlardan 2 minə yaxını Bakıdakı yarış üçün seçilib".

Könüllülər qeydiyyat, akkreditasiyaların hazırlanması, uniformaların paylanması və məlumatların idarə olunması proseslərinə cavabdehdirlər. Könüllülərin bu dəstəyi sayəsində yarış günlərinə qədər bütün işçi heyəti lazımi təchizatla təmin olunacaq.

Qeyd edək ki, Bakı bu il artıq 9-cu dəfə Formula 1 Qatar Airways Azərbaycan Qran-Prisinə ev sahibliyi edəcək. 19–21 sentyabr tarixlərində paytaxtımızın küçələri yenidən mühərriklərin gurultusu ilə canlanacaq və şəhər böyük sürət festivalına çevriləcək. İdmansevərlər artıq böyük həyəcanla sentyabrda Bakını əsl sürət və adrenalinin mərkəzinə çevirəcək möhtəşəm yarışları gözləyirlər.

*S.ELAY*
*Cavid QAÇAYEV (foto)*
*XQ*



*Hava*

# Bu gün də yağmurlu olacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Əsasən səhər və axşam bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək.**



Havanın temperaturu gecə 16-19, gündüz 20-24 dərəcə isti olacaq. Atmosfer təzyiqi 769 millimetr civə sütunundan 766 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-75, gündüz 55-60 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüzdən bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Əsasən dağlıq və dağətəyi rayonlarda qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 15-18, gündüz 19-24, dağlarda gecə 2-7, gündüz 7-12 dərəcə isti olacağı gözlənilir.

*Q.ƏLİYEV*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3430
SİFARİŞ 1742
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00